Bu bir xalq qəzetidi
ƏDALƏT

## Erkan Özoral: "Türkiyə mina xəritələrinin verilməsini tələb edir"



**Türkiyə bütün məsələlərdə olduğu kimi minaların təmizlənməsi məsələsində də Azərbaycana əlindən gələn dəstəyi verməyə çalışır.**

Adalet.az-ın məlumatına görə, bunu Türkiyənin Azərbaycandakı səfiri Erkan Özoral jurnalistlərə açıqlamasında deyib. Səfir bildirib ki, indiyə qədər Ermənistanın minalanmış ərazilərin xəritəsini Azərbaycana verməməsi beynəlxalq hüquqa ziddir: "Türkiyə bu xəritələrin tez bir zamanda Azərbaycana verilməsini tələb edir. Eyni zamanda minaların təmizlənməsi məsələsində də Azərbaycana dəstək veririk. Hazırda Türkiyənin minatəmizləmə qrupları da işğaldan azad edilmiş ərazilərin minalardan təmizlənməsində iştirak edirlər".

## Meliorasiya və Su Təsərrüfatı ASC-yə yeni sədr təyin edildi



**Prezident İlham Əliyev Zaur Mikayılovun Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin sədri təyin edilməsi haqqında sərəncam imzalayıb.**

Sərəncamda qeyd edilir ki, Zaur Rauf oğlu Mikayılov Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin sədri təyin edilsin.

## *İki general həbs edildi*



***Keçmiş Milli Təhlükəsizlik Nazirliyinin iki generalı həbs edilib.***

***Keçmiş nazir Eldar Mahmudova yaxınlığı ilə seçilən generallar Nizami Şirinov və Mövlam Şıxəliyev hüquq-mühafizə orqanları tərəfindən həbs ediliblər. Hər iki şəxs barəsində 4 aylıq həbs qətiimkan tədbiri seçilib.***

***Qeyd edək ki, N. Şirinov ləğv edilən MTN-nin Hərbi Əks-Kəşfiyyat İdarəsinin rəisi, M. Şıxəliyev isə İstintaq Baş İdarəsinin rəisi işləyib.***

## *"Mina xəritələrinin verilməməsi regionda sülh və etimadın qarşısını alır "*



**Minalar müharibədən sonra mülki əhaliyə təhlükələr yaradır və inkişafın qarşısını alır.**

Adalet.az-ın məlumatına görə, bunu Azərbaycan Prezidentinin köməkçisi Hikmət Hacıyev Beynəlxalq Mina Xəbərdarlığı və Mina Aksiyasına Yardım Günü ilə əlaqədar tədbirdə deyib. H.Hacıyev qeyd edib ki, Ermənistan 30 illik işğal müddətində Azərbaycan ərazisində çoxlu sayda minalar basdırıb.

PA rəsmisi bildirib ki, mülki əhali minaların hədəfi olmamalıdır:

"Bu, beynəlxalq humanitar hüquqa əsasən Ermənistan Azərbaycanın mülki əhalisinin hüquqlarını kobud şəkildə pozur. Ermənistan həmçinin beynəlxaıq qanunları pozaraq mina xəritəsini Azərbaycana təqdim etməkdən imtina edir. Minalar Azrbaycan əhalisinə qarşı qırğındır və işğaldan azad edilmiş ərazilərin bərpasını ləngidir".

H.Hacıyev bildirib ki, minaların xəritəsinin Ermənistan tərəfindən təqdim edilməməsi eyni zamanda regionda sülh və etimadın yaradılmasının qarşısını alır.

## TƏBİB vətəndaşlara çağırış etdi - Saxta sənəd iddiası

**Koronavirus xəstəliyinin yayılmasının qarşısını almaq üçün dövlətimiz ilk gündən peyvəndlərin əldə edilməsində böyük səy göstərib və hazırda ölkəmizdə "Vaksinasiya Strategiyası"na uyğun olaraq bu proses dövlət hesabına könüllü şəkildə uğurla həyata keçirilir.**

TƏBİB
Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi

Bu barədə Adalet.az-a Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyindən məlumat verilib.

Qeyd edilib ki, son zamanlar müxtəlif KİV-lərdə və sosial şəbəkələrdə koronavirus əleyhinə peyvəndin vurulması ilə bağlı vətəndaşların saxta sənəd əldə etməsi barədə məlumatlar yayılır:

"TƏBİB olaraq hər kəsi sözügedən neqativ hallardan çəkinməyə dəvət edirik. Unutmayaq ki, vaksin bizim sağlamlığımızın qorunması və yenidən normal həyata dönə bilməyimiz üçün yeganə vasitədir.

Onu da bildirək ki, TƏBİB yalnız Abşeron, Sumqayıt və regionlar da daxil olmaqla vaksinasiya prosesinin təşkili ilə məşğuldur və yuxarıda sadalanan neqativ hallarla qarşılaşdığınız zaman hüquq mühafizə orqanlarına müraciət etməyiniz xahiş olunur".

Bu bir xalq qəzetidi
www.adalet.az
ƏDALƏT
Qurucusu: Adil Minbaşıyev | Gündəlik hüquq qəzeti | Qəzet 1990-cı ilin iyulundan çıxır | № 36 (5868) 6 aprel 2021-ci il | Qiyməti 30 qəpik

# Prezident: "Bəziləri sudan vicdansızcasına istifadə edirdilər"



Bax:səh-2

## *DİN Laçın Vəliyevin saxlanılması ilə bağlı məlumat yaydı*



*Vətəndaş Laçın Vəliyevin konkret cinayət əməlinə görə Sabunçu RPİ əməkdaşlarının keçirdiyi əməliyyat-axtarış tədbirləri nəticəsində şərlənərək saxlanılması ilə bağlı bəzi sosial şəbəkə istifadəçiləri tərəfindən iddialar yayılır.*

*DİN Mətbuat Xidmətinin Kütləvi İnformasiya və İctimaiyyətlə əlaqələr şöbəsinin rəisi, polis mayoru Elşad Hacıyev bildirib ki, bu iddiaların heç bir əsası yoxdur, L.Vəliyev narkotiklərin qanunsuz dövriyyəsi ilə məşğul olduğunu etiraf edir və bu, araşdırmalarla sübuta yetirilib.*

*E.Hacıyev deyib ki, onun üzərindən hal şahidlərinin iştirakı ilə keçirilən baxış zamanı satış məqsədilə qanunsuz olaraq, istintaqla mənbəsi araşdırılan, şəxsi istehlak miqdarından artıq narkotik maddə 4,791 qr metamfetamin, 6,474 qr heroin aşkarlanıb.*

*Eləcə da ona təyin edilən müvafiq tibbi müayinənin nəticələrinə görə, narkotik vasitələrin istifadəçisi olması məlum olub.*

*Fakt üzrə Sabunçu RPİ İstintaq şöbəsində Cinayət Məcəlləsinin 234.4.3-cü madəsi ilə cinayət işi başlayıb. Hazırda istintaq hərəkətləri davam etdirilir.*

## Bakı İsraillə İran arasında vasitəçilik edə bilər?

### Nazirdən cavab



**Biz Yaxın Şərq bölgəsindəki inkişafları diqqətlə izləyirik. Hər zaman sülh və təhlükəsizliyin bərqərar olmasına çağırırıq.**

Azvision.az xəbər verir ki, bunu Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov "İsrael Hayom" nəşrinə müsahibəsində deyib.

Azərbaycanın İsrail ilə İran arasında vasitəçilik etmək imkanları barədə sualı cavablandıran XİN başçısı bildirib:

**"Biz bunun bütün bölgənin inkişafına və çiçəklənməsinə töhfə verəcəyinə inanırıq. Hər zaman regional, qlobal səviyyədə təhlükəsizlik və əməkdaşlığa töhfə verməyə hazırıq", - deyə nazir əlavə edib.**

## MƏNİM ÇIXIŞIMDA HƏRF SƏHVİ AXTARANLARA

**Vaxtilə bir anekdot yazmışdım. Deməli, belə...**

Fazil Mustafa ibtidai sinifdə oxuyur. Sinif yoldaşları ilə dalaşır. Vurub bunun burnunu qanadırlar. Qanını silə-silə getdiyi yerdə sinif rəhbəri çıxır qarşısına. Soruşur ki, nə olub.

Fazil Mustafa:

**- Müəllim, məni poksla vurdular.**

Müəllim:

**- Fazil, poks yox, b hərfiylə, boks.**

Fazil deyir:

**- Müəllim, məni qan aparır, sən də məndə hərif səhvi axtarırsan.**

İndi Milli Məclisdə çıxışımda "möhtəşəm qələbə" əvəzinə "müzəffər qələbə" demişəm. Əslində böyük bir səhv deyil, sadəcə, dildə pintilikdi.

**İndi mənim çıxışımda qaldırdığım problemlər qalıb bir tərəfdə, trollar tökülüb ortalığa, müəllimin Fazilin danışığında "hərif" səhvi axtardığı kimi, çıxışımda "hərif" səhvi axtarırlar. Trollara yazığım gəldi.**

***Seyran Səxavət***

# Rəmiş



*(Hekayə)*



**Dünyaya bir də RƏMİŞ gəlməyəcək.**

*Cavanlıqda özümdən böyüklərlə oturub-dururdum. Yaşa dolandan sonra isə qoşulmuşam cavanlara. Elə dostlarım var ki, qırx-qırxbeş yaş məndən kiçikdirlər. Onlarla ünsiyyət ürəyimə sarı yağ kimi yayılır - həm də mənə sərf eləyir - bilirsiniz niyə? Bir cavan dostumla oturanda onun iyirmi beş yaşını gəlirəm altmış yaşımın üstünə, sonra qardaş malı kimi iki yerə bölürəm, ikimiz də oluruq yaşıd. Sonra isə yaşıdlar kimi dərdləşirik, bölüşürük... dünyanı yola veririk...*

*Yenə üç nəfər oturmuşuq - mənim altmış, üçümüzün isə uzaq başı yüz iyirmi yaşımız olar. Və yenə yüz iyirmini qardaş malı kimi üç yerə bölmüşük. Yenə yaşıdlar kimi dərdləşirik, bölüşürük... dünyanı yola veririk...*

*Elnur, Teyfur, mən...*

*Söhbətimizin qaymaqlayan yerində telefonuma zəng gəldi.*

**(Ardı 3-cü səhifədə)**

## Azad olunmuş ərazilərə icazəsiz keçən daha 4 nəfər saxlanılıb



**Cəbrayıl Rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən rayonun işğaldan azad edilmiş, lakin minalardan tam təmizlənməmiş ərazilərə icazəsiz keçməyə cəhd göstərən şəxslərin qarşısının alınması istiqamətində tədbirlər davam etdirilir.**

DİN-in Mətbuat Xidmətinin Bərdə regional qrupundan Adalet.az-a verilən məlumata görə, Cəbrayıl rayonunda Füzuli rayon sakinləri Səlim Qasımov və Elçin Abdullayev idarə etdikləri avtomobillərlə sərxoş vəziyyətdə minalardan tam təmizlənməmiş ərazilərə keçməyə cəhd göstəriblər. Onlar rayon ərazisində qurulmuş postda polis əməkdaşlarının saxla tələbinə məhəl qoymayaraq rayon ərazisinə daxil olublar. Daha sonra həmin avtomobillərin saxlanılması polis əməkdaşları tərəfindən təmin edilib. S.Qasımov, E.Abdullayev və onların sərnişinləri Füzuli rayon sakinləri Elgün Babayev və Mehrac Hacıyev Polis Şöbəsinə gətiriliblər.

Həmin şəxslər barəsində İXM-nin müvafiq maddəsi ilə tədbir görülüb və törətdikləri əmələ qiymət verilməsi üçün məhkəməyə təqdim edilib.

## ÇAŞQINLIĞI AQİL ABBAS YARADIR, YOXSA MÜDAFİƏ NAZİRLİYİ?



**Hörmətli Cənab Nazir!**

Mənim Milli Məclisdə məlum çıxışımla bağlı nazirliyin dərhal reaksiya verməsinə görə Sizə təşəkkür edirəm. Kaş nazirliyin fəaliyyətinə yönələn tənqidlərin hamısına belə tez reaksiya verəsiniz.

Milli Orduya aid mövzular mənim üçün həmişə tabu olub, yəni qadağan sayılıb. Birinci Qarabağ savaşı başlayandan bu günə qədər ordu ilə bağlı heç bir tənqidi fikir səsləndirməmişəm. Əksinə, Orduda baş verən nöqsanlarla bağlı deyilmiş sözə və ya yazılmış məqalələrə dərhal cavab vermişəm və bildirmişəm ki, Ordudakı nöqsanlar haqqında yazmaq və danışmaq olmaz. Çünki bu Ordu bizimdir. Və bizim yazdıqlarımızı düşmən də oxuyur. Eləcə də əsgər valideynləri, xüsusilə də əsgər anaları narahat olurlar.

**Bax: səh.2**

## Son sutkada 1099 nəfər COVID-19-a yoluxub, 34 nəfər ölüb

**Azərbaycanda koronavirus (COVID-19) infeksiyasına 1099 yeni yoluxma faktı qeydə alınıb, 647 nəfər müalicə olunaraq sağalıb.**

**Nazirlər Kabineti yanında Operativ Qərargahdan Adalet.az-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 34 nəfər vəfat edib. Azərbaycanda indiyədək ümumilikdə 271 834 nəfər koronavirus infeksiyasına yoluxub, onlardan 242 293 nəfər müalicə olunaraq sağalıb, 3 711 nəfər vəfat edib, aktiv xəstə sayı 25 830 nəfərdir.**

**Qeyd olunub ki, ölkədə son sutka ərzində 6763, hazırkı dövrədək isə 2935718 test aparılıb.**

## GÜNÜN LƏTİFƏSİ



Bir gün Molla Nəsrəddin bir həkimin yanına gedib deyir:

**- Həkim, bir məni yoxla görüm dərdim nədirə**

Həkim Mollanın nəbzini yoxlayıb deyir:

**- Dərdiniz aclıqdır. əyləşin, bizimlə nahar eləyin, sovuşub gedər, qorxulu deyildir.**

Molla həkimin təklifini qəbul edərək oturub möhkəm yeyir, getmək istərkən həkimə deyir:

**- Həkimbaşı, bizim evdə bu xəstəliyə tutulmuş bir neçə adam vardır. İndi ki, siz belə tez mualicə edirsiniz, mən onları da sizin yanınıza göndərməyə məcburam.**

## İlham Əliyev: “10 yeni su anbarının tikintisi nəzərdə tutulur”



**Adalet.az xəbər verir ki, bunu Prezident İlham Əliyev Zaur Mikayılovu Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin sədri vəzifəsinə təyin olunması ilə əlaqədar videoformatda qəbul edərkən deyib.**

Dövlət başçısı bildirib:

”Bir müddət bundan əvvəl bu məsələ araşdırılarkən göstəriş vermişdim ki, yeni kiçik su anbarlarının yaradılması ilə bağlı təkliflər hazırlanıb təqdim olunsun. Belə təkliflər verildi. Mən prinsip etibarilə bu təklifləri təsdiqlədim və 10 yeni su anbarının tikintisi nəzərdə tutulur. Siz bir daha bu məsələlərə baxın, bu məsələləri təhlil edin. Çünki hər bir su anbarının tikintisi böyük vəsait tələb edir. Ondan sonra kanallar çəkilməlidir, digər tədbirlər görülməlidir. Bütün bu vəsait dövlət büdcəsi tərəfindən təmin edilir. Ancaq biz baxmalıyıq ki, bu sahəyə qoyulan vəsait nəticə ilə nə qədər uzlaşır.

Qoyulmuş bu vəsaitin müqabilində biz hansı nəticəni əldə edirik və edəcəyik. Çünki bu, düzgün hesablanmasa, bizim işimiz heç vaxt səmərə verməyəcək. Bu sahənin inkişafı dövlətin özəl sektora göstərdiyi növbəti qayğının təzahürüdür. Çünki dövlət bütün xərcləri öz üzərinə götürür ki, fermerlər, kəndlilər daha yaxşı məhsul götürsünlər, özləri üçün daha yaxşı şərait yaratsınlar, onların həyat səviyyəsi qalxsın.

Nəzərə alsaq ki, kənd təsərrüfatı sahəsində fermerlər torpaq vergisi istisna olmaqla bütün vergilərdən azaddırlar, bu sahənin inkişafı, ilk növbədə, insanların həyat şəraitinin yaxşılaşmasına xidmət edir. Bu, Azərbaycanda artıq bir növ sosial sahə kimi qəbul olunur. Ancaq əgər biz inkişaf etmiş ölkələri götürsək görərik ki, orada belə deyil - suyun hər bir litri hesablanır, hər yerdə sayğaclar qoyulur, uçot düzgün aparılır və qoyulmuş investisiyanın müqabilində hansı nəticə əldə olunacaq bəri başdan hesablanır. Bizdə də belə olmalıdır”.

## Prezident: “Bəziləri sudan vicdansızcasına istifadə edirdilər”

**Mərkəzi icra orqanları, yerli icra orqanları, bəzi sahibkarlar elə bil ki, sövdələşərək, sudan vicdansızcasına istifadə edirdilər.**

Adalet.az xəbər verir ki, bunu Prezident İlham Əliyev Zaur Mikayılovu Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin sədri vəzifəsinə təyin olunması ilə əlaqədar videoformatda qəbul edərkən deyib.

Dövlət başçısı bildirib: ”Biz bundan sonra da kənd təsərrüfatı ilə məşğul olan vətəndaşlarımızı dəstəkləyəcəyik. Artan subsidiyalar bunu bir daha göstərir. Bizim niyyətimiz, siyasətimiz dəyişməz olaraq qalır. Ancaq bununla bərabər, kənd təsərrüfatı ilə məşğul olan hər bir adam öz məsuliyyətini də dərk etməlidir. Təhlil aparılarkən biz bir şeyə də rast gəldik - suyun ədalətsiz bölüşdürülməsi halları geniş vüsət almışdır. Burada həm mərkəzi icra orqanları, yerli icra orqanları, bəzi sahibkarlar elə bil ki, sövdələşərək, sudan vicdansızcasına istifadə edirdilər. Belə olan halda, bəzi fermerlərə, bəzi kəndlərə su çatmırdı. Mən göstəriş vermişdim, indi təhlil aparılır, araşdırma aparılır. Buna da son qoyulmalıdır. Su xətlərinin üzərində çoxsaylı qanunsuz birləşmələr quraşdırılmışdır. Təhlil aparılarkən biz buna da rast gəldik. Belə çıxdı ki, heç kim buna məsuliyyət daşımır, heç kim buna cavabdehlik daşımır. Buna son qoyulmalıdır. Mən göstəriş vermişdim ki, su xətləri üzrə həm vizual monitorinq aparılmalıdır, yəni, yerində, eyni zamanda, müasir müşahidə sistemləri - kameralar quraşdırılmalıdır və bu qanunsuz birləşmələrə son qoyulmalıdır”.

## İlham Əliyev: “Canımızı torpaq kanallardan qurtarmalıyıq”

**“Canımızı torpaq kanallardan qurtarmalıyıq”. Adalet.az xəbər verir ki, bunu Prezident İlham Əliyev Zaur Mikayılovu Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin sədri vəzifəsinə təyin olunması ilə əlaqədar videoformatda qəbul edərkən deyib.**

Dövlət başçısı bildirib: ”Kanalların təmiri və yenidən qurulması da önəmli vəzifələrdən biridir. Sovet vaxtında çəkilmiş kanalların böyük əksəriyyəti torpaq kanallar idi. Onların böyük hissəsi bu gün də fəaliyyətdədir. Əlbəttə ki, torpaq kanallar suyun istənilən həcmdə ötürülməsinə imkan vermir, itkilər, o cümlədən buna görə baş verir, eyni zamanda, torpağın şoranlaşmasına da gətirib çıxarır. Ona görə də biz canımızı torpaq kanallardan qurtarmalıyıq. Ancaq onun əvəzinə hansı texnologiyalar gətiriləcək, bunu artıq siz müəyyən etməlisiniz. Dünyanın bu sahədəki aparıcı şirkətləri ilə sıx təmaslar qurulmalıdır, iqlimi bizim iqlimimizə oxşar olan ölkələrin təcrübəsindən faydalanmalıyıq. Elə ölkələr var ki, orada su resursları bizimkindən də azdır, ancaq məhsuldarlıq qat-qat çoxdur. Ona görə bütün bunlar gərək dəqiq araşdırılsın, düzgün fəaliyyət planı tərtib edilsin, lazım olarsa, Dövlət Proqramı qəbul olunsun ki, biz bundan sonrakı illərdə meliorasiya və suvarma sahəsində dünyanın ən müasir prinsiplərini ölkəmizdə tətbiq edək”.

# QARABAĞDA YENİ DÖVR BAŞLAYIR

**Yüz illər bundan əvvəl Vatikanın və sonradan çar Rusiyasının uydurduğu "böyük ermənistan" əfsanələri ilə yaşayan Ermənistan, tarixi Türk torpaqlarına qarşı ərazi iddiallarını həyata keçirmək üçün, daima qərbdəki və şimaldakı havadarlarına arxalanaraq işğalçılıq siyasətini həyata keçirməkdədir. Görünən budur ki, hər dəfə kütləvi qırğınlara məruz qalmasına baxmayaraq, separatçı niyyətlərindən əl çəkmək fikirində deyillər. Onlar əl çəkmək istəmədikləri bu sərsəm siyasətləri ilə təkcə öz xalqlarına deyil, eyni zamanda, regionda yaşayan digər xalqlara da, onların dinc qonşuluq münasibətlərində yaşamalarına, inkişafına mane olmaqdadırlar.**

30 ilə yaxın müddət ərzində Ermənistan Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınan ərazilərini işğal altında saxlayırdı. Bu işğal nəticəsində torpaqlarımızın təxminən 20 faizi Ermənistan tərəfindən zəbt edilmişdir, bir milyondan çox azərbaycanlı öz doğma torpağından didərgin salınmışdır, qaçqın-köçkün vəziyyətinə salınmışdır. Xalqımıza qarşı etnik təmizləmə siyasəti aparılmışdır. Ermənistan Azərbaycana qarşı soyqırımı törətmişdir. 1992-ci ildə törədilən Xocalı soyqırımı nəticəsində 600-dən çox günahsız, dinc insan vəhşicəsinə öldürülmüşdür. Onların arasında 106 qadın, 63 uşaq vəhşicəsinə qətlə yetirilmişdir.



Beynəlxaq təşkilatlar tərəfindən tanınan və qəbul edilən ərazi bütövlüyümüzün danışıqlar masası arxasında, dinc yolla bərpa olunmasına çalışan Azərbaycan Respublikasının bütün cəhdləri, beynəlxalq hüquq müstəvisində dəstəklənsə də, rəsmi İrəvanın ötən illər ərzində yürütdüyü siyasət münaqişənin sülh vasitəsilə həll olunmasını mümkünsüz edirdi. Beynəlxalq təşkilatların Azərbaycanın mövqeyini daim dəstəkləsələr də, bu dəstəyin praktiki həyatda o qədər də böyük əhəmiyyəti yox idi. Çünki məsələ öz həllini tapmırdı. BMT Təhlükəsizlik Şurası - dünyanın ali beynəlxalq qurumu 4 qətnamə qəbul etmişdir. Bu qətnamələrdə erməni silahlı qüvvələrinin işğal edilmiş torpaqlardan dərhal, tam və qeyd-şərtsiz çıxarılması tələb edilirdi.

Bu qətnamələr 1993-cü ildə qəbul edilmişdir və icrasız qalmışdı. Digər beynəlxalq təşkilatların qərar-qətnamələri Azərbaycanın mövqeyini dəstəkləyirdi və bunun çox böyük siyasi və hüquqi mənası var idi. Halbuki real, praktiki müstəvidə məsələnin həllinə xidmət etmirdi.

ATƏT, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, Avropa Parlamenti, Avropa Şurası Parlament Assambleyası və digər təşkilatlar Azərbaycanın haqlı mövqeyini müdafiə etmişdir.

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dəfələrlə ən yüksək tribunalardan "bizim də səbrimizin həddi-hüdudu var, məsələ sülh yolu ilə həll edilməzsə, biz güc yolu ilə torpaqlarımızı işğaldan azad edəcəyik" - deyə verdiyi bəyanatlar, Ermənistanın quldur rəhbərləri tərəfindən nəinki qulaq ardına vurulurdu, hətta "yeni ərazilərin işğalı" kimi sərsəm fikirlər səsləndirilirdi.***

Nəhayət, möhtərəm Prezidentimizin də dediyi kimi, səbr kasası doldu və erməni terrorçularının növbəti təxribatına cavab olaraq Müzəffər Ordumuz Ali Baş Komandan İlham Əliyevin əmri ilə, 44 gün ərzində düşmən ordusunu məhv edərək, torpaqlarımızı işğaldan azad etdi və ərazi bütövlüyümüzü bərpa etdi.

Münaqişənin hərbi yolla həlli bütün regionun inkişafı üçün yeni imkanlar yaradır. 30 ilə yaxın işğal altında qalan şəhər və kəndlərimiz, tarixi abidələrimiz, bütün yol və kommunikasiya xətlərimiz demək olar ki, tamamilə dağıdılıb.

Zəfər Qələbəsindən dərhal sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin göstərişi ilə ilk növbədə yol, enerji infrastrukturların bərpa işlərinə başlandı. Sıradan çıxarılmış elektrik stansiyaları bərpa olunur, müqəddəs mədəniyyət ocağımız Şuşaya iki istiqamətdən yeni yol çəkilişi sürətlə tikilməkdədir. Bu gün biz artıq Zəngəzur dəhlizi üzərində çox fəal çalışırıq.

***İşğaldan azad olunmuş ərazilər böyük geostrateji əhəmiyyətə malikdir. Qədim Azərbaycan torpağı olan Zəngəzur indi türk dünyasının birləşməsi rolunu oynayacaq. Çünki Zəngəzurdan keçən nəqliyyat, kommunikasiya, infrastruktur layihələri bütün türk dünyasını birləşdirəcək, eyni zamanda, digər ölkələr üçün əlavə imkanlar yaradacaq, o cümlədən Ermənistan üçün. Azərbaycan Naxçıvan Muxtar Respublikası vasitəsilə Türkiyə ilə birləşir, Orta Asiya Avropa ilə birləşir. Yəni, yeni nəqliyyat dəhlizi yaranmaqdadır.***

### *Münaqişənin hərbi yolla həlli qaçılmaz oldu*

Qeyd etdiyimiz kimi, beynəlxalq təşkilatların, o cümlədən məsələnin sülh yolu ilə həlli üçün 1992-ci ildə BMT Təhlükəsizlik Şurasının üç aparıcı dövlətlərinin - ABŞ, Rusiya və Fransanın həmsədirliyi ilə yaradılan ATƏT-in Minsk qrupunun fəaliyyəti heç bir səmərə vermədi. Minsk qrupu 28 il ərzində fəaliyyət göstərsə də, bu vaxtlar ərzində əsasən vəzifələri status-kvonu saxlamaqdan o tərəfə keçmədi. Minsk qrupunun fəaliyyəti tam sıfra bərabər olmuşdur. Halbuki Minsk qrupuna həmsədrlik edən ölkələr dünyanın aparıcı ölkələridir, nüvə dövlətləridir, BMT Təhlükəsizlik Şurasının daimi üzvləridir. Əlbəttə ki, Ermənistana qarşı işğalla bağlı ciddi təzyiq göstərilsəydi və Azərbaycanın tələbi nəzərə alınıb sanksiyalar tətbiq edilsəydi, məsələ çoxdan sülh yolu ilə öz həllini tapa bilərdi. Amma görünən odur ki, bu ölkələrin heç buna maraqları da yox idi. Ermənistan isə ötən dövrlərdə qeyri-konstruktiv və irrasional mövqe nümayiş etdirərək, uzun illər ərzində münaqişənin dondurulması istiqamətində addımlar atılmışdır. Ermənistan faktiki olaraq daima danışıqları pozmaqla yalnız imitasiya ilə məşğul idi. Son iki-üç il ərzində isə faktiki olaraq açıq, nümayişkaranə şəkildə bildirirdi ki, bir qarış da Azərbaycan torpağı Azərbaycana qaytarılmayacaq. Bundan əlavə, Ermənistan rəhbərinin məsuliyyətsiz və təxribat xarakterli addımları və bəyanatları faktiki olaraq danışıqları mənasız etmişdi. Öz işğalçılıq siyasəti ilə Ermənistan hakimiyyəti bütün beynəlxalq qanun və normaları pozaraq unudulmaz cinayətlər törədib.

Ermənistanın təxribat xarakterli addımlarından biri də qədim Azərbaycan şəhəri, bizim mədəni paytaxtımız olan Şuşada qanunsuz xunta rejiminin, keçmiş Dağlıq Qarabağ rejiminin başçısının andiçmə mərasiminin keçirilməsi idi. Bu, Azərbaycan xalqına qarşı təhqir idi. Qondarma "Dağlıq Qarabağ respublikası"nın qondarma parlamentinin Şuşa şəhərinə köçürülməsi və parlament üçün binanın inşa edilməsi də təxribat xarakterli addım idi. Təbii ki, erməni təxribatları cavabsız qalmadı.

***Uzun illər ərzində müxtəlif addımlarla Ermənistan bizi təxribatlara çəkib və bizdən sərt reaksiya gözləyib ki, daha sonra günahı bizim üstümüzə yıxsın. Azərbaycan təxribatlara uymadı. Biz özümüzü təmkinli apardıq, beynəlxalq hüququn bütün norma və prinsiplərinə uyğun şəkildə apardıq və belə olan halda Ermənistan keçən ilin yayında bizə qarşı hərbi təxribat törətdi. Ermənistan-Azərbaycan dövlət sərhədində bizim mövqelərimiz atəş altına düşdü. Münaqişə öz hərbi-siyasi həllini tapdı. Noyabrın 9-dan 10-na keçən gecə Azərbaycan və Rusiya prezidentləri, Ermənistanın baş naziri Bəyanat imzalayıblar. Bu Bəyanat əsasında bizim digər rayonlarımız artıq siyasi yollarla Azərbaycana qaytarıldı.***

Beləliklə, məsələ hərbi-siyasi yollarla həll olundu. Artıq tam əminliklə deyə bilərik ki, Dağlıq Qarabağ məsələsi, Dağlıq Qarabağ münaqişəsi öz həllini tapmışdır. Dağlıq Qarabağ adında hazırda hər hansı bir ərazi vahidi yoxdur. Azərbaycan bu məsələni həll edib, tarixi Zəfər əldə edib və dağıdılmış ərazilərdə bərpa işlərini başlayıb.

### *Azərbaycanın və bütün türk xalqlarının tarixinə düşmüş Qələbə*

***Azərbaycan xalqı tarixi ədaləti bərpa etdi. 44 gün davam edən II Qarabağ müharibəsi Azərbaycanın tam qələbəsi ilə nəticələndi. Azərbaycan öz ərazi bütövlüyünü bərpa etdi, müharibə dövründə 300-dən çox şəhər və kənd döyüş meydanında azad edildi. Bizim tarixi şəhərimiz Şuşa noyabrın 8-də işğalçılardan azad edildi və Ermənistan məcbur olub kapitulyasiya aktına imza atdı.***

Münaqişənin həllində qardaş Türkiyənin böyük rolu vardı. Müharibənin ilk günündən onlardan böyük dəstək aldıq. Sentyabrın 27-də müharibə başlanan gündən etibarən Türkiyə açıq şəkildə Azərbaycana dəstək ifadə etdi. Bu siyasi və mənəvi dəstəyin çox böyük əhəmiyyəti var idi. Bu dəstək bizə imkan verdi ki, əks-hücum əməliyyatını uğurla keçirək, imkan verdi ki, hər hansı bir kənar qüvvə məsələyə müdaxilə etməsin. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevində bəyan etdiyi kimi, Azərbaycan məsuliyyətli ölkədir və digər dövlətlərin ərazisində müharibə aparmaq niyyəti yoxdur. Ermənistan hərbi birləşmələri bizim sərhədimizi keçməyə cəhd göstərdi, bir neçə hərbçimiz həlak oldu. Biz onlara layiqli cavab verdik. Ancaq biz Ermənistan-Azərbaycan dövlət sərhədini keçmədik. Çünki bizim Ermənistan ərazisində müharibə aparmaq niyyətimiz yox idi.

**Ermənistan hakimiyyətində oturanlar bundan sonrada anlamalıdırlar ki, qonşu dövlətlərnən həmişə düşmənçilik aparmaq siyasətləri onların bir xalq olaraq məhvinə aparacaq.**

**Hazırladı:**
**Rüstəm Hacıyev**

# ÇAŞQINLIĞI AQİL ABBAS YARADIR, YOXSA MÜDAFİƏ NAZİRLİYİ?

**Hörmətli Cənab Nazir!**

Mənim Milli Məclisdə məlum çıxışımla bağlı nazirliyin dərhal reaksiya verməsinə görə Sizə təşəkkür edirəm. Kaş nazirliyin fəaliyyətinə yönələn tənqidlərin hamısına belə tez reaksiya verəsiniz.

Milli Orduya aid mövzular mənim üçün həmişə tabu olub, yəni qadağan sayılıb. Birinci Qarabağ savaşı başlayandan bu günə qədər ordu ilə bağlı heç bir tənqidi fikir səsləndirməmişəm. Əksinə, Orduda baş verən nöqsanlarla bağlı deyilmiş sözə və ya yazılmış məqalələrə dərhal cavab vermişəm və bildirmişəm ki, Ordudakı nöqsanlar haqqında yazmaq və danışmaq olmaz. Çünki bu Ordu bizimdir. Və bizim yazdıqlarımızı düşmən də oxuyur. Eləcə də əsgər valideynləri, xüsusilə də əsgər anaları narahat olurlar.

**Hörmətli Cənab Nazir!**

Birinci Qarabağ savaşı başlayandan Atəşkəsə qədər səngərlərdə olmuşam, döyüşçülərə nəinki ərzaq, hətta silah-sursat da daşımışam. Hospitallara yardım aparmışam, döşək ağıdan, yastıq və yorğan üzündən tutmuş dava-dərmana qədər.

Bakıdakı Hospitala Birinci Qarabağ savaşında ABŞ-ın Hərbi Hospitallarında istifadə olunan təxminən 500 min dollar dəyərində dava-dərman, tibbi ləvazimat bağışlamışam. Bu işdə mənə yardımçı olan sabiq rabitə naziri Sirus Abbasbəyliyə də təşəkkür edirəm. Və Birinci Qarabağ savaşında ”Ədalət” qəzetini səngər qəzeti , cəbhə qəzeti etmişdim.

Özümü təriflərmək fikrim yoxdu, elədiyimin yüzdə birini deyirəm. Yəni mən bu Vətənə, bu Orduya belə bağlı adamam.

44 günlük İkinci Qarabağ savaşında da dəfələrlə cəbhə bölgəsində, əsgərlərin yanında olmuşam. Xəstəxanaları gəzmişəm, həkimlərlə, tibb işçiləriylə və yaralılarla görüşmüşəm. Şəhid dəfnlərində iştirak etmişəm, şəhid ailələrində olmuşam, demək çirkinlik çıxmasın, heç vaxt da əliboş getməmişəm.

Və savaş möhtəşəm qələbəmizlə bitdikdən sonra ”44 günlük müharibə” adlı silsilə məqalələr yazmışam və həmin məqalələrdə də həkimlərimizin və tibb işçilərinin, daha dəqiq desək, tibb bacılarının cəbhə bölgəsində necə fədakarlıq etdiklərini işıqlandırmışam. Sizin cavab məktubunuzda da qeyd edirsiniz ki, ”Millət vəkili dəfələrlə hərbi hissələrimizə, o cümlədən də hərbi tibb müəssisələrimizə baş çəkib, orada yaradılan şəraitlə tanış olduqdan sonra görülmüş müsbət işlər barədə öz razılığını ifadə edib”.

Cavabda qeyd edirsiniz ki, ”deputatın bu cür qeyri-obyektiv fikirlər səsləndirməsi Vətən müharibəsi dövründə birbaşa döyüş meydanında,düşmənin güllə və mərmisi altında minlərlə yaralı hərbi qulluqçularımıza tibbi yardım göstərməklə onları həyata qaytaran hərbi tibbi personala qarşı hörmətsizlikdir”.

Əvvəla, ”Ədalət” qəzetini Müdafiə Nazirliyinin məlum qurumun əməkdaşları vərəqləsələr görərlər ki, məhz həmin həkim və tibb işçilərinin fədakarlığı barədə ayrı-ayrı məqalələr dərc olunub. Eləcə də xidməti vəzifəsini yerinə yetirərkən qəhrəmancasına şəhid olmuş tibbi işçiləri barədə.

Təəssüf edirəm ki, Müdafiə Nazirliyindən mənə cavab yazanlar çıxışımı diqqətlə dinləməyiblər və ya oxumayıblar. Guya: ”Bu cür fikirlər ictimaiyyətimizdə çaşqınlıq yaratmaqla yanaşı hərbi həkimlərin qəhrəman əməyinə kölgə salır, onların ağır işini şübhə altına alır”.

Mən çıxışımda Hərbi Hospitalın həkimlərinin əməyini yüksək qiymətləndirmişəm. Söhbət Hospitalın hələ ordudan tərxis olunmamış, evlərində müalicə alan qazilərə göstərilən xidmətindən gedir.

**Hörmətli Cənab Nazir!**

Elə gün olmur ki, mənim, eləcə də digər deputatların yanına həmin qazilər şikayətə gəlməsin. Amma mən heç vaxt onların şikayətini, narazılığını mətbuata çıxarmıram. Əksinə, könüllərini alıram, izah edirəm ki, müharibə təzə başa çatıb, darıxmayın, hər şey yoluna düşəcək. Reseptlə gəliblərsə də dava-dərmanlarını alıb verirəm. Qulluqlarında da başqa cür nə xidmət göstərirəm, özüm bilirəm.

Məsələn, ucqar rayonların birindən yanıma üç dəfə gələn bir qazi var. Yalnız qoltuq ağaclarının köməyi ilə yeriyə bilir, bədənində qəlpə yaraları, bəzilərini hələ çıxarmaq mümkün olmayıb, danışığını da itirib, çox çətinliklə fikrini çatdıra bilir. Hələ də ordudan tərxis olunmayıb, müharibədən beş ay keçib. Və buna görə də əlillik dərəcəsi ala bilmir.

Sizə onlarla belə fakt saya bilərəm. Qəzetləri izləsəniz yüzlərlə belə fakta rast gələrsiniz.

Görün mənə cavabda Müdafiə Nazirliyi nə yazır: ”O ki qaldı yaralılara əlillik dərəcəsinin verilməsinə, Aqil müəllimə xatırladırıq ki, bu, Müdafiə Nazirliyinin səlahiyyəti çərçivəsində deyil. Çox təəssüf edirik ki, millət vəkili bu məsələdən xəbərsizdir”.

Mən 2005-ci ildən Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin üzvüyəm. Onu deyim ki, hər hansı bir komitəni seçmək deputatın istəyilədir. 2005-ci ildə deputat seçiləndə torpağı işğal altında olan, yurdu-yuvası dağılmış, ev-eşiyi yandırılmış, şəhidlər vermiş bir qarabağlı kimi məhz həmin komitəni seçdim ki, mənim də ordumuz üçün, təhlükəsizliyimiz üçün bir payım olsun. Və hansı nazirliyin, hansı təşkilatın səlahiyyətləri nədir, vəzifəsi nədir hər halda mənə cavab hazırlayan müvafiq qurumunuzun əməkdaşlarından yaxşı bilirəm. Və əlillik dərəcəsi verən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin və eləcə də Səhiyyə Nazirliyinin fəaliyyətini dəfələrlə həm mətbuatda, həm də parlamentdə söyləmişəm. Qaldı Müdafiə Nazirliyinə. Müdafiə Nazirliyi müvafiq nazirliklərdən bu məsələyə vaxtında baxmalarını tələb etməlidir. Bu, onun səlahiyyətindədir.

Qaldı mənim guya ”ictimaiyyətdə çaşqınlıq yaratmaq” məsələsinə.

**Hörmətli Cənab Nazir!**

Görək ictimaiyyətdə çaşqınlığı mən yaradıram, yoxsa rəhbərlik etdiyiniz nazirlik?

Aprel döyüşlərindən sonra belə bir açıqlama verdiniz ki, Şoyqu (Rusiyanın müdafiə naziri) zəng elədi, ondan sonra müharibəni saxladıq. Ən böyük çaşqınlığı bu yaratmışdı. Müstəqil bir dövlətin müdafiə naziri başqa bir dövlətin müdafiə nazirinin zəngi ilə müharibəni saxlayır. Müstəqil dövlətin müdafiə naziri əmrləri Ali Baş Komandandan alır. Aprel döyüşlərinin saxlanmasını daha aydın bir şəkildə ifadə edə bilərdiniz, xalqda da çaşqınlıq yaranmazdı.

Neçə müddətdir Aprel döyüşlərindən sonra qaldırılmış ”Tərtər işi” adlı cinayət işi haqqında mətbuat yazır. Bu işin dərinliyinə getmirəm, amma nədənsə Müdafiə Nazirliyi hələ də bu məsələdə susur. İctimaiyyətdə çaşqınlıq belə yaranır.

Müharibə başlayandan bir neçə gün sonra iki korpus komandiri vəzifədən götürülür, sonra biri həbs edilir. Baş Qərargah rəisi vəzifədən kənarlaşdırılır, hətta adı Müdafiə Nazirliyinin strukturlarından çıxarılır, o da çıxıb gedir Dubayda dənizdə çimməyə. Heç bir rəsmi açıqlama yoxdur. Çaşqınlıq belə yaranır.

Lökbatanda yol kənarında dəfn olunmuş şəhid ailələri düz bir ay Milli Məclisin önündə, müəyyən müvafiq icra hakimiyyəti orqanlarının, eləcə də Müdafiə Nazirliyinin önündə etiraz piketləri keçirirlər və qələbəmizə sevinməyən müəyyən youtube kanalları bunu çəkir və bəh-bəhlə paylaşır, nədənsə Müdafiə Nazirliyi onlara cavab verə bilmir. Şəhid ailələrinin istəyi nədir? Övladlarının digər şəhidlər kimi II Fəxri Xiyabanda dəfn olunması. Səsləri eşidilmir. Nəhayət, Möhtərəm Prezident, Ali Baş Komandan bu işə qarışmalı olur və şəhidlərin nəşi II Fəxri Xiyabana köçürülür. Müdafiə Nazirliyi vaxtında özü bunu həyata keçirə bilməzdimi? Çaşqınlıq belə yaranır.

Övladları itkin düşmüş valideynlər Müdafiə Nazirliyinin önünə gəlir, heç bir yetkilinin qəbuluna düşə bilmir. Müharibə ölüm-itim meydanıdı. Övladı itkin düşmüş bir ana mənə də müraciət etmişdi, dəfələrlə telefonla da danışmışam. Ürək-dirək vermişəm ki, bu müharibədi, Allah eləsin, övladınız sağ-salamat qayıdıb gəlsin, şəhid olubsa da məqamı Allahın dərgahındadı.

Yəqin youtube kanallarında görmüsünüz, övladı itkin düşmüş, sonradan şəhid olduğu bilinib nəşi tapılaraq valideynlərinə təhvil veriləndə Ana tabutun önündə oğlunun nəşinin tapılmasına görə sevindiyindən qurban kəsib.

Mən yalnız bu günədək mətbuatda gedənləri yazıram, bildiklərimi yazmıram.

Və çıxışımda həkimlərin fədakarlığına yüksək qiymət verməklə yanaş, qaldırdığım məsələ Hospitalın fəaliyyətinə kölgə salmaq yox, Hospitalın fəaliyyətini gücləndirmək istəyini dilə gətirmişəm. Azərbaycandakı Hərbi Hospitalın maddi-texniki bazası nə Almaniyadakından, nə Türkiyədəkindən, nə də İrandakından geri qalmır. Amma biz İsraildən, Türkiyədən, nə bilim hansısa ölkədən ağır yaralıların üstünə həkimlər çağırmaq məcburiyyətində qalırıq. Və yaxud da ağır yaralılarımızı müalicə üçün xarici ölkələrə göndəririk.

Müdafiə Nazirliyi Hospitalın gənc həkimlərini yuxarıda sadaladığım və sadalamadığım ölkələrin Hərbi Hospitallarına təcrübəyə göndərə bilər - 6 aylıq, 1 illik. Özü də indi yox, Birinci Qarabağ savaşı başlayandan.

Mən heç vaxt həkimlərin fəaliyyətinə kölgə salmaram, ən azı ona görə ki, Birinci Qarabağ savaşında onların necə işlədiklərinin şahidi olmuşam, şəxsən.

Bu gün də Vətən müharibəsində fədakarlıq göstərmiş bütün həkimlərin önündə, eləcə də şəhid olmuş tibb personalının valideynlərinin önündə baş əyirəm.

Ağcabədinin Sarıcalı kəndindəki tibb personalının fədakarlığından da yaxşı məlumatım var. O Hospitalın fəaliyyəti heç də Mərkəzi Hospitalın fəaliyyətindən geri qalmır.

Biz sivil bir cəmiyyətdə yaşayırıq, Parlamentimiz var. Və deputatlar Parlamentdə hər hansı bir məsələni qaldırmaqda azaddırlar və işi də danışmaqdı. Danışan deputatın ağzından vurmağa cəhd eləmək isə qeyri-sivil dövlətlərdə olur.

**Hörmətli Cənab Nazir!**

Mən bu gündən sonra mənə ünvanlanacaq nazirliyin cavab məktublarına və açıqlamalarına Sizə və Milli Orduya olan hörmətimə görə cavab verməyəcəm. Necə deyərlər, birtərəfli atəşkəs elan edirəm.

**Tanrı Xalqımızı qorusun!**
**Tanrı Ordumuzu qorusun!**
**Tanrı Ali Baş Komandanımızı qorusun!**

**Hörmətlə:**
**Aqil ABBAS,**
**Milli Məclisin deputatı**

# Rəmiş

*(Hekayə)*

***Seyran Səxavət***

**(əvvəli 1-ci səhifədə)**

- Alo. - Cavab verdim.
- Sənətkar, salam. - Rəmiş idi.
- Salam, salam...
- Sənətkar hardasan?
- Bakıda.
- Bakının harasında?
- Doqquzuncu mikrorayonda.
- Doqquzuncu mikrorayonun harasında?
- "Emis" restoranında, həyətdə oturub iki yaxın dostumla çay içirəm.
- Sənətkar cibində iki "şirvanın" var?
- Var.
- Min bir taksiyə, gəl Yeni Yasamala, yen aşağı, diki qalxanda sağ tərəfdə köhnə bir traktor var, Nuh Nəbidən qalıb, bax onun yanında səni gözləyirəm.
- Xeyirdimi? - Soruşdum.
- Ürəyim istədi səni, gör nə vaxtdı görmürəm. Moskvadaydım...
- Yaxşı, gəlirik,- dedim.

Elnurun maşınına mindik. Rəmiş deyən kimi elədik, Yeni Yasamalın dərəsinə yenib dikləndik; sağ tərəfdə, o dediyi kimi Nuh Nəbidən qalma köhnə bir traktor, traktorun yanında köhnə bir minik maşını, maşının yanında Rəmiş, Rəmişin də yanında Gülü... Maşından düşüb görüşdük. Dostlarımı onunla tanış elədim:

- Elnur... Teyfur... yaxşı kişilərdi, - dedim.
- Bu yaşda kişidilərsə elə böyük şeydi, - onlara da əl verdi, - Rəmiş, - dedi və onun öz adını deməsi mənə çox təəccüblü gəldi.

Rəmiş öz maşınına minə-minə dedi:

- Sənətkar, dalımca gəlin.

Görüşdüyümüz yerdən bir az da yuxarı qalxıb sağa burulduq, əlli-altmış addım da gedib dayandıq - bərbad bir həyət idi, nə evə oxşayırdı, nə idarəyə.

- Düşün, - dedi.

Düşdük. Cavan dostlarımın da, mənim də təəccübləndiyimi görüb dedi:

- Deyəsən, buralar xoşunuza gəlmədi?
- Bura nədi belə, haradı? - Mən dedim.
- Heç mən də bilmirəm... Dostumun yanına gəlmişəm - bura çağırıb, bura gəlmişəm də... Gəlin, gəlin... - qabağa düşdü. Bizdən bir az aralıda doqquz nəfər var idi; dördü Adam idi, beşi it - biz onlara tərəf gedirdik.

Üçümüzü də bir-bir o adamlara təqdim eliyəndən sonra çönüb itlərə baxdı:

- Bunlar da bizimkilərdi... - dedi.
- O nə təhər olur? - dedim.
- Sənətkar, nə təhər olacaq... bunlar da bizim kimi yiyəsizdirlər... Eşitmisən də, yiyəsiz itləri də güllələyirlər...
- Eşitmişəm...
- Bu gün bu itlərin sahibi bizik... Adam biliblər bizi... hə...
- Hə... itlərin də sahibi tapıldı, qaldıq biz, - dedim.
- Sahibə də sahib lazımdı ki? - Rəmiş təəccübləndi.
- Sahibə də sahib lazımdı, sahibin sahibinə də, hələ lap sahibin sahibinin sahibinə də... belə pilə-pillə qalxır, qalxır... gedib dirənir Allahın ayaqlarının altına. Allahın ayağının altına dirənəndə duyuq düşürlər ki, elə hər şeyin sahibi Allah imiş - bunların sahibliyi bekara şeyimiş...
- Bağışla ee, sənətkar, fikrim, o iti görürsən, bax onun yanında idi, dediklərini tuta bilmədim... bir az çoban-çoluq dilində olsun ee, qəliz olmasın... qəliz olanda elə bil barmağım pərdədən sürüşür...
- Çoban-çoluq dilində danışmaq elə bilirsən asandı?
- Sən danışarsan...
- Dediyim odur ki, fikrim məndədi, yoxsa itdə?
- Səndə...
- Dediyim odur ki, əgər hər hansı bir sahibin də sahibi varsa o, sahib deyil - sahib odur ki, onun sahibi olmasın. - O da Allahdı. İndi tutdun?
- Mən tutmadım ee... Sən qəşəng tutuzdurdun. - Sağ əli ilə alın qırışlarını hamarladısa da bir şey çıxmadı, əksinə, deyəsən qırışlar bir az da dərinləşdi, - mən sənnən dilləşə bilmərəm, qardaş. Sən danışanda mən uyuram, - elə bilirəm Rəmiş gitara çalır...
- Çox şişirtmə... - dedim, - çox şişirdirsən ee...

-Çox şişirtməsəydim çoxdan partlamışdı.

Bayaq gizləmək istədiyim təəccübümü açıb tökdüm çölə:

- Sən Allah, bura haradı... nədi belə?
- Vallah, heç mən də bilmirəm. Dostumun yanına gəlmişəm - bura çağırıb bura gəlmişəm.

Anladım ki, bu sualı Rəmişə yüz dəfə də versəm eyni cavabı alacam - ona görə də ruhdan düşüb əyləşdim, söhbəti dəyişmək istəsəm də bir şey çıxmadı və təzə mövzu tapa bilmədiyim mənə əfəllik kimi gəldi, hətta bu əfəlliyim xəfif əsəbiliyə çevrilib sifətimə çiskinlədi.

- Qapısı yox, darvazası yox... - Ətrafa baxa-baxa Rəmişin düz gözünün içinə dedim; əslində isə bu sözlər Rəmişin gözünün içindən yan keçib onu bura dəvət eliyən dostunun dalınca muncuq kimi düzüldü - onun dalınca danışırdım.
- Qapı, darvaza olan yerdə ürəyim sıxılır, belə yaxşıdı...

Mən onunla, bir az da qəsdən, razılaşmadım:

- Buranın nəyi, harası xoşuna gəlir axı? - Xəfifcə bozardım da.
- Buranın orası xoşuma gəlir ki, nə qapısı var, nə darvazası. - Rəmiş gözümün içinə dikəldi, - qapı da, darvaza da lazımsız şeydi... Qapını xayın adamlar kəşf eləyib - xayın xoflu olar axı... evdən çıxanda qapını bağlayıb gedirlər. Ömür boyu nə qədər qapı bağlamaq olar axı... Qarabağ tərəfdə bir qarğış var ee, eşitmisən?
- Hansını deyirsən?
- Deyir, səni görüm qapın bağlansın! Eşitmisən?
- Hə... noolsun?
- O olsun ki, bəndə hər dəfə evdən çıxıb qapısını bağlayanda elə bil ki, Allaha namyok eliyir. Bir dəfə, beş dəfə, on dəfə - axırda da Allah onun qapısını elə bağlayır ki, Fələk də aça bilmir... Hayıf deyil belə...

Darvaza, dalınca gəlir dəmir qapı, dalınca taxta qapı, taxta qapının da böyründə içəridən asılmış qoşalülə... adamların bir-birinə etibarı qalmayıb ki. Hələ onu demirəm ki, villaların, Allah xeyir versin ee, qabağında qorovulçular üçün ayrıca ev tikirlər, top-tüfəngi də öz yerində, quş da səkə bilmir. Bundan qabaq darvaza-zad yox idi, qapının da cəftəsini keçirirdilər ki, mal-heyvan içəri girməsin, cəmisi əlli il bundan qabaq.

- Bəri bax, Rəmiş, niyə qızışmısan qəfil?
- Məndə hərdən olur, sən fikir vermə...
- Bu qəşəng qızışmaqdı... belə şeyə fikir verməsən Adam ocaq daşı kimi partlayıb qırıq-qırıq olar...
- Başına dönüm, yeriniz rahatdımı? - Rəmiş mənim cavan dostlarımdan soruşdu və onların cavabını gözləmədən ikinci sualı verdi:
- Buralar xoşunuza gəldimi?

Bayaqdan bəri ağızlarını açıb bizim söhbətimizə qulaq asan uşaqlar nə deməliydilər ki? Dedilər ki, çox yaxşıdı. Rəmiş gördü ki, uşaqlar onun xətrinə qırmızıca yalan dedilər və onların bu yalanı razılığa çevrilib Rəmişin üzünə hopdu; uşaqlar özləri isə yalan dediklərini Rəmişdən də yaxşı bilirdilər - hər iki tərəf məmnun olmuşdu - günümüzdə, ilimizdə və əsrimizdə bundan gözəl nə ola bilərdi ki...

- İndi bir sənətkar da gəlməlidi. - Rəmiş dedi.

Mənim sənətkarın kimliyi ilə maraqlanmamağımdan Rəmiş bir az tutulan kimi olsa da dedim:

- Rəmiş, sən də elə yetənə sənətkar deyirsən, bunu tərgit.
- Heç vaxt tərgitmərəm.
- Niyə? - Mən təkid elədim.
- Niyəsi odur ki, yer üzündə nə qədər adam varsa hamısı sənətkardı.
- Bu, qeyri-mümkündü. - Mən qəti etiraz elədim.
- Sənətkar, dərindən fikirləşsən görəzsən ki, mümkündü.
- Sən dərindən fikirləş də... de görək.
- Bəli yer üzündə hamı sənətkardı, sənətkar olmayan yoxdu. Görürsən ki, biri yaxşı maşın sənətkarıdı, biri yaxşı xanəndədi, yazıçı, şairdi, rəssamdı, bəstəkardı - hamısı sənətkardı də... Biz öyrənmişik, ancaq yaxşı şeyə sənətkar deyirik... sənətkar deyəndə ancaq müsbət şeylər fikirləşirik. Ancaq bu, düz deyil. Gözdən tükü elə çəkirlər ki, ruhun da incimir - oğrudu, sənətkardı, səni şirin dilinə salıb elə alladır ki, quru yurdda qalırsan, - sənətkardı, oğraşdıqda tayı-bərabəri yoxdu - sənətkardı...anasının əmcəyini elə kəsir ki, anası yazıq da elə bilir məsum körpədi onu əmir-sənəkardı, dədəsinin goruynan alver eliyir - sənətkardı sənətkar... istedaddı. Hər cür adama rast gəlirik də... ona görə də mən, sən demişkən, yetənə sənətkar deyirəm. Bax, o itlər də sənətkardı, çünki it olmağı onlardan başqa heç kəs bacarmaz... bildin?
- Bildim.
- Quzu kəsərəm saa.
- Burdaaa?



- Buranın məsələsi həll olundu də... - ani fikrə gedib əlavə etdi, bayaq dedim ki, indi bir sənətkar da gəlməlidi, heç vecinə almadın.
- Kimdi ki?
- Bayaq soruşsaydın deyərdim... indi gözlə, gələndə görərsən... Yemək-içmək də, Rəmişin dediyi o sənətkar da stola eyni vaxtda gəldi, elə bil o sənətkarı da yeməklə bərabər mətbəxdən gətirdilər - bu Yaşar Nuri idi.
- Xoş gəlmisən sənətkar. - Rəmiş onunla çox isti görüşdü, qucaqlaşdılar. Sonra Yaşar mənim üstümə gəldi, ikimiz də məmnuniyyətlə Rəmişi təkrar elədik. Sonra mənim gənc dostlarıma əl verib təəccüblə onların sifətinə elə baxdı ki, onlar bir anlıq özlərini artıq hesab elədilər və bu tez keçib getdi. Rəmiş Yaşarın qaynanasının ünvanına ənənəvi bir informasiya göndərdi:
- Yaşar, qaynanan səni çox istəyir.

Yaşar isə elə bil heç eşitmədi, bu qulağından alıb o biri qulağından ötürdü. İştahla stola baxıb əllərini bir-birinə sürtdü:

- Süzün dəə! - dedi.
- Bu gün Yaşarın ad günüdü. - Rəmiş bir informasiya da stolumuza göndərdi, biz də bu xəbəri tariximiz boyu olduğu kimi gurultulu, hətta mən deyərdim ki, sürəkli alqışlarla qarşılayıb eləcə də yola saldıq.
- Mosvka nə təhərdi? - Yaşar gözünü Rəmişə elə zillədi ki, elə bil Rusiyaya çörək dalınca getmiş bir qohumunu, ya da tanışını soruşurdu.
- Yaşar, Moskva o qədər yekədir ki, onun nə təhər olduğunu bilmək olmur haa...
- Sənin üçün yaxşı keçər. - Yaşar əl çəkmədi.
- Çox yaxşı... Allah yaxşı oğlanların canını sağ eləsin.

Yaşarın keyfi kök idi; doğum günü münasibəti ilə artıq hardasa olmuşdu - o, bu məclisə hazır gəlməsə də hazırlıqlı gəlmişdi.

Ev sahibinin dediyi Araz uzunluqda bir tostdan sonra birinci badələri (Yaşardan başqa hamıda birinci idi) sənətkarımızın, Yaşar Nurinin sağlığına içdik. Stol arxasındakılar yüksək iştah nümayiş etdirərək, öz "işlərinin" öhdəsindən böyük bacarıqla gəlirdilər. İtləri də yaddan çıxarmırdılar, qabığı soyulmuş ağac budağı kimi təmizlədikləri ağappaq sümükləri itin qabağına necə atarlarsa, eləcə onlara atırdılar. Beş itdən dördü stol arxasında oturanlar qədər fəal idilər; stol arxasındakı fəalların atdığı sümükləri də göydə qapırdılar - bir it isə yoldaşlarının sümükləri göydə necə qapmalarına çox diqqət və səliqə ilə tamaşa eliyirdi, cəvcilərindən su axırdı, şirə ifraz eliyirdi.

Stol arxasındakılar da, itlər də təxminən eyni vaxtı doyub dolandılar - ağzının suyunu axıdan itdən başqa.

İtlər gülürdü; gülürdü deyəndə ki, qəhqəhə çəkmirdilər ee, elə olsaydı səslərini eşidərdik; belə desək daha doğru olardı; "itlər gülürdü" yox, "itlər gülümsəyirdi".

Ağzının suyunu axıdan it bekaf idi. Ancaq haqq üçünə demək lazımdır ki, bu beş itin içində hamısından qürurlusu, qəşəngi və şəxsiyyətlisi də elə o idi. Zəhmli baxışları isə atlını atdan salardı; ancaq bütün bunlar şəhərdə olduğuna görə o qədər effekt vermirdi.

Hamının sağlığına içilmişdi - mənim gənc dostlarımın da - hamı da razı qalmışdı, çünki dediyim kimi bütün iştirakçılar əhatə olunmuşdu.

Rəmiş əlini atıb qabırğa kababını götürüb ağzının suyu axan itə baxıb muşqurdu. İt ona baxsa da yerindən tərpənmədi. Rəmiş ayağa durub itə tərəf bir addım atmışdı ki, it də ona tərəf gəldi və əgər belə demək mümkündürsə, aralarındakı yolun ortasında görüşdülər. İt kababı Rəmişin əlindən alıb azacıq aralandı, bir yanda çömbəlib arxasını stola çevirdi, kababı yedi, sonra enli, uzun dilini çıxarıb səliqə -səhman ədasıilə dodaqlarını və cəvcilərini yalayıb elə təmizlədi ki, elə bil solfetlə silmişdi. Rəmiş gözünü o itə zilləmişdi, mən də hər ikisinə. O biri itlər Rəmişlə bu İtin arasında yaranmış ünsiyyətə it kimi baxırdılar. Rəmiş bu dəfə iki parça dana basdırmasını götürüb yenə itə göstərdi, muşqurdu, it bu dəfə də yerindən tərpənmədi. O biri itlər isə Rəmişin əlindəki tikələri o saat yedilər - gözləriynən. Rəmiş o biri itlərin gözləri baxa-baxa əlindəki tikələri qaytarıb böyük nimçəyə qoydu. İtlər Rəmişdən küsdülər - bunu Rəmiş də hiss elədi, ancaq nümayişkaranə bir şəkildə özünü o yerə qoymadı. İtlərdən biri başını qaldırıb camaatın qulağı eşidə-eşidə bir-iki ağız göylərə hürdü də.

- Qudurasan... - Rəmişdən reaksiya gəldi.

Tək it çömbəldiyi yerdən qalxıb Rəmişə yaxınlaşdı, üzünü onun çəkmələrinə sürtsə də quyruğunu bulamadı, bu, Rəmişin xoşuna gəldi, o, stolun üstündən bir çəngə salfet götürdü, itin başını sığallaya-sığallaya onun ağız-burnunu sildi. O biri itlər bu mənzərəni seyr etsələr də heç nə qanmadılar, ancaq bu it qandı və burda qanmaqdan çox hiss eləmək var idi.

Rəmiş üzünü bu uçuq-sökük, sınıq-salxaq məkanın sahibinə tutub dedi:

- Sənətkar, itlər sənindi?
- Yox...
- Bəs kimindi?
- Elə hamının...
- Hamınındısa demək heç kəsin deyil, yiyəsizdilər.
- Nə bilim, vallah... - Rəmişin dostu dilləndi və hiss olundu ki, onunku "nə bilim, vallah"a qədərdi və dərinə getməklə işi yoxdu, heç vaxt da dərinə getməklə işi olmayıb...

Rəmiş dostuna dedi:

- Sənətkar, bu iti görürsən? - O iti göstərdi.
- Bəli... - Dostu cavab verdi.
- Bilmirsən onun əsli haralıdı?

Biz uğunub getdik, onun isə dodağı da qaçmadı, dedi:

- Nə bilim, vallah, itdi də... Biz bura yığışanda gəlib yığışırlar başımıza... sülənirlər.
- Səhvin var... O süləngi itə oxşamır - o birilərini de, deyim hə...
- Nə bilim, vallah.
- Bilmirsən, mən deyirəm dayna...
- Nə bilim, vallah.

Rəmiş içində at oynadan əsəbini qatil kimi boğub atdı içinə, mənə tərəf çevrildi, gözlərində iri, aydın hərflərlə, kiril əlifbası ilə oxunması eynəksiz -filansız mümkün olan, gendən çağıran bir cümlə yazılmışdı:

- Kopoyoğlunun xarabasında dərdləşməyə Adam yoxdu də... - Rəmiş gözlərini qırpan kimi bu cümlə onun gözlərindən silindi və mənə dedi:
- Sənətkar, mən ölüm o it sülənən itə oxşayır?
- Qətiyyən. - qətiyyətlə dedim.

Rəmiş sol əlini sol çiynimə qoyub məni özünə sıxdı, başını sağ çiynimə qoydu: yaşlı Adam kövrələndə beləcə uşaqlaşır və başını qoyub sıxılmağa adam çiyni axtarır, kiminsə çiyninə pənah gətirir, kiminsə çiynində mənəvi sığınacaq axtarır - bəzən tapır, bəzən də...

Yaşar Nuri itlərdən o tərəfdə burda tanış olduğumuz adamlardan biri ilə əl-qolunu ölçə-ölçə söhbət eliyirdi.

Gülü stola xörək gətirən qadınla bir kənarda oturub çay içə-içə bal kimi söhbətin axarına düşmüşdü. Qadınlar danışa-danışa bəzən söhbətin elə bir məqamına yetişirlər ki, onlara elə gəlir ki, dünya yalnız söhbət eləmək üçün Allah tərəfindən yaranmış bir məkandır, deysən indi də o məqamda idilər.

...Unudulmaz, bütün quzeyli-güneyli Azərbaycan xalqının, həm də mənim Məmməd əmimiz - Məmməd Arazın bir cüt misrası:

Ürəyə girməyi bacarmaq azdır,
Ürəkdə qalmağı bacarmalısan...

Cavanlıqda məni çox istəyən, lap indi də istəsin, Məmməd Əminin ədəbiyyatdakı ərköyün "qardaş oğlusu" kimi, bu misralara bir balaca əl yox, ürək gəzdirməkdə məqsədim var, mən icazəliyəm:

Dünyaya gəlməyi bacarmaq
azdır,
Dünyada qalmağı bacarmalısan...

Rəmişi dünyaya valideynləri gətirib buraxıblar yer üzünə, behiştlik olsunlar...

Rəmişi dünyada saxlayan, ona "ol" və "qal" deyən isə Gülüdü, Gülü.

Dünyanın bütün kişiləri Rəmişə qibtə eliyə bilərlər.

Gitara kimi Gülünü də Rəmişə Allah yetirib.

Allah Gülüyə deyib:

- Rəmişdən muğayat ol - mənim borcumdan çıx...

İndii Gülü, Yer üzündə Allahın borcunu vaxtlı-vaxtında qaytaran barmaqla sayılası tək-tük qadınlardandı, anam-bacım olasan, Gülü.

Füzulinin nəvələri, Məmməd Arazın qardaşı uşaqları olan bütöv Azərbaycan, o tərəfli, bu tərəfli Araz çayında birlikdə çimən vahid Azərbaycan Rəmişi yaxşı tanıyır.

O, heç vaxt taleyinin, alın yazısının "xətrinə" dəyməyib, necə gəldi yaşayıb-yaxşı və haqq yolun da yolçusu olub, pis və nahaq yolun da, ancaq Rəmişin keçdiyi bütün cığırlar və yollar çoxdandır ki, haqq yoluna qovuşub; bütün qovuşuqlarda aydınlıq var-aydınlığın mübarək Qaqa...

Bütün bu cümlələr bir cümləni deməyə nişanlanıb:

- Gülü olmasaydı Rəmişin özünün də, Gitarasının da sümükləri çoxdan çürümüşdü...

Şükürlər olsun ki, bu gün Gülü və Rəmiş Məmməd Arazın yuxarıda dediyim, qoşalaşmış bir cüt misrasına oxşayır:

"Ürəyə girməyi bacarmaq azdır" misrası olmasa,
"Ürəkdə qalmağı bacarmalısan"

misrası, yiyəsiz, tək insanın havadan asılı qalıb yellənən taleyinə bənzəyərdi.

Bu misranın biri Gülüdü, biri Rəmiş... Onsuz da Dünyadakı insanlar hər şeydən çox misralara oxşayırlar - Allahın Yerin alnına yazdığı misralara...

- Sənətkar, nə fikrə getmisən? - Rəmiş başını çiynimdən götürdü.
- Nədi ki?
- Heç də... səni mən dəvət eləmişəm ki, bir yerdə olaq, darıxmışam.

Özümü qanmazlığa vurdim:

- Bir yerdəyik də...
- Yoox.. Çox uzaqlarda idin... hə... bax, indicə qayıdıb gəldin... Gülü hanı? Gülü, gitaranı gətir... hə... Halım yaman qarışıb, bulanlıq arx suyuna oxşayıram.
- Neyləmək istəyirsən ki?
- Durulmaq istəyirəm.
- Neynirsən ee durulub?
- Özümə baxmaq istəyirəm...

Bu yazıda Yaşar Nurisiz, Elnur və Teyfursuz da keçinə bilərdim; ancaq onlar mənə lazımdı - o günü gözlərimin qabağında vulkan kimi püskürəcək bir möcüzənin şahidləri kimi. Mənim olub-qalanım, hörmətli oxucu, sənin ipinin üstünə odun yığmaq olmaz - bir də gördün ki, yazdıqlarıma inanmadın; onda mən deyəcəm:

- Yaşar Nuri ölməyib ha, inanmırsan ondan soruş. Yaşara inanmırsansa Elnur Abbasovdan soruş, ona da inanmasan Teyfur Xanlarovdan soruş, ona da inanmasan, səninki səndə, mənimki məndə - sənnən qurtardım.
- Sənətkar - Rəmiş qəfil dedi, - Məmməd Arazın yasına getmişdin?

Tay sözüm yoxdu... sözlərim tut qurusuna dönmüşdü, dedim:

- Əlbət ki... çoxdan...
- Çox sevirəm o kişini... bəri bax, sənətkar, Məmməd Arazın Azərbaycan xalqına nə təhər qohumluğu çatır?

Rəmişdi də; onun bu sualı berahat kənd yollarına oxşasa da, dedim: - Hamı ona əmi deyirdi... Deməli Məmməd Araz Azərbaycan xalqının dost-doğma əmisidi - Aqil Abbasdan başqa.

- Aqil Abbasın nəyidi bəs?
- Bütün xalqımızın əmisidi, Aqilin qaynatası.
- Əmi yaxşıdı, qaynata?
- Mənim də, xalqımızın da aləmində əmi yaxşıdı. Aqil Abbasın aləmində isə qaynata ...
- Hə... sənətkar, - o gitaranı kökləyirdi, - hə indi sizin ikinizə bir "Segah" çalacam...
- İkimiz kimdi:
- O itinən sənə... O it çox "muzukalnı" itdi haa... sənətkardı...
- Bəs o biriləri?
- O biriləri də sülənməyin sənətkarıdı. Onlarda qeyrət varsa, mən it kimi uluyaram.
- Neynirsən ki, onların qeyrətini? İt qeyrətnə qalmışıq?
- Yox dana, başqa millətlərin iti də qeyrətli olur, deyirəm heç olmasa... Qabağına sümük at, getsin başqa qapıda hürsün, səni tanımasın - bu, allahsızlıqdı axı.
- İtin də Allahı var ki?
- Millətin də Allahı var, itin də, göyərçinin də... Sizdə bir söz var ee, müəllif, bütün canlıların, yerin-göyün, hamımızın müəllif bir olan Allahdı də.
- Bizim itlər niyə belədi ki?
- Mal yiyəsinə oxşayar də... eşitməmisən?
- Eşitmişəm...
- Bəs onda niyə məni danışdırırsan?
- Nə bilim?
- Qəşəng bilirsən - sən bilməyən şeyə qurd düşər. Nə isə...
- Rəmiş, bir dəfə Qədir Rüstəmovdan soruşdum ki, gitarada muğam çalırlar, bu barədə nə deyə bilərsən? Bilirsən nə dedi?
- Nə dedi?
- Dedi ki, gitara muğam aləmində ikitəkərli velosiped kimi bir şeydi, əlindən buraxdın yıxılıb böyrü üstə düşəcək yerə...
- Desin dayna... Qədiri o dediyi "ikitəkərli velosiped"in tərkinə alıb o qədər aparmışam ki...
- Hara?
- Uzaqlara...
- Uzaqlarda qoyub gəlmisən onu?
- Yox... nə təhər bir yerdə getmişdiksə, heylə də bir yerdə qayıdıb gəlmişik...

Rəmiş, iraq olsun, uşağı olmayan sonsuz adamlar kimi gitaranı övladlığa götürüb, necə deyərlər, onu milliləşdirdi, ona Azərbaycan pasportu verdi, Gitara oldu bizim birimiz. İndi Rəmişin Gitarası Avropalıdan, xüsusilə də İspaniyalıdan daha çox Azərbaycanlıya oxşayır. Rəmişin Gitarası Rəmişin istedadının qarşısında əslini dandı; indi Rəmişin Gitarası da azərbaycanlı olduğunu deyə bilər.

Rəmişin Gitarası əslini dandı, ancaq "əslini danan haramzadədir" fəlsəfəsinin bu məsələyə heç bir dəxli yoxdur. Bir Avropalını Azərbaycanlı eliyən oğul var ee!

Sonra isə Rəmişin övladlığa götürdüyü Gitara doğdu törədi, içində yaxşısı da, orta səviyyəlisi də, ondan aşağısı da var; ancan bunların hamısı bir yerdə Rəmiş olmadılar, çünki Rəmiş bu mənada Allahın bayıssı oğludu, bayıssı oğlu!

Seyid Şuşinski Zeynəb Xanlarovaya İslam Rzayevə, Əlibaba Məmmədova, Rübabə Muradovaya, Sabir Mirzəyevə və s. muğamdan dərs dediyi kimi, Rəmiş də "dil bilməyən, söz anlamayan", övladlığa götürdüyü, qanı qanımızdan, canı canımızdan olmayan yadelli Gitaraya muğamdan - Azərbaycan musiqi dilindən dərs dedi. Rəmiş elə dərs dedi ki, bu Avropalı Gitaraya bir dərs oldu...

Bir rus və yaxud ingilis azərbaycanca tər-təmiz danışanda Adama necə ləzzət eliyərsə, Rəmişin yadelli Gitarası da onun sinəsində muğamca dillənəndə Adama elə ləzzət eliyir.

Rəmiş Gitaranın Azərbaycanda müəllimidir...

İndi dünyanın alimləri üzünü görmədikləri bir adamın barmaq izlərini götürüb o adamın üzünün dəqiq şəklini çəkə bilirlər. Rəmişin Gitaranın pərdələri üstündə vurnuxan, özünə yer tapa bilməyən barmaqları isə onun özünün və Muğamımızın şəklini səslə çəkirlər - səsli şəkil. Təssəvür eliyə bilirsinizmi? Təsəvvür eləsəniz yaxşıdı... Ürəyinizi və beyninizi işlədin də. İşlətsəniz görəcəksiniz ki, Rəmiş Dahidi.

Rəhmətlik Poqonini də Rəmiş kimi bir möcüzə idi.

Fərq yalnız burda idi ki, Poqonini öz həmyerlisini - skripkanı övladlığa götürmüşdü, şərqli Rəmiş isə Avropalının birisini... Gitaranı.

...Rəmiş Gitarası ilə qucaqlaşıb getdi. "Segah"ı qarşılamağa - bizi də özüynən apardı.

Rəmiş "Segah" çalırdı. Məni bağışlayın, onun necə çaldığını yazmağa mənim kişiliyim çatmaz. Kimin kişiliyi varsa, onun lent yazısına qulaq asın və yazsın, sevinməyən heç Adam deyil. Ancaq gözümnən gördüyüm bir şey oldu, onu yazmağa təpərim var.

Rəmiş "Segah"ı başlayandan bir-iki dəqiqə keçməmiş, həmin o tənha it əvvəlcə qulaqlarını şəklədi, sonra yuxulu bir görkəmlə gəlib Rəmişin qənşərində şonqudu, sonra isə əyləşib çənəsini irəli uzatdığı qabaq əllərinin üstünə dirəyib kiprik çalmadan qulaq asmağa başladı. İtin belə nümayişkaranə (bizə elə gəldi) gəlişini hamı gördü.

Rəmiş gözlərini yumub "Segah"ın əl-ayağına düşmüşdü, ilan dili çıxarıb yalvarırdı. Bu darvazasız-qapısız, uçuq-sökük, sınıq-salxaq məkanın altmış-yetmiş addımlığındakı Doqquzmərtəbə binanın eyvanları Adamla dolu idi. Onlar da öz "lodca"larında uyumuşdular və bizə yuxarıdan baxırdılar, yuxarıdan aşağı yox.

İt də uyumuşdu. İtin qulaq asmağı hamımızını içini alt-üst eləmişdi. Təəccübdən əlimiz ağzımızda qalmışdı. Rəmişin isə itdən xəbəri yox idi. Rəmişin milyonlarla pərəstişkarı var, ancaq belə dinləyicisi, belə fanatı - heç vaxt olmamışdı, bəlkə də heç vaxt olmayacaqdı. Möcüzə min ildə bir dəfə olur və bu möcüzə bizim bəxtimizə düşmüşdü.

Mən tez Gülünü çağırdım, o, itin Rəmişə necə qulaq asmağını axıra qədər lentə aldı...

"Segah" qurtardı. İt qaldığı yerdə xeyli tərpənmədi, sonra suya düşən itlər kimi silkələndi, biz-biz dayanmış tükləri hamarlandı, ayağa qalxdı, gedib başını Rəmişin dizinin üstünə qoydu; çiyninə yox, it olsa da yerini bilirdi. Rəmiş bunu İtin adicə mehribanlığı, vəfası kimi qəbul elədi; İtin ondan xəbəri olsa da, Rəmişin itdən xəbəri yox idi.

Rəmiş Doqquzmərtəbəli eyvanlarda sıxlaşmış adamları görəndə bir "Tərəkəmə" çaldı. Bütün buna rəqs eləyirdi. Adama elə gəlirdi ki, bütün Dünya bu Doqquzmərtəbədən ibarətdi və Dünyanın yeddi qatı yox, doqquz qatı var. Adama həm də, elə gəlirdi ki, bütün Bəşəriyyət bu Doqquzmərtəbəyə yerləşib və Doqquzmərtəbə Bəşəriyyət "Tərəkəmə" oynayırdı.

Rəmiş çalırdı, bütün Bəşəriyyət rəqs eləyirdi...

Adama elə gəlirdi ki, Dünya Dağılmır...

**15 may 2009-cu il**

# ETİNASIZLIQ, YOXSA?..

***Azərbaycan Respublikasının Baş Prokuroru cənab Kamran Əliyevə***

**Cənab Baş Prokuror, bu yazımı Sizə ünvanlamağım heç də təsadüfi deyil. Ona görə ki, bu yazı sabiq bir hüquqşünas, prokurorluq əməkdaşı barəsindədi. Ömrünün çox böyük hissəsini prokurorluq orqanında xidmətə həsr etmiş və xidmətini də ləyaqətlə başa vuraraq təqaüdə göndərilmiş Əsgər Lətif oğlu Bəkirov bu gün Oğuz rayonunda yaşayır. Və mən onu bir mətbuat işçisi olaraq hələ 1988-89-cu illərdən tanıyıram. Sonra həyat elə gətirdi ki, o, "Ədalət" qəzetinin yaxşı oxucularından və dostlarından birinə çevrildi.**

Təbii ki, bu da bizim dostluğumuza şərait yaratdı. O, bir prokurorluq əməkdaşı, mən isə hüquq qəzetinin işçisi olaraq Əsgər Bəkirovun işlədiyi rayonlardakı hüquqi durum barəsində tez-tez materiallar hazırlamaq, hətta onun özünün mətbuatda çıxışlarını təşkil etmək imkanı qazandıq. Deməli, bu əlaqələr imkan verdi ki, mən onun həyat yolunu daha yaxından öyrənim. Bu, məsələnin birinci tərəfi. O ki qaldı Sizə ünvanladığım yazının əsas qayəsinə...

Bəli, adətən insan o zaman sıxılır, hətta sınır ki, onun haqqına, xidmətinə etinasızlıq göstərilir, laqeyd yanaşılır. Bu mənada sabiq hüquqşünasın hüququna göstərilən münasibət heç də ürəkaçan deyil. Bu günlərdə 70 yaşını qeyd edən dostum Əsgər Bəkirov sözarası xatırladtı ki, dəfələrlə sabiq Baş prokurorlara müraciət etsə də, onun məzuniyyətə çıxmadığı illər üçün Əmək Məcəlləsinin 135-ci maddəsinə uyğun olaraq ödənilməli olan məzuniyyət pulları bu günə qədər ödənilməyib.

Hətta 2011-ci il may ayının 16-da Göyçay rayon prokuroru, ədliyyə müşaviri Fuad Məmmədovun ona verdiyi arayışda da göstərilib ki, Əsgər Bəkirov 1993-2001-ci illərə qədər məzuniyyətə buraxılmamış, öz vəzifə borcunu yerinə yetirmişdir. Necə deyərlər, qanunun aliliyini həmişə uca tutan prokurorluqda sabiq əməkdaşa çatmalı olan halal haqqını, yəni məzuniyyət pulunu kompensasiya etmək doğurdanmı çətindir, yoxsa qeyri-qanunidir? Hər halda, bu məsələni Baş Prokurorluqda səlahiyyət sahibi olan kimsə araşdırıb sabiq əməkdaşa rəsmi bir cavab verə bilər.

Çox təəssüf ki, həmişə çalışdığı rayonlarda vəzifəsini şərəflə yerinə yetirən, mükafatlandırılan Əsgər Bəkirov bu gün, yəni ömrünün 70-ci ilində özünün halal zəhmətinin haqqını gözləməklə günü axşam edir.

Zənnimcə, yaşlı bir hüquqşünasın oturub haqqının yolunu gözləməsi heç də məsələyə ədalətli yanaşma deyil!..

**Çox hörmətli Kamran müəllim, mən dostumun söhbətindən təsirlənib bu müraciəti Sizə etdim. İnanıram ki, Respublikanın Baş Prokuroru kimi fəaliyyətinizin birinci ilinin tamamı ərəfəsində digər ədalətli qərarlarınız kimi, Əsgər Lətif oğlu Bəkirov barəsində də ədalətli qərar qəbul edəcək, yaşlı bir insanın halal haqqının bərpasına göstəriş verəcəksiniz.**

**Hörmətlə:**
**Əbülfət MƏDƏTOĞLU,**
**Əməkdar jurnalist**

***Məğrur Əli Polad***

# QARABAĞI QAPALI ƏRAZİ KİMİ SAXLAMAQ OLMAZ!



*Qarabağa qayıdış prosesi çox uzanır. Əsas problem kimi göstərilən minalar məsələsi ya bilərəkdən, ya da bilməyərəkdən həddindən artıq şişirdilir. 5-10 kilometrlik keçmiş ön xətt zolağından arxada minalara, demək olar ki, rast gəlinmir. İndinin özündə də həmin ərazilərdə onminlərlə hərbçi hərəkət edir, yol, su, işıq çəkilişi ilə məşğul olan mülkilər fəaliyyət göstərir, hətta mağaza və kafelər də açılıb. Təhlükəli zolaqdan isə çoxdan təmizlənmiş yollarla kənara çıxmadan keçib getmək mümkündür. İşğal dövründə yaşayışlı olmuş bir çox kəndlər, şəhərlər var ki, evlərin, binaların əksəriyyəti salamatdır, müharibədə dağılmış kommunal infrastruktur da artıq bərpa olunub. Məsələn, Şuşa şəhəri, Tuğ kəndi və s. Eləysə, nə üçün insanlar öz torpaqlarına, evlərinə buraxılmır? Sakinlərin qeydiyyata alınması, salamat evlərin reyestrinin çıxarılması bu qədərmi ağır, uzun çəkən bir işdir? Sanki insanların geri dönməsindən yana bir tərəddüd, qorxu hissi var... Halbuki, Qarabağı böyük mənada qarabağlılar, insanlar bərpa edəcək, dövlət yox. İlk növbədə insanların həyətyanı və pay torpaq sahələri özlərinə verilməli, evlərin tikilməsi və ya bərpasında isə dövlət Konstitusiya ilə öhdəlik daşıdığı vəzifəsini həyata keçirməlidir. Və bunu məhz qarabağlıların, konkret hansısa kənddə, şəhərdə yaşayanların istəyinə, seçiminə uyğun etməlidir. Bütövlükdə isə Qarabağı məhz insanlar bərpa edəcək! Bu proses ən tez zamanda başlanmalıdır. Qarabağı insanlar üçün qapalı ərazi kimi saxlamaq hər mənada yolverilməzdir. O cümlədən, insanların bərəkətli dədə-baba torpaqlarını müəyyən kateqoriyadan olan şirkətlərə, fərdlərə əkin-biçin, heyvandarlıq və s. üçün qeyri-rəsmi formada bölüşdürmək, əslində qanunsuzluq, qarətçilikdir. Və bu, gec-tez kütləvi narazılığa, münaqişələrə gətirəcək.*

*Bir məsələni də qeyd edim. Sakinlərdən, işin içində olanlardan aldığım məlumatlar onu deməyə əsas verir ki, lazım olan yerlərdə minatəmizləmə əməliyyatı da çox ləng gedir. ANAMA-nın yerlərdəki əməkdaşları işləməkdən çox, vaxt keçirməyə üstünlük verirlər. Səbəb çox sadədir: Onlar rayon yeri üçün yüksək sayılan maaş alırlar. Amma görünür, bu uzanma başqa kimlərəsə də sərf edir.*

*Sadə deyək: Hansısa idarənin mülki işçiləri Şuşaya gedir və minaya düşmürlərsə, sadə şuşalılar da Şuşaya buraxılmalıdır. Və ya Füzulinin, Cəbrayılın torpaqlarında kimlərsə əkin-biçin aparır və minaya düşmürlərsə, bu torpaqlar ilk növbədə öz sahiblərinə verilməlidir! Hətta kəndlər sonra da bərpa oluna bilər, amma torpaqlar indidən ədalətli, hüquqi və şəffaf şəkildə bölüşdürülməlidir. Yalnız bundan sonra kimsə öz payını kiməsə sata və ya icarəyə verə bilər. Bu gün Qarabağ işğalda deyil - deyiriksə, həmin ərazilərdə sakinlərin hüquqları, xüsusilə mülkiyyət hüquqları da təmin olunmalıdır!*

*Qarabağlıları Qarabağa buraxın. Buraxın ki, Qarabağı bərpa etsinlər! Yoxsa ölçmə-biçmə, vurma-çıxma, ağıllı-ağılsız kənd hesablamaları illərlə davam edə bilər. Əlbəttə, bunda kimlərsə maraqlı deyilsə...*



*Əli ƏHMƏDOV,*
*I Qarabağ müharibəsi qazisi*

## Cəmilli kəndində açılan səhərim

*Cənnət diyarı olan Azərbaycanın azadlığı, ərazi bütövlüyü, müstəqilliyi uğrunda şəhid olan qəhrəman oğulların ruhu qarşısında baş əyir, onlara Allahdan rəhmət diləyirəm. Əgər məni də anam bu cənnət diyarda dünyaya gətiribsə, deməli bərəkətli torpağın, Allahın bəxş etdiyi qiymətli sərvətin, dəyərli iqlimin qorunmasında mənim də türk soylu millətin övladı olaraq borcum var. Ona görə də qanlı səngərdə düşmənə qarşı döyüşməyi özümə şərəf bildim. Torpaq uğrunda ölən varsa, vətəndir, deyib aqillər.*

*1994-cü ildə könüllü olaraq Qarabağ müharibəsinə qatıldım. 1994-cü il aprel ayının 24-də Tərtər rayonunun Cəmilli kəndində tağım komandiri olaraq döyüşçü həmkarlarımla birgə ilk dəfə əlimə silah aldım. 24 aprel yaddaqalan gündür. Çünki tarixi düşmənimiz olan erməninin - Andranikin qulağının kəsildiyi gündür. Bunu hələ qələbə hesab etmirəm, çünki doğulduğum Laçınımdan ayrı yaşayıram. Türk dünyasının milli qəhrəmanı Soltan bəyin azad yaşadığı Qırxqız dağına həsrətlə baxırıqsa, qan tökməyə və ölməyə dəyər. Çox ümid edirəm ki, bizdən sonra gələn gənc nəsil iddialı olacaqlar ki, Azərbaycanın cənnət məkanı Qarabağda əbədi yaşayacaqlar. Qarabağ savaşında övlad itirən valideynlər üçün həyat heç də asan deyil. Yaralı olan zaman mənə və ağır yaralı döyüş yoldaşlarıma kömək edən, yaralarımı sarıyan, bu gün də yaşamağımın səbəbkarı olan həkimləri, Cəmilli kənd sakinlərini ömrüm boyu unutmayacağam. Bu kəndi anadan olduğum kəndimiz qədər sevəcək, imkanım olan qədər abadlaşması üçün əlimdən gələni edəcəyəm. Bu kəndin sakinləri qonaqpərvər, mərhəmətli, ümidverən insanlardır. Hətta 2019-cu ildə Əli Kərimov adına Cəmilli kənd tam orta məktəbində keçirilən görüşdə kənd sakinlərinin, məktəblilərin, müəllim kollektivinin, məktəbin direktoru Rəşad Şahbazovun məni yüksək əhval-ruhiyyədə qarşılamaları ümid verdi ki, vətəndə vətənsiz ölməyə dəyməz.*

*Hesab edirəm ki, yaşadığım bu həyatın ilkin təməli Cəmilli kəndində qoyulub. Hərdən yolumu bu kənddən salıram. Buranın havası, suyu, özünəməxsus üslubda tikilmiş evləri, ilan kimi qıvrılan mənzərəli yolu adamı valeh edir. Cəmilli kəndi təbiətin füsunkar bir ərazisində yerləşir. Ziyalısı, alimi, sənətkarı, müəllimi kəndin çox qədim olan tarixinə istinad edir. Gözəl mənzərəsi, diqqəti cəlb edən yaşıllığı, kəndin mərkəzində toplaşan ağsaqqalların nurlu siması burada sirli bir ab-hava yaradır. Hərdən yuxudan duranda özümü əməliyyat otağında hiss edirəm. Qollarım, ayaqlarım bağlı halda çarpayıda ölümlə üz-üzə qaldığım anları xatırlayıram. İndi yaşadığım işıqlı dünyama şükür edirəm.*

*Tanrıdan diləyim odur ki, ömür vəfa etsə, Laçın torpağını, bütövlükdə Qarabağı ziyarət edim. Elə bilərəm ki, Məkkəni, Mədinəni ziyarət etmişəm. Doğulduğum Laçın torpağı qədər Cəmilli kəndi də mənə doğmadır, əzizdir. Ona görə də bu kənd unudulmazdır mənim üçün. Bəli, bu kənd bizim kəndimizdir.*

# QƏZALARI KİMLƏR YARADIR?

**Sükan arxasında əyləşmiş hər bir sürücü öncə onu düşünməlidir ki, avtomobildə hərəkət edərkən bütün qanunlara, o cümlədən "Yol hərəkəti haqqında" Qanuna əməl etməyə borcludur. Ən azından ona görə ki, o sürücü qanunlara əməl etməklə həm özünün, həm də digər hərəkət iştirakçısının təhlükəsizliyini təmin etməyi bacarır. Əks təqdirdə, yəni qanun qozuntusuna yol verməklə sürücü taleyini təhlükə qarşısında qoyur. Hələ biz başqa hərəkət iştirakçılarını nələr gözlədiyini demirik.**

Heç kimə sirr deyil ki, Bakı şəhərində nəqliyyat vasitəsini idarə etmək digər yaşayış yerlərinə nisbətən daha çətindir. Çünki paytaxtımızda nəqliyyat vasitələrinin sayı bir milyondan çoxdur və eyni zamanda, küçələrdə, prospektlərdə səhər, axşam saatlarında bir sıxlıq yaşanır. Hətta bəzən sıxlıq hərəkəti dayandırır, avtomobillər nə az, nə çox yarım saatdan artıq tıxacda qalır. Təbii ki, belə bir durumda nəqliyyat vasitəsini idarə etmək sürücüdən çox böyük məsuliyyət və təcrübə tələb edir. Çünki adi bir diqqətsizlik və adi bir səhlənkarlıq hər hansı bir qəzaya gətirib çıxarır. Üstəlik də belə sıxlıqda bəzi sürücülər ara məsafəsi saxlamır, maşını digər maşının lap arxasına, 2-3 sm-ə qədər gətirirlər. Belə bir şəraitdə, belə bir durumda bayaq dediyim kimi, qəzalar qaçılmaz olur. Bakı Şəhər Dövlət Yol Polisi İdarəsinin bölmə rəisi, polis polkovniki Vaqif Əsədov toxunduğumuz məsələlərə münasibət bildirərək deyir ki, nəinki səhər və axşam saatlarında, hətta adi vaxtlarda belə şəhərin müxtəlif prospektlərində, küçələrində tıxaclar yaranır. Elə bəzən bu tıxaclara da səbəb sürücülərin özləri olurlar. Yəni yol hərəkəti qaydasına əməl etmir, bir cərgədə durub yolun açılmasını gözləmir, bununla yanaşı, səbirsizlik edib qarşıdan gələn avtomobilin yoluna çıxırlar. Demək bir sürücünün yol hərəkəti qaydasını pozması və qarşı tərəfə çıxması yeni bir problemin yaranmasına, daha doğrusu, hər iki yolun bağlanmasına səbəb olur. Ona görə də idarəmizin əməkdaşları səhər və axşam saatlarında paytaxtın küçə və prospektlərində tıxacları aradan qaldırmaq üçün operativ xidmət göstərir. Belə ki, onlar həmin ünvanlarda olur, hərəkəti tənzimləyir və sıxlığı, tıxacları aradan qaldırırlar. Üstəlik də bəzən işıqforlar işləməyən yerə biz əlavə naryadlar göndəririk. Yağışlı havalarda bu cür hallara daha tez-tez rast gəlmək mümkündür. Birmənalı olaraq mürəkkəb hava şəraitində əməkdaşlarımızın iş rejimi daha da gərginləşir, mövcud problemi aradan qaldırmaq üçün qabaqlayıcı tədbirlər görülür. Bakıda təbii ki, hərəkətin təhlükəsizliyinin təmin edilməsində Yol Patrul Xidməti Alaynın üzərinə böyük məsuliyyət düşür. Ona görə böyük məsuliyyət düşür ki, bu alayın əməkdaşları şəhərin mərkəzi küçə və prospektlərində sutkanın 24 saatı xidmət aparır, yol hərəkəti qaydalarını pozanlara qarşı davamlı olaraq tədbirlər görür və eyni zamanda, hərəkət iştirakçılarının təhlükəsizliyi üçün lazımi addımlar atır. Bu mənada Yol Patrul Xidməti Alayının 5-ci tağımının əməkdaşlarının işi xüsusilə qeyd edilməlidir. Ona görə ki, 5-ci tağımın əməkdaşları "20 Yanvar", "Şamaxinka" deyilən yerdə və Zərdabi küçəsində hərəkətin təhlükəsizliyini birmənalı olaraq təmin edirlər. Istər qışda, istərsə də yayda tağım əməkdaşları mütəmadi olaraq sürücülərin maariflədirilməsini diqqət mərkəzinə çəkirlər. Başqa sözlə demiş olsaq, onlar baş verə biləcək qəzaların qarşısının alınması üçün bütün qabaqlayıcı tədbirləri vaxtında həyata keçirirlər.






Düzdür, elə sürücülər var ki, onlar dəfələrlə yol hərəkəti qaydasını pozur, yol nişanlarına məhəl qoymur, işıqforun qırmızı işığında keçir və bununla da digər hərəkət iştirakçıları üçün böyük təhlükə törədirlər. Aydındır ki, bu cür sürücülər inzibati məsuliyyətə cəlb olunur, cərimə edilirlər.

Bir faktı da qeyd edək ki, Yol Patrul Xidməti Alayının 5-ci tağımının komandiri, polis kapitanı Nurlan Əliyev çox peşəkar, öz işini bilən və tapşırılan vəzifəni vaxtında icra edən bir zabitdir. Onun tağımı davamlı olaraq kobud qayda pozuntularına qarşı mübarizə aparıb və bu cür sürücüləri aşkarlayıb. Əlbəttə, tağım əməkdaşları ilk növbədə küçə və prospektlərdə xidmət apararkən hərəkətin təhlükəsizliyini diqqət mərkəzində saxlayır. Indi heç kimə sirr deyil ki, Bakı şəhərində "Dayanma" və "Durma" qaydalarını pozan sürücülər daha da çoxalıb. Bax, bu cür sürücülərə qarşı tağım əməkdaşları davamlı olaraq tədbirlər görür, onlar barəsində lazımi ölçü götürürlər.

Çox qəribədir, bəzi sürücülər elə bilir ki, nəqliyyat vasitələrini istənilən yerdə saxlaya bilərlər. Və hətta bəzən görürsən ki, "Dayanma" və "Durma" nişanları olan yerdə hansısa sürücü avtomobil saxlayıb. Yol polisi əməkdaşı qanunu pozan sürücü barəsində tədbir görəndə onlar deyirlər ki, "rəis, bağışla, burda mağazada bir dəqiqə işim vardı ona görə dayandım". Əbəttə, bəzi sürücünü, özü də intizamlı sürücünü bağışlamaq da olar. Və hətta qayda pozan bir çox sürücünü maariflədirmək də mümkündür. Amma gərək bundan sürücü nəticə çıxarsın, təkrar qayda pozuntusuna yol verməsin. Tağımın əməkdaşlarından polis leytenantı Ramil Quliyev, polis serjantı Rasim Kazımov keçirilən tədbirlərdə öz üzərlərinə düşən işin öhdəsindən bacarıqla gəlirlər.

**Qayıdaq əvvəlki söhbətimizə. Yəni qəzaları yaradan kimlərdir? Bu suala birmənalı olaraq deyə bilərik ki, bütün qəzalara səbəb yol hərəkəti qaydalarının pozulmasıdır. Özü də kobud qayda pozuntuları daha böyük təhlükə və faciə yaradır. Bütün bunlara rəğmən hər bir sürücü diqqətli olsa, qaydalara əməl etsə, özünün və hərəkət iştirakçılarının taleyini düşünsə, ağır qəzalar baş verməz və bu qəzalar zamanı ölənlər və xəsarət alanlar az olar. Deməli, yenə bütün məsuliyyət sükan arxasında əyləşən sürücünün və digər hərəkət iştirakçılarının üzərinə düşür.**

**Faiq QİSMƏTOĞLU**

## *Yaponiya səfiri Ağdamda yeni bağçaçın açılışında iştirak edib*



**Ağdam rayon Paşabəyli kənd uşaq bağçasının yeni binası istifadəyə verilib.**

**Trend-in Qarabağ bürosunun məlumatına görə, müəssisənin açılışında Ağdam rayon icra hakimiyyətinin başçısı, Yaponiyanın Azərbaycandakı səfiri iştirak edib.**

**Tədbirdə iştirak edən Yaponiyanın Azərbaycandakı səfiri Vadan Cüniçi bildirib ki, Yaponiya hökumətinin həyata keçirdiyi proqram çərçivəsində yeni bağça inşa edildi:**

**"İşıqlı, təmiz təhlükəsiz bağçada vaxtını keçirdən şən uşaqların simasını gördüyüm üçün çox şad oldum. Bundan sonra da Paşabəyli kəndinin uşaqları bu bağçadan istifadə edərək öz vaxtlarını daha da şən keçirməsini arzulayıram."**

**Vadan Cüniçi, Yaponiya hökumətinin bundan sonra da Azərbaycanın müxtəlif bölgələrinin əhalisinin ehtiyaclarına cavab vermək, Azərbaycan əhalisinin həyat şəraitinin yaxşılaşdırılması istiqamətində öz töhfəsini verəcəyini deyib.**

## *Vüqar Səfərlinin əmlakına və avtomobillərinə həbs qoyuldu*



**Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun (KİVDF) icraçı direktoru Vüqar Səfərli və "Portos" MMC-nin direktoru Məmmədov Nadir Məhərrəm oğlunun əmlaklarına həbs qoyulub.**

Bu barədə "Azərbaycan Respublikası Hesablama Palatasının 2020-ci ildə fəaliyyəti haqqında" hesabatında bildirilir. Məlumatda qeyd edilir ki, Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən təqdim edilmiş məlumata görə Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunda 2017-2020-ci illəri əhatə edən dövr üzrə qanunsuz olaraq xərclər smetasından artıq məbləğdə pul vəsaitlərinin xərclənməsi haqqında daxil olmuş müraciətlə bağlı 12 iyun 2020-ci il tarixində Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 179.4, 308.1, 308.1-2 və 308.2-4-cü maddələri ilə başlanılıb.

İstintaqı aparılan cinayət işi üzrə təqsirləndirilən şəxslərin mülkiyyətində olan qeyri-yaşayış, torpaq və bağ sahələri, həmçinin fərdi yaşayış evləri, mənzil və avtomobillərin üzərinə Binəqədi Rayon Məhkəməsinin müvafiq qərarı ilə həbs qoyulub.

Xatırladaq ki, KİVDF-də dövlət büdcəsindən ayrılan vəsaitlərin xərclənməsi zamanı aşkar edilmiş qanun pozuntuları ilə əlaqədar Hesablama Palatasından daxil olmuş materiallar üzrə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanıb. İttihama görə, Vüqar Səfərli qeyriləri ilə qabaqcadan əlbir olaraq qeyd edilən mənimsəmə və vəzifə saxtakarlığı cinayətləri üzrə əldə etdiyi xüsusilə külli miqdarda pul vəsaitini kommersiya bankında olan milli və xarici valyutadakı depozit hesablarına 2015-2018-ci illər ərzində cəmi 5 milyon 796 min manatı yerləşdirməklə cinayət yolu ilə əldə edilmiş həmin pul vəsaitlərini külli miqdarda leqallaşdırıb.

**İş üzrə toplanmış ilkin sübutlar əsasında Səfərli Vüqar Müzəffər oğlu Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müvafiq olaraq 179.4 (xüsusilə külli miqdarda ziyan vurmaqla mənimsəmə və israf etmə), 193-1.3.2 (cinayət yolu ilə əldə edilmiş külli miqdarda pul vəsaitlərini leqallaşdırma), 308.2 (ağır nəticələrə səbəb olan mühüm zərər vurulmaqla vəzifə səlahiyyətlərindən sui-istifadə etmə), 308-2.4 (satınalma prosedurları keçirilmədən külli miqdarda ziyan vurmaqla dövlət vəsaitlərini xərcləmə) və 313 (vəzifə saxtakarlığı), Məmmədov Nadir Məhərrəm oğlu isə Cinayət Məcəlləsinin 179.4, 308.2 və 313-cü maddələrinə əsasən təqsirləndirilən şəxs qismində cəlb edilərək barələrində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib. (Report)**

## Səbinə Gözəlova: "Şuşa da azaddır, atamın ruhu da..."





*Bu gün Ağdamın - Azərbaycanın igid oğlu Mikayıl Gözəlovun doğum günüdür. Yaşasaydı hamımız birlikdə bu qəhrəman eloğlumuza ürəyimizdən kecən təbrikləri ünvanlıyardıq.Təəssüf ki, yaşamadı, yaşatmadılar. Hər bir kəlməsi ox olub, düşmənlərimizin də, düşmənlərimizə xidmət göstərən sapı özümüzdən olan baltaların - satqınların da ürəyinə-gözünə batdı.*

*Və elə o gündən Mikayıl Gözəlovun ölümünə fərman verildi.*

*Mikayıl Gözəlov 1948-ci il aprel ayının 5-də Ağdam rayonunun Mərzili kəndində anadan olub. Novruzlu kənd orta məktəbini bitirdikdən sonra o zamankı Çingiz İldırım adına Azərbaycan Politexnik İnstitutunun sənaye və mülkü tikintilər fakültəsinə qəbul olub. 1969-cu ildə təhsilini başa vuraraq təyinatla Şuşa şəhərindəki 92 nömrəli Tikinti İdarəsinə gəlib. Əmək fəaliyyətinə tikinti ustası kimi başlasa da, 1976-cı ildə çalışdığı idarənin rəisi vəzifəsinədək yüksəlib.*

*1982-ci ildə Respublika Sənaye Tikintisi Nazirliyinin Xankəndində yerləşən 9 saylı DQMV Tikinti Trestinə rəis müavini təyin edilib.*

*1988-cu ildə Şuşa Rayon Xalq Deputatları Soveti İcraiyyə Komitəsinin sədri seçilib. Azərbaycan prezidentinin fərmanı ilə 1991-ci ilin noyabr ayının 7-də Şuşa rayon İcra Hakimiyyətinin başçısı təyin edilib. Gözəlov Şuşanın və Dağlıq Qarabağdakı digər azərbaycanlı yaşayış məntəqələrinin müdafiəsi işinə rəhbərlik etmiş, bu yaşayış məntəqələrinin bütün problemlərinin həllində, sosial-iqtisadi inkişafında mühüm rol oynayıb. Şuşanın və Qarabağ yaşayış məntəqələrinin müdafiəçilərinin lazımi silah, sursat və texnika ilə təmin olunmasında xüsusi fəallıq göstərib, öz vəsaiti hesabına respublikamızın bir çox bölgələrindən, eləcə də başqa ölkələrdən xeyli silah, sursat və texnika gətirdib. Milli Ordunun ilk rəsmi hərbi hissələrindən olan 816 saylı Şuşa ərazi özünümüdafiə taborunu yaradanlardan biri olub...*

*Bu hadisədən cəmi 21 gün sonra-11 dekabrda iş kabinetində güllələnərək öldürülən Gözəlov da hədəfdən yayına bilməzdi və həyatına qəsd edilən igidlərin siyahısı getdikcə böyüyürdü, böyüdükcə isə torpaqlarımızın işğalı reallaşırdı. Şuşalıların etiraf etdiyi kimi Gözəlovun qətlə yetirilməsi Şuşanın işğalının yaxınlaşmasından xəbər verirdi.Qətli həyata keçirən Elbrus İbrahimov Şuşada təcili yardım maşınının sürücüsü idi və 27 illik məhkumluq həyatından sonra o 2019-cu ilin yanvarında həbsxanada rəhmətə gütdi. Məzarı Mərzili kəndindədir.Qeyd edək ki, yurdunda dörd övladı qalıb . Sona, Səidə, Səbinə, Müşfiq...*

***

*M. Gözəlovun qızı Səbinə Gözəlova ilə bu gün-atasının doğum günü ilə bağlı söhbətləşdik:*

**- Səbinə xanım, Şuşa düşməndən azad edilən gün hansı hissləri keçirdiniz? Mikayıl Gözəlovun uşaqları o gün nə düşündü?**

-27 sentyabr Azərbaycan Ordusunun komandanlığı tərəfindən qoşunlarımızın bütün cəbhə boyu əks-hücum əməliyyatına başlayanda Qarabağla bağlı içimdə uzun illər arzu olaraq qalmış bütün duyğularım baş qaldırdı. İnanırdım ki, müzəffər ordumuz da, Ali baş komandanımız da bizə qələbə sevinci yaşadacaqlar. Yaşatdılarda! Şuşanın erməni terrorçu ordusundan azad edilməsi xəbəri bizim ailədə sevinc göz yaşları ilə qeyd olundu. İlahi gözümüzdə nə qədər yaş varmış?(gülür) Mən Səidəyə zəng vurdum, Səidə Sonaya, Sona Müşfiqə... Televiziyadan hamımımız izləyirdik, amma elə bil sevincimizi bölmək ehtiyacımız vardı... Ona görə də bir-birimizi yığırdıq, eləcə, bir kəlmə "Şuşa" deyib, göz yaşlarımızı silirdik, səsimiz çatınca bağırırdıq, gülürdük... Atamın yolunda canını verdiyi doğma yurdumuz artıq Azərbaycan Ordusunun nəzarətindəydi. Əntiqə xanım, həmin günü hisslərimizi sizə danışıram , amma bilirəm ki, olduğu kimi ifadə edə bilmirəm...Kaş ki, həmin gün bizim ailəmizin içərisində olaydınız. Bizim hansı hisslər keçirdiyimizi görəydiniz...

**- Son dəfə Şuşa da nə vaxt olmuşdunuz?**

- Atam qətlə yetiriləndə mənim 6 yaşımın içində idim. Dumanlıda olsa, cox şey yadımdadır. Xüsusən şəhərdə mərmi səsləri gələndə binamızın sakinləri ilə birgə zirzəmilərə yığıldığımız anları unuda bilmirəm. Hamının gözündə bir təşviş, biir həyəcan...Böyüklərdən birbaşa bizədə sirayət edirdi o əhval-ruhiyyə...Nadinc, dəcəl uşaqdan əsər-əlamət qalmırdı, dönüb olurduq böyüklər kimi sakit, narahat, gərgin , amma təmkinli bir "adam". Şəhərə aramsız mərmi atılırdı. Biz həmin gün yenə zirzəmiyə düşmüşdük. Xeyli sonra evə döndük. Zirzəmiyə tələsik düşəndə televizoru söndürməmişdik, unutmuşduq. Televiziyada kişi diktorun kədərli səslə dediyi; Şuşanın icra başcısı Mikayıl Gözəlov öz iş otağında qətlə yetirilib" cümləsi illər kecsə də hələ də yaddaşımdan silinməyib. 11 dekabr-Həmin gün atamı dəfn etmək üçün Ağdamın Mərzili kəndinə gəldik və o bizim Şuşadan sonuncu gedişimiz oldu.

**- Şuşaya getmək istəyərsinizmi?**

- Təəssüf ki, hələ o cənnətə ayaq qoya bilməmişəm, yəqin ki, tez bir zamanda gedəcəyəm. Axı orda atamın ruhu dolaşır...

**- 29 ildən sonra atanızın doğum gününü necə qeyd edirsiniz?**

-Bilirsiniz, atasızlıq çox böyük bir dərddir, həyatımıza müəyyən qədər təsir edib. Maddi cəhətdən hec bir sıxıntı yaşamamışıq. Dördümüzdə ali təhsil almışıq. Ailə qurmuşuq, işlə təmin olunmuşuq. Bunun üçün bizə dəstək olan hər kəsə ailəmiz adından təşəkkür edirəm. Amma atanın bir nəvazişli baxışının yerini yüz min sərvət, təmtəraqlı həyat verə bilməz. Elə olub ki, imtahandan 5 alanda, sevinclə universitetin qapısından cıxanda gözlərim atamı gəzib, Həmin vaxt ürəyimdən kecib ki, kaş atam da qapının qarşısında gözləyən valideynlərin arasından cıxıb gələ, mən də sevinə-sevinə onun qucağına atılam, qışqıra-qışqıra, sevinə- sevinə deyəm ki: Ata, qızın "əla" aldı.Düz 29 ildir, atamın nigaran ruhunun, nigaran qəbrinin xiffətin çəkmişəm. O möhtəşəm qələbə mənim nigarançılığımın, kədərimin, qəmimin üstündən xətt çəkdi. Bu gün ilk dəfə atamız üçün acı göz yaşları tökməyəcəyik, nəinki tək onun bütün şəhidlərimizin qisası alınıb.

**-Vətən müharibəsində igidlərimiz torpaqlarımızın azadlığı üçün canlarından keçdilər. Şəhid oldular. O şəhidlərin övladlarına nə demək istərdiniz?**

- Əvvəlcə bildirim ki, yuxarıda qeyd etdiyim kimi ata əvəzsiz nemətdir, həyat onsuz çox cansıxıcı keçir.

Amma düşünün sizin atanız ən müqəddəs zirvəyə yüksəlib. Xalqın ən çox sevdiyi müqəddəs bildiyi şəxsə çevrilib. Siz hər addımda, dövlətin də, xalqın da şəhid övladına olan sevgini, isti münasibəti duyacaqsınız.Şuşa camaatı atamı o dərəcədə hörmətlə anır , onu o qədər sevir ki, atamın bizə yox, özünü xalqına həsr etməsinə artıq təəssüf etmirəm.

Şəhid övladları şəhidlərimizin xalqa əmanətidir. Bütün şəhidlərimizin ruhu qarşısında baş əyirəm!Şəhid övladlarına isə həm atalarının adına, həm də vətətnə -xalqa layiq övlad olmağı arzulayıram!

**- Səbinə xanım, müsahibəyə görə təşəkkür edirəm! Atanız- nəinki şuşaların, bütün Azərbaycanın hörmətlə yad etdiyi Mikayıl Gözəlovun ruhu şad olsun! 73 yaşı mübarək!**

**Söhbətləşdi:**
**Əntiqə Rəşid**

## Baş Prokurorluq Rasim Quliyein həbs səbəbini açıqladı

***Vəzifə səlahiyyətlərindən sui-istifadə edən daha bir şəxsin qanunsuz əməlləri ifşa edildi.***

***Ölkəmizdə həyata keçirilən genişmiqyaslı sosial və iqtisadi islahatlar nəticəsində inşaat sektorunun inkişafı üçün yaradılmış münbit və əlverişli şəraitdən sui-istifadə və korrupsiya hüquqpozmalarına yol verilməsi hallarına qarşı prokurorluq orqanları tərəfindən kompleks tədbirlərin görülməsi davam etdirilir.***



***Belə ki, paytaxtın Nəsimi rayonu, Dilarə Əliyeva küçəsi 141 ünvanında yerləşən yaşayış binalarının,habelə yerli əhəmiyyətli mədəniyyət abidəsi kimi dövlət tərəfindən mühafizə olunan yaşayış evinin sökülməsi və yeni yaşayış binalarının tikintisinə dair "FF-2011" Mənzil Tikinti Kooperativinə qanunsuz icazə verilməsi faktı ilə bağlı Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanmaqla istintaqı aparılır. Aparılmış istintaqla Bakı şəhər İcra Hakimiyyəti başçısının müavini vəzifəsi üzrə səlahiyyətlərinin icrası həvalə edilmiş BŞİH başçısının Aparat rəhbəri vəzifəsində işləmiş Quliyev Rasim Vaqif oğlunun təşkilati-sərəncamverici funksiyaları yerinə yetirən vəzifəli şəxs kimi qanunsuz üstünlük əldə etmək məqsədilə BŞİH başçısının Nəsimi rayonu ərazisində ofis və yaşayış binalarının tikilməsinə dair 31 may 2018-ci il tarixli 346 nömrəli sərəncamını şəxsən imzalamasına, bununla da sözügedən MTK-nın həmin ərazidə 1893-cü ildə inşa edilmiş yerli əhəmiyyətli tarix və mədəniyyət abidəsi kimi dövlət tərəfindən mühafizə olunan yaşayış evinin olmasını nəzərə almadan ayrı-ayrı fiziki şəxslərə məxsus olan mənzillərin, yaşayış və qeyri-yaşayış sahələrinin qanunsuz olaraq söküntüsünə başlamasına, habelə tikinti və söküntü işlərinin aparılmasının digər əsas şərtlərinin pozulmasına səbəb olmasına əsaslı şübhələr müəyyən olunmuşdur.***

***Qeyd edilənlər nəzərə alınmaqla, Rasim Quliyevə Cinayət Məcəlləsinin 308.2 (ağır nəticələrə səbəb olan vəzifə səlahiyyətlərindən sui-istifadə) və 314-2.3-cü (qanunla müəyyən olunmuş qaydaları pozmaqla tikinti və ya quraşdırma işlərinin aparılmasına icazə vermə ağır nəticələrə səbəb olduqda) maddələri ilə ittiham elan edilmiş və barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilmişdir.***

***Hazırda cinayət işi üzrə intensiv istintaq tədbirləri davam etdirilir.***

# Torpağa mehman oldu

***Deyirlər, insan doğulanda, bu işıqlı dünyaya qədəm basanda onunla birlikdə onun alın yazısı da yazılır, tale yollarının xəritəsi çəkilir. Sadəcə olaraq insan cavan olanda bunu dərk etmir, zaman ötdükcə, idrakı kamilləşdikcə, həyatda bərkə-boşa düşdükcə, baş verənlər barədə düşündükcə dərk edir ki, tale yolları müəyyənləşib, olacaqlar baş verir. Hər nədirsə, nə alın yazısından, nə də olacaqlardan yan ötmək mümkün deyil... (bunu arzulamasa da)***

Mirəziz kişinin ata-babası Lerikin Piyəkuçə kəndində yaşayıblar. Sonra onlar Dico kəndinə köçüblər. Burada dolanışığın çətin olduğunu görüb Mirəziz Lənkəranın Marso kəndinə (indiki Ürgə) ailəsi ilə bərabər köçüb, burada ev-eşik sahibi olub. O, ruzi qazanıb, halal çörək yiyəsi olub. Ailəsində xanımı mərhum Hacıbəyimlə beş qız, iki oğul böyüdüblər. Onların sağ-salamat böyüməsi, ev-eşik sahibi olması üçün valideyn borcunu yerinə yetiriblər. Övladları böyüdükcə, ailə sahibi olduqca fərəhləniblər, seviniblər ki, övladları həmişə baş ucaldan olublar, utancgətirici bir iş görməyiblər...

### *Mən zabit olacam*

Ürgə kənd tam orta məktəbini uğurla bitirəndə çoxlu dostu vardı Mehmanın. Son zəngdə ibtidai hərbi hazırlıq müəllimi müdavimlərin arzularını soruşurdu. Növbə Mehmana çatdı. Müəllim sual dolu nəzərləri ilə dolu bədənli, şux duruşlu, möhkəm idmançı görkəmli, nikbin əhval-ruhiyyəli Mehmanı süzdü. Mehman bunu hiss edərək dedi:

***-Müəllim, bilirəm, hansı sənət sahibi olacağımı soruşacaqsınız. Mən artıq qət etmişəm: ali hərbi təhsil almaq arzumdur. Vətənimizin bir qismi düşmən təcavüzü nəticəsində işğal edilib. İndi bilikli, bacarıqlı əsgər və zabitlərə ehtiyac çoxdur. Vətən torpağı bizdən kömək gözləyir...***

Qarabağa əl uzatsaq çatar. Lakin məkrli düşmən buna imkan vermir. Vətəndə vətənsiz yaşamaq bizə utanc gətirir. Vətən torpaqlarına həsrət qalmışıq. Düşməndən şəhər və qəsəbələrimizi, kəndlərimizi, ulu yurdun dağını, daşını, gülünü, çiçəyini biz almasaq, əsir məmləkəti yağıdan biz xilas etməsək bəs kim edəcək?

***- Sən haqlısan, Mehman. Mən də sənin yerində olsaydım belə deyərdim, Vətəni dar ayaqda saxlamaq olmaz...***

Mehmanın bu qısa, lakin alovlu nitqinə təkcə müəllim deyil, sinif yoldaşları da diqqətlə qulaq asdılar. Sanki, onların demək istədiyini Mehman dedi. Dedi və sözünə də əməl etdi...

Mehman Mirəziz oğlu Şirvanov 1998-ci ildə Bakıdakı Ali Hərbi Birləşmiş Komandirləri məktəbinə bu amalla daxil oldu. Oxuduğu illərdə onun bir çox xarakteri üzə çıxdı. Məktəb həyatı onun üçün bir sınaq dövrü oldu. O, hərb elminə sonsuz həvəsi, biliyi, nizam-intizamı, vətənsevərliliyi , torpaq və yurd sevgisi, sabaha inamı ilə hamıya örnək oldu. Vətən torpağını canından artıq sevmək, qorumaq, onu düşməndən azad etmək duyğusu ömrünün ən uca məqamı idi...

***Mehmanın on iki yaşı vardı...***

***Qarabağ söhbətləri, işğal dövrü başlayanda Mehman Şirvanovun cəmi 13 yaşı vardı. İndi isə ən uca şəhidlik məqamına çatanda 41 yaş içərisində idi. İlk günlərdə Qarabağ söz-söhbəti yarandı. Sonra savaş oldu, müharibə alovlandı, qan-qada, ölüm oldu. Sonra şəhidlik oldu, didərginlik həyatı başlandı, məcburi köçkünlərin məşəqqətli köçkünlük dövrü ürəklərdə qövr elədi...***

Mehman tağım komandiri kimi Milli Orduda xidmət etməyi başlandı. Sonra Naxçıvandakı "N" saylı hərbi hissədə xidmətini davam etdirdi. 2010-cu ildə Arzu xanımla ailə həyatı qurdu. Özünü xoşbəxt hiss etsə də, Qarabağ nisgili ona ürəkdən sevinməyə imkan vermirdi. Nədən söhbət düşsə də Qarabağ hadisələri, işğal edilmiş məmləkət üzərində dayanırdı. Məğlubiyyətin səbəbləri onu uzun-uzadı düşündürürdü, ancaq heç cür təsəlli tapmırdı...

Mehman Şirvanov 2005-ci ildən başlayaraq Ruminiyada və qardaş Türkiyədə ixtisasını artırdı və peşəkarlığını möhkəmləndirdi. 2016-cı ildə aprel döyüşlərinə qatıldı, torpaqlarımızın azad edilməsində misilsiz şücaət göstərdi. Biz daha yəqin etdi ki, Qarabağa dair beynəlxalq miqyasda qəbul edilmiş qətnamələr və qərarlar öz əhəmiyyətini itirib. Qarabağın xilası öz əlimizdədir.

### *Ancaq irəli!*

Mehman Şirvanovun xidmət etdiyi hərbi hissələr müxtəlif coğrafi ərazilərdə yerləşsə də, o, mühitə tez alışır, tabeliyindəki əsgər və zabitlərin əhval-rihiyyəsinə bələd olduğu qədər, onlar da komandirin hansı aura ilə nəfəs aldığını bilirdilər. Polad iradəli, dönməz xarakterli zabit peşəkarlığı, məharəti, həmişə hərbi biliyini, döyüş qabiliyyətini, vətənə sədaqətlə xidmət etməsi ilə seçilir və bunu əsgərin müqəddəs vəzifəsi hesab edirdi. O özü isə bu vəzifəni zabit şərəfi ilə yerinə yetirirdi. Qarabağ torpağının yağı tapdağı altında qalması, məkrli və hiyləgər düşmənin atəşkəsi tez-tez pozması hərbi hissələrimizi, əsgərlərimizi, sərhədyanı bölgələrdə yaşayan dinc sakinləri hədəfə alması, qətllər törətməsi onu rahat buraxmırdı, onun əsəblərini tarıma çəkir, düşmənə nifrəti artırdı. Lakin o cəsur əsgərlərimizin hünərinə və qeyrətinə, cəsarətinə inanırdı. İnanırdı ki, bir vaxt gələcək düşmən etdiklərinə görə cavab verməli olacaq... O zaman Mehman bir komandir kimi tabeçiliyindəki əsgərlərə əmr edəcək.



***- Düşmənin hədəflərinə doğru atəş! Ancaq irəli!***

### *Bəli, o gün gəlib çatdı*

Azərbaycan - Ermənistan dövlət sərhədində 2020-ci il iyul ayının 12-də Tovuz rayonu istiqamətində yaşayış məntəqələri artilleriya atəşinə tutuldu. Nəticədə azərbaycanlı hərbçilər və mülki şəxslər həlak oldu və yaralandı. Bütün bunlar beynəlxalq humanitar hüququn ciddi pozulması deməkdir və hərbi cinayət kimi qiymətləndirilir.

***Ermənistanın işğalçı ordusu növbəti dəfə qəflətən xaincəsinə 27 sentyabr 2020-ci il tarixdə sübh tezdən dinc yaşayış məntəqələrimizə hücum etdi. Bu, Ermənistan rəhbərliyinin faşist ideologiyası ilə silahlanaraq azərbaycanlılara qarşı nifrət zəminində qırğınlar törətmək, yeni ərazilər işğal etmək planı ilə hərəkət etdiyini göstərir. Lakin Azərbaycan Ordusu işğal altındakı kəndlərimizi, strateji yüksəklikləri işğaldan azad edərək irəliləyir, düşmən qüvvələrinə sarsıdıcı zərbələr endirir.***

Ali Baş Komandan, Ordu, Dövlət, Xalq birliyi bizi qələbəyə aparan zaman tabor komandiri polkovnik -leytenant Mehman Şirvanov sakit qala bilərdimi?! Əsla yox! Onun rəhbərlik etdiyi taborun döyüşçüləri düşmənə qarşı vuruşmada əsl qəhrəmanlıq göstərirdi. Qəhrəman əsgər və zabitlər Azadlıq gününü çoxdan gözləyirdilər. Mehmanın və tabeliyindəki cəsur döyüşçülər hünər, mərdlik, qeyrət və rəşadət nümunəsi göstərir, düşmənə layiq olduqları zərbəni endirirdilər. O, Murovda strateji yüksəkliklərin alınması zamanı döyüşlərdə qəhrəmanlıqla şəhid oldu. Şəhid oldu ki, Vətən azad olsun, azad yaşasın...

***Azərbaycan əsgəri ATƏT-in 27 il ərzində etmədiyini Azərbaycan əsgəri bir neçə saatda etdi. Biz nəhayət başa düşdük ki, qələbə qazanmaq şansı öz əlimizdədir, növbə bizimdir.***

### *O tək məzar nə deyir?*

... Mehman avqust ayının 27-də Lənkərana - atasıyla, bacı-qardaşları, ailəsiylə, qızı Nurayla görüşməyə gəlmişdi. Sanki ürəyinə dammışdı. Bu son vida görüşü oldu. Mehman qohum-əqrəba ilə də görüşüb hal-əhval tutdu. Əmisi, təcrübəli hüquqşünas Əmrulla Şirvanovdan Mehman barədə qiymətli sözlər öyrəndik. Atası Mirəziz kişi ilə Ürgədəki qəbiristanlıqda uyuyan anasının və yaxınlarının məzarlarını ziyarət etdi. Birdən o, atası Mirəzizdən soruşdu:

***-Ata, baxıram dünyasını dəyişənlər bir yerdə torpağa basdırılıb. Bəs şəhidlər olsa harada dəfn olunar?***

***- Oğul, nə deyim, belədir də.***

***-Ata, gərək şəhidlər ayrıca bir yerdə, sıra ilə dəfn olunsan. Axı, onlar təkcə bir ailəyə yox, xalqa məxsusdur. Vətən uğrunda şəhid olanların ehtiramını saxlamaq hər kəsin borcudur.***

Sonra Mehman yanındakılara məscidin həyətindəki yeri göstərərək dedi:

***- Bax, bura şəhidlər üçün yaxşı yerdir. Adamlar bilikdə şəhid məzarını ziyarət edərlər. Həm də bu savab iş olar...***

Söhbət beləcə bitdi.

İndi Mehmanın məzarı onun dediyi yerdə, məscidin həyətindədir. Burada torpağa Mehman oldu... Məzarını gül çələngləri, qərənfillər bəzədi.

### *Bu son söz deyil*

Bəli, Azərbaycanın əsgəri bu gün babalarımızın şanlı döyüş əzmini artırır, qələbə ruhunu təzələyir.

Damarlarında qan əvəzinə qeyrət, mərdlik və cəsarət axan əsgərlərimiz düşmənin başına şimşək tək çaxır, başına od ələyir, onu qaçmağa məcbur edir. Biz bu əsgərlərin cərgəsində xalqımızın şəhid oğlu Mehman Şirvanovu görürük. Mehman 41 yaşında şəhidlik zirvəsinə ucaldı. Hayıf ki, ömrü yarıda qaldı. Lakin Mehmanın məzarı üzərindəki üçrəngli bayrağınız qələbənin işığında əzəmətlə dalğalanır...

***P.S.* Mehman Şirvanov azad olunmuş Qarabağı görməsə də o, bu məmləkətin azadlığı, Azərbaycanmın bötüvlüyü uğrunda canından keçdi. Vətən müharibəsində əsgərlərlə bərabər, zabitlər də döyüşürdü. Mehmanın qəhrəmanlığı, rəşadəti, cəsurluğu, peşəkarlığı ona solmaz şöhrət gətirdi. O, Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamı ilə "Qarabağ uğrunda" ordeni, "Vətən müharibəsi" medalı ilə təltif edildi. Müharibədən əvvəl Mehman 4 medalla təltif olunmuşdu. Halal olsun.**

**İdris Şükürlü,**
**Əməkdar jurnalist**

# "Sağ qalan əsgər canlı Şəhiddir!"

***Həmsöhbətimiz gənc yazar, Vətən müharibəsi iştirakçısı Alpraslan Oğuzdur.***

### *Aprel döyüşləri sinəmdə yara kimi qalmışdı*

**-Alparslan, müharibədə iştirak edən azsaylı qələm adamlarındansan. Müharibəyə yollanmağın necə baş verdi?**

- Məni hər kəs şair,aktyor kimi tanısa da mən eyni zamanda ev təmiri və tikintisi ilə məşğul oluram. Necə deyərlər, çörəyimiz daşdan çıxır. Bir zabit dostumun evini təmir edirdim,evinin materialını yenicə almışdıq. İkicə gün idi ki, işə başlamışdım.

Dostum mənə zəng vurdu ki , xəbərin varmı, səfərbərlik elan olundu və biz yola çıxırıq. Ev sənə əmanət deyib-sağollaşdı. Lakin mən yerimdə dayana bilmədim. Aprel döyüşləri sinəmdə yara kimi qalmışdı. Tovuz hadisələri,General Polad Həşimov! İçimdəki Alparslan məni rahat buraxmırdı. Xülasə, dözə bilmədim, təmir etdiyim evin qapısını bağladım və açarı aparıb dostumun ailəsinə təhvil verdim. Və yollandım Cəlilabad Rayon Hərbi Komissarlığına.

Komissarlığın qarşısındakı izdihamı görəndə isə bir başqa qürur hissi yaşadım.

Komissarlıqda mikrafonla toplanan cavanlara səslənən zabitə yaxınlaşıb mikrofonu əlindən aldım, əsgər analarına səsləndim ,sabahın əsgərlərinə səsləndim.Narahat analara Zəfərlə qayıdacağımıza söz verdikdən sonra öz qələmimin incisi olan "Türkəm Mən" şeirini səsləndirdim və gedib cəbhəyə yollanan avtobusa əyləşdim.Saatlar sonra artıq hərbi hissədə idim.

**-Döyüş yolun haralardan keçdi?**

-Döyüş yolumuz Fizulidən başladı, Zəngilan, Cəbrayıl ,Qubadlı...Bu rayonları azad edəndən sonra isə növbəti tapşırıqlarımız Daşaltı,Tuğ ,Qırmızıbazar,Taqavar və s . Qeyd edim ki bu ərazilərin çox məntəqələrinin adını bilmirəm lakin hamısı Şuşa və Xocavənd əraziləri idi.

**-Yəqin ki, çətin anlar oldu döyüş tapşırıqlarını yerinə yetirərkən...**

-Əlbəttə, çətin oldu.Lakin nə qədər çətin olsa da, bir o qədər də şərəfli və məsuliyyətli idi.Axı, biz 30 illik sinə dağımız olan Qarabağın azadlığı uğrunda döyüşürdük. Axı, bu möhtəşəm və Qutlu vəzifə hər adama da qismət olmur.

Mühasirəyə düşdüyümüz anlar da oldu, susuz,ac qaldığımız zamanlar da oldu.Lakin bizim bir amalımız var idi və biz müsəlləh əsgər olaraq bu amalın ardınca şəhid də olsaq,qazi də olsaq getməli idik və getdik.

Mövzu bəhsi Qarabağdırsa bütün çətinliklərə sinə gəlmək həm namus, həm vicdan, həm də vətən borcumuzdur.

**-Səninlə bir yerdə xidmət edən döyüş yoldaşlarını itirmək, şəhadətinə şahidlik etmək...**

-Bu sözlə izah edilə bilməyəcək qədər ağrılı bir hadisədir.Bəzən elə anlar olur ki, qardaşın,yoldaşın qollarının arasında can verir,sənsə nə qədər də çalışsan ona həyat verə bilmirsən,onu əlindən tutub yanımda qal ,getmə deyə bilmirsən.

Əllərini nə qədər bərk-bərk tutsan da mümkün olmur və o şəhadətə yetişərək şəhidlik zirvəsinə ucalır. Onların içində evin tək oğlu,nişanlı olanı,ailəsi, övladı olanı, sevdiyi qızın şəklini sinəsində gəzdirənləri olur. Təsəvvür edin ki , dəqiqələr və ya saatlar öncə mülki həyata qayıtdıqdan sonrakı planlarını sənə danışır və bunları sənə danışarkən gözlərində bir işıq ümid və təsəlli görürsən . Lakin o ümidlər bir neçə saat sonra o əsgərin gözündə sönür,əbədi olaraq onunla birlikdə qara torpaq olur.Lakin onların cismi torpağa gömülsə də ruhu xatirələri sağ qalan döyüş yoldaşlarının ürəyinə gömülür və bizlər,sağ qalanlar, şəhid qardaşlarımızın baş daşı olaraq yaşayırıq bu dünyada, ta ki, ümrümüz bitənə və torpağa qarışanadək. Necə deyərlər, sağ qalan əsgər canlı Şəhiddir!

### *Əsgəri xilas etsə də özünü xilas edə bilmədi*

**-Daha çətin durumlar da olur...**

-Əslində əvvəldən sona hər günümüz çətinlik və müəyyən öhdəliklə keçib. Lakin çətinin də çətini var deyirsinizsə, onda bir neçəsini sayım. Cəbrayıl rayonunu azad etmək üçün irəlilədiyimiz vaxtlarda gecədən sübh çağına qədər yol qət etdik,səhər saatlarında hava işıqlanana yaxın öz aramızda "Cəhənnəm dərəsi" adlandırdığımız çökəklikdə mövqe tutduq. Lakin erməni dığaları necə olubsa yerimizi təyin etmişdilər,yəqin ki bu dronla mümkün olmuşdu. O çökəklikdə 3-4 gün mühasirədə qaldıq. Aclıq ,susuzluq bir tərəfdən minamyot atəşi bir tərəfdən göz açmağa imkan vermirdi. Sonda qərara gəldik ki,bu mühasirəni yarmaqdan başqa yolumuz yoxdur. 3 ayrı 20 -20 qruplara bölündük, bir qrupun rəhbəri isə mən idim.

Yanımdakı zabit vəziyyətin pis olduğunu yaxşı bilirdi,ona görə də axırıncı dəfə yoldaşına zəng edib halallaşmaq üçün telefonla danışırdı.

Hiss etdim ki nəsə olacaq öhdəliyimdə olan əsgərlərə komanda verdim ki, çökəklikdə mövqe tutsunlar hər an minamyot ata bilərlər. Əsgərlər çökəkliyə doğru irəlilədi,bir neçə saniyə sonra böyük partlayış səsi eşidildi. Ayaqlarım yerdən üzüldü , olduğum yerdən biraz aralıya qayaya çırpılıb yerə düşmüşəm. Azsonra belimdəki şiddətli ağrını hiss etdim. Artıq özümə gəlirdim, səsləri eşidirdim, lakin beynimdə şiddətli uğultu var idi. Düşündüm ki, beldən aşağı hissəm yəqin yoxdur. Yoxsa bu cür ağrı olmaz. Həmin an övladlarımı düşündüm ,bir neçə saniyə sonra ayaqlarımı tərpətməyə cəhd elədim. Baxdım ki , alınır,deməli ayaqlarım yerindədir. Başımı qaldırım, geriyə baxdım, gördüyüm mənzərə dəhşətli idi. Yanımda telefonla danışan zabit başından qəlpə yarası alaraq şəhadətə qovuşmuşdu. Təsəvvür edirsiniz? Telefonla danışdığı yerdə həm də.

Bundan sonra mühasirəni çətinliklə də olsa yara bildik, gecə saatlarında növbəti zirvəni də azad etdik.

Məni hospitala aparmaq üçün gələn maşından düşərək getməyəcəyimi dedi. Tabor komandiri nə qədər təkid etsə də hospitala getməkdən imtina etdim.

Lakin sən demə həqiqətən də hərənin bir yazısı varmış. Çünki həmin maşını bir neçə dəqiqə sonra düşmən vurdu.

Daha sonra Plandağ adlandırdığımız ərazidə ermənilərin qəfil hücumuna məruz qaldıq. Həmin vaxt başqa bir dəstə də



yaxınlıqda idi,onlar da başqa tərəfdən bizə kömək etməyə çalışırdı. Düşmən həmləsi nə qədər gözlənilməz olsa da niyyətləri baş tutmadı və biz onları geri çəkilməyə məcbur etdik. Həmin vaxt yenə minamyot atəşinin səsi və güclü partlayış səsi gəldi. Bu dəfə də bizə yardım üçün gələn dəstənin qərargah rəisi şəhadətə qovuşdu.

Ümumiyyətlə, müharibə itkisiz olmur, bu hamımıza məlumdur. İlk gündən son günə qədər çətinliklərlə mübarizə aparırsan, lakin çox uzatmayacam ən ağrılı günlərimizdən birini daha deyəcəm.

Qubadlı zirvələri uğrunda döyüş. Həmin gün biz çox şəhid verdik. Düzdür, erməni yenə məğlub oldu. Lakin ilk dəfə idi ki, o qədər şəhid verirdik. Səhər sübh 6 radələrində döyüş başladı ,Həbibi Füzulini, baş leytenant Bayramov Ramini, mayor Zeynalov Müseyibi,Babayev Cavadı,Hüseynli Şamili,Nadirli Kənan ,Səmədov Kamran , baş leytenant Emil Qurbanov, Əliyev Ramil,Sultanzadə Niyaməddin və başqaları şəhid oldu.

Artıq vaxt axşama doğru yaxınlaşırdı. Lakin döyüş artıq bizim xeyrimizə idi,düşmən çox sayda itki vermiş və postları qoyub qaçmağa başlamışdılar. Tabor komandirimiz polkovnik-leytenant Nail Orucov mənimlə çiyin-çiyinə döyüşürdü.

Birdən kürəyini ağaca dayaq edib aşağı çökdü. Kaskasını başından çıxarıb dərin bir nəfəs aldı. Sonra təsadüfən bir qurtum suyun olar dedi. Iakin heç nəyimiz yox idi, günlərdi zirvələrdə idik. Birdən yadıma düşdü ki,ağrı kəsici dərman qatdığım su var idi. Var ama dərmanlıdır- dedim. Lap yaxşı, ver-dedi. Həmin an meşə yanırdı deyə tüstüdən nəfəs almaq olmurdu. Ərazi cəhənnəmi xatırladırdı. Nail Orucov mövqe dəyişmək üçün komanda verdi. Biz minamyot atəşindən qoruna-qoruna mövqe dəyişərək irəliləməyə başladıq. Və yenə o səs! Minamyotun səsi qulaq dələcək qədər yaxın oldu. Tez fərqli mövqelərə atıldıq. Polkovnik Orucov yat deyə qışqırdı və özünü əsgərimizin üstünə ataraq onu itələdi. Lakin əsgəri xilas etsə də özünü xilas edə bilmədi. Nail Orucov da şəhid oldu. Həmin gün dəhşətli anlardan ibarət idi. Lakin biz yenə də Zəfər çalan tərəf olduq.

**-Hansı hadisə sənə görə yaddaşında silinməz izlər buraxıb?**

- Müharibənin özü zatən silinməz izlərdən ibarətdir.Şəhid qardaşlarım,yoldaşlarımı itirməyin özü ən dəri izlərdəndir. Lakin silinməz izlər onlardan qalan xatirələr və orada gələcək planlarını danışan əsgərlərin nəşini çiyinlərində ərazidən çıxarıb doğma ocağına rayonuna yola salmaq idi. Övladının sağ qayıtması üçün dua edən valideynlərin şəhid olmuş oğlunu qarşılayacağını düşünəndə bədənimdən üşütmə keçirdi.

**-Mülki həyata öyrəşə bilirsənmi?**

-Düzün desəm öyrəşə bilmirəm. Gecələri yata bilmirəm. Səhərə yaxın mürgüləyirəm, onda da müharibə yenidən başlayır. Yoldaşların yenidən şəhid olur. Bəzən də tərin suyun içində diksinərək ayılırsan.

**- AYB üzvüsən. Necə münasibət oldu sənə. Ümumiyyətlə, AYB-dən kimlər müharibə iştirakçısı olub?**

-AYB rəhbərliyindən Rəşad Məcid sağ olsun, gələn gündən tez-tez əhval tutur, əlaqə saxlayır. Yəqin ki ,nəsə planları var və bunu hələ də sürpriz olaraq saxlayır. Əminəm ki ,bir yazıçı olaraq AYB-nin üzvü olaraq cəbhədə olmağım Vətən müharibəsində döyüşməyim döyüşdə iştirak etməyim AYB üçün qürurverici haldır.

AYB üzvlərindən müharibədə iştirak edən məndən başqa bizim tanınan ,sevilən ,yazar-şairimiz ,dostum Emin Piri vardı. O da müharibənin ilk günlərində cəbhəyə yollanmış və müharibənin sonuna qədər döyüşmüşdü. Şükür ki, sağ salamat evinə döndü.

**-Səni "Gənc Ədiblər Məktəbi" dövrü Ruslan Nadir kimi tanıyırdıq. Ruslan Nadiri Alparslan Oğuza çevirən nə oldu?**

-Ruslan elə Alparslan sözündən götürülüb. Dayım, xalq artisti Nurəddin Mehdixanlı da tez-tez mənə Alparslan deyə sələnirdi.

Düzü, xoşuma gəlirdi. Madəm ki,Ruslan əslində Alparslan deməkdir ,kökü və özü Alparslandır, niyə özümə dönməyim deyə düşündüm.Sənədlərimi aidiyyatı orqanlara göndərərək Alparslan adını götürdüm. Soyadıma gəldikdə isə ,biz özümüz olmaq üçün kökümüzü tanımalıyıq,özümüzü tanımalıyıq. Özümüz də, kökümüz də Oğuz Türküdür. O zaman Soy adım Oğuz olsun-dedim. Beləcə, Oğuz Alparslan doğuldu.

**-Müharibədən sonra gələcək həyatın haqqında nələr düşünürsən?**

-Keçmişi olmayanın gələcəyi olmaz. Elə ona görə də keçmişdən qalan sınıq , sökükləri təmir edib gələcəyə ümidlə addımlamağa qərarlıyam. Əvvəllər qələmlə şeir ,roman yazardım. Müharibə isə bizə silahla tarix yazdırdı. İndi o qələm yenidən silahla yazdığımız tarixi yazacaq. Vətənə layiq ola bildimsə, nə xoş mənə.

Gələcəyə ümidlə və inamla addımlamağa davam.

**Söhbətləşdi:**
**Emin Piri**

# "Şuşam mənim"



*Zemfira Məhərrəmli*
*yazıçı-publisist*

**Rəsul Rza deyəndə, ilk növbədə, Azərbaycanın Xalq şairi, dramaturq, tərcüməçi, publisist, eyni zamanda Əməkdar incəsənət xadimi, Sosialist Əməyi Qəhrəmanı kimi fəxri adlara layiq görülmüş bir şəxsiyyət göz önünə gəlir. Müqtədir şairimiz öz həyatı, taleyi ilə müdriklik timsalı, ziyalılıq nümunəsi idi. Ədəbiyyat tariximizdə öncül yerlərdən birini tutan görkəmli söz ustası yüksək sənətkarlıqla qələmə aldığı dərin fəlsəfi məzmunlu əsərləri ilə sevilir, pərəstişkarlarını sevindirirdi. Söz sərrafı sağlığında da, indi də bənzərsiz şeirləri, incitək misraları, ovxarlı poetik deyimləri ilə ruhumuzu təzələyir, titrədir, ürəyimizdə bahar yelləri əsir. Xüsusən də şairin Vətən şeirlərini oxuyanda bu hisslər qəlbimizə hakim kəsilir.**

Yurdsevərlik, Vətən təəssübkeşliyi, bəşəri hisslərlə yaşamaq - şairin həyat və yaradıcılıq kredosu idi. "Məni yatmağa qoymur dünyanın dərdi, torpağın ağrısı" deyirdi Rəsul Rza. O, şeirlərindən birində dərd-qəmdən uzaq, hərb qovğalarından azad, əlvan çiçəkli, bağ-bağatlı dünya arzulayırdı:

***Mən nə istəyirəm?***
***Bahar uzansın ilboyu.***
***Çəmən-çəmən,***
***oylaq-oylaq,***
***Gül gülü çağırsın,***
***çiçək-çiçəyi.***

Vətən şairin qibləgahı, nəfəs aldığı hava, doğma yurda, torpağa, ocağa-ulusa olan sevgisidir. Bütün yaradıcılığı boyu bitib-tükənməyən sevgisi. Onun yurd sevdalı şeirlərini oxuduqca insanın yaşamaq, yaratamaq eşqi artır, Vətənə, körpə anasına sarılan kimi, vurğun bir ürəklə bağlanırsan. Bu şeirlər məmləkətinin hər qarışına, cığırına, daşına-kəsəyinə, dərəsinə-təpəsinə, gülünə-çiçəyinə heyran olan şairin kövrək duyğularını əks etdirən nəzm nümunələridir.

"Şuşam mənim" şeiri bu baxımdan daha çox diqqəti çəkir. Oxuduğunuz yazıda fikir, məna tutumu, həm də şeiriyyəti ilə fərqli həmin əsərdən söz açacağam. Hələ 1980-ci ilin avqustunda qələmə aldığı bu şeirində müəllif füsunkar Qarabağımızın tacı olan Şuşanın timsalında Vətəni vəsf edirdi. Qədim Azərbaycan şəhəri Şuşanın təkcə gözəlliklər məskəni deyil, həm də mərdlik, yenilməzlik, dönməzlik rəmzi olduğunu söyləyən müəllif bu yurd yerimizi qəhrəmanlıq nağıllarından gəlmiş, qolu bükülməyən, kürəyi yerə dəyməyən, qamətini daim şax saxlayan pəhləvana bənzədirdi:

***Sinəsi qabarıq,***
***nağıllardan gəlmiş***
***pəhləvandır***
***Şuşam mənim;***
***Mərdliklə, gözəlliklə***
***qoşam mənim...***
***Səndə Cabbarın, Seyidin,***
***Nəvvabın, Üzeyirin, Bülbülün,***
***neçə-neçə nəğməkarın,***
***qoç igidin***
***nəğməsi var,***
***nərəsi var.***

Şair "dünənində qəhrəmanlıq zirvəsinə ucalan" Vətən timsallı Qarabağ torpağının bizim üçün müqəddəs olduğunu, bu ecazkar torpağın qoynunda neçə-neçə ünlü sənətkarın, elm və ədəbiyyat adamının yetişdiyini, Şuşanın zəngin mədəniyyətimizin ayrılmaz bir parçası olduğunu yada salır, bu məkanı həm də incəliyin, zərifliyin rəmzi kimi səciyyələndirir:

***Hər qarışın şair qızın***
***Natəvandan xəbər verir.***
***Sən nəğmələr beşiyisən,***
***sən muğamlar keşiyisən.***

Yaxud:

***Səni bircə dəfə görən,***
***bir könüldən, min könülə***
***sənə aşiq, bənd olmuşdur,***
***Qarabağın yaraşığı!***
***Sənə saysız nəğmə qoşub***
***neçə-neçə el ozanı,***
***el aşığı.***

R.Rza Qarabağın "allı-güllü, əlvan-əlvan, çiçək xallı yaylaqlarını", "sərt qayalı sinəsində köhlənlərin qaynar, iti nal imzası qalan" Cıdır düzünü, "sərin mehli Kirs dağını", "şair qızın bulağını", "maral, cüyür ürküşən oylaqlarını" könül dolusu tərənnüm edir:



***Tarixinlə öyünürəm.***
***Bu gününlə sevinirəm...***
***Yorulmaram,***
***gəlhagəlli, incə telli***
***büsatından yüz gün deyəm.***
***Şuşam mənim!***
***Mətanətlə, dəyanətlə***
***səxavətlə qoşam mənim!***

Qoç igidlərin nərəsi eşidilən bu torpaqda ərənlər yay çəkib, ox atıblar, qarı düşmənin bağrını dəliblər. Yağılara göz açmağa, doğma yurdu qəsb etməyə imkan verməyiblər. "Sənin doğma torpağında neçələrin gözü qalıb" deyən şair heyrət doğuracaq bir uzaqgörənliklə bu fikirləri dilə gətirir:

***Vətən adlı doğma yurddan***
***püşk olarmı?!***
***Pay olarmı?! -***

suallarıyla həmvətənlərinə bir mühüm xatırlatma ünvanlayır. "Tarixdə baş əyməmisən bir fatehə, müxənnətə" deyən şair uzun illərdən bəri zəngin sərvətləri göz çıxaran Azərbaycan adlı məmləkətin düşmənlərinin bu gün də marığa yatıb, pusquda durduğunu vurğulayır. Şair sətiraltı fikirlərlə, qibtə ediləsi bir fəhm, həssaslıqla hər birimizi ayıq-sayıq olmağa, Qarabağ torpağını daim düşməndən qorumağa səsləyir:

***Bəd əməllərin kükrətdiyi***
***alovlardan diri çıxdın...***
***Tarixindən səhifədir***
***hər enişin,***
***hər yoxuşun!***
***Torpağın da,***
***ləçək-ləçək çiçəyin də,***
***pıçıl-pıçıl yarpağın da***
***xəbər verir***
***ibrət dərsi bu olmuşu.***

"Tarix sənin torpağında, daşındadır, hər dolayın, hər cığırın Azərbaycan - Vətən dadır" deyən şair bu şah misralardakı tövsiyələrində soydaşlarımızı mübariz olmağa çağırır.

Bütün yaradıcılığı boyu özünün "Mübarizə bu gün də var, yarın da" missiyasına sadiq qalan R.Rza yurddaşlarına Vətənin qədrini bilməyi, namərdlərə, naxələflərə qarşı amansız olmağı tövsiyə edir:

***Dost gözüylə sənə baxan***
***hər kəs əziz qonağındır.***
***Sənə əyri baxanları***
***qəzəbinlə külə döndər,***
***yaxıb-yandır.***

Vətəndaş şairin bir az sonra ? bu şeirin yazılmasından səkkiz il ötmüş baş verəcək ağrılı, qan-qadalı hadisələri öncədən görməsi, intuisiyası, doğrudan da, dedikcə maraqlıdır və bu barədə düşünməyə dəyər.

Erməni millətçilərinin hələ 1988-ci ildən başlayan "Qarabağ merna" ("Qarabağ bizimdir") çağırışları, Topxana meşəsinin talan edilməsi, sərhədyanı kəndlərdə yaşayan azərbaycanlı əhaliyə qarşı qətliamların, soyqırımı və terror aktlarının törədilməsi, daha sonra zorla cəlb edildiyimiz I Qarabağ müharibəsi, alovlanan hərb qovğası... Qarabağın və ətraf yeddi rayonun işğal olunması, bir milyon soydaşımızın öz əzəli torpaqlarında qaçqına və məcburi köçkünə çevrilməsi... Bütün bunlar yaşadığımız, üz-üzə, göz-gözə qaldığımız və çox uzun bir dövr ? 30 ilədək sürən acı gerçəklik, həyat həqiqətləri idi. 1981-ci ilin aprelində dünyasını dəyişən müdrik insan, Xalq şairimiz Rəsul Rza bu dəhşətli olayları, faciələri görməsə də, əvvəlcədən sövqi-təbii duymuş və həyəcan təbili çalmışdı.

Geniş diapazona malik yaradıcılığı ilə fərqlənən şairin əsərlərində acılı-şirinli reallığa dərin fəlsəfi yanaşma, həyatın dərin qatlarına enməklə bədii idrakın əks etdirilməsi səciyyəvi məziyyətlərdir. Açdığı özünəməxsus cığırla-yolla, poeziyamıza gətirdiyi töhfələrlə geniş ədəbi nəhrə qovuşan novator R.Rzanın çoxşaxəli yaradıcılığında fikir, mövzu dairəsi daim yeniləşmiş, forma və məzmun axtarışları genişlənmişdi. O, ictimai-siyasi səciyyəli, həm də mübariz ruhlu əsərlər yazmaqla bədii fikrimizdə bir təlatüm yaratmışdı.

Türk dünyasının azman şairi, ədəbiyyatımızı, poeziyamızı çox sevən və dəyərləndirən Nazim Hikmət yurdumuzun söz sərrafı barədə bir zamanlar yazmışdı: "Rəsul Rza təzə bir şey yaradıb. Bu, poeziyada tamamilə özünəməxsus bir yoldur".

Xalq şairi Ramiz Rövşən isə "Poeziyamızda intibahın beşiyi başında duran şair Rəsul Rza oldu" deyir.

Azərbaycan ədəbiyyatı və mənəviyyatı tarixində R.Rza fenomeni mövcuddur və bu, danılmaz bir gerçəklikdir. Sevimli, unudulmaz şairimizin həmişəyaşar poe**ziyasına maraq və heyranlıq bu gün də azalmayıb.**

# O dağlarda qalan ürək nə deyir?..

**Neçə illər əvvəl bir şeirlər kitabı oxumuşdum - Sabir Qaraqoyunlunun "Ürək qopub o dağlarda qalıbdır" kitabı könlümü telləndirmişdi; şeirlər ruhuma o qədər yaxınıydı ki, oxuduqca şairlə kəlmələşdiyimi güman edirdim. Həm də şeirdə təsvir edilənlərin mənim Faxralımın təbiətinə uyğunluğu da vardı axı. Doğmalığa həsrətin bu səviyyədə kövrəkliklə, bu səviyyədə duyğusallıqla ifadəsinə söz heyrəti, sözün yaratdığı heyrət demişdim. Bu heyrət şairin ümumiləşdirdiyi heyrətdi elindən-obasından iraq (aralı) düşənlərin hamısına doğma heyrətiydi. Bu heyrət həmişə bu urvatda yaşadılacaq.**

Bilmirəm, hansı duyuma görəsə qopub o dağlarda qalan ürəyin pıçıltıları bildiyim şeirləri bir də oxudum. Söz heyrəti, sözün yaratdığı heyrət ürəyimi şeiriyyətlə silələdi...

## *Adının söykəndiyi elə-obaya*

***başucalığı gətirəcəyinə əminsənsə, o adı adına söykənəcək, mətəris eləyə bilərsən. Qaraqoyunlu adının salğarı, min illərin yaddaşında yaşayan (və yaşadılan!) qüdrəti şair Sabir Əfəndiyev halallıqla yaraşır. Qaraqoyunlunu adına ad ortağı etmək Sabir müəllimə ana südü kimi halaldı... Müəllim kimi ömrünün ziyası ömürlərə paylanıb, nəşriyyatda neçə-neçə kitabın redaktə yükünü çəkib, duyumu düşüncələri, söz yaradıcılığı da bəlli Qaraqoyunlu elindən rişələnib. Sabir Qaraqoyunlunun bədii təfəkkürünün sözün ülgüsünə tən gəldiyini misralar, bütövlükdə şeirlər deyir. Şairin qoşmaları klassik qoşmalar qədərincə doğmadı. Xalqın tarixi var bu qoşmalarda, adət-ənənələri var, yaşam fəlsəfəsi var.***

Dağ ifadəsinin bir yozumu da Aran Borçalıda da, Dağ Borçalıda da yaylaqdı (Qaraqoyunluda da belədi, Faxralıda da). El yayda dağa - yaylağa gedərdi (el arasında buna yaylağa çıxma da deyirlər), payız gəlincə arana dönərdi. Bu prosesi Sabir Qaraqoyunlu duyumlu şair olaraq "Dağlar" şeirində belə təqdim edir:

***Arandan yaylağa köçməsə ellər,***
***Qəribsər torpağı, daşı dağların.***

Ruhuna, məfkurəsinə görə bu şeir xalqın min-min illik tarixinin xəbərdarlığı kimi oxunur, dərk edilir. Neçə illərdi "qartalları qıy vurmayan, kəklikləri perikən dağların gözlərinin yaşı qurumur", - şairin qənaəti belədi. Bu qənaətdə incə bir gizilti də duyulur.



"Ürək qopub o dağlarda qalıbdır" şeiri həsrətin, nisgilin, qəhərin şeiridi. Sabir Qaraqoyunlu erməniliyin nəticəsi olan düşmənçiliyin gətirdiyi həm fiziki, həm də mənəvi sıxıntıları ümumiləşdirir, "öz yeri olan hər daşın", Nuncuqlunun da, Taxtalının da, Əmirvarın da, Qırxbulağın da, ... , baldırğanın da, yemliyin də, kəkotunun da, yarpızın da, ... həsrətində doğma yurd, doğma ocaq həsrəti var.

Bizim Qaraxaç (əslində, Qara, böyük arxac) yaylağımızla Oy(v)çuoğlunun arası bir mənzillik yoldu. Qaraxaçda da lilparsız bulaq görməzsən.

Dünyanın heç yerində Dəvə qoruğunda bitən güllərə rast gəlməzsən. Sabir Qaraqoyunlu etnoqraf-şair olaraq el-obasının təbiətini təsvirə çəkəndə də - şeirləşdirəndə də xəlqi-milli ruha sədaqətli qalır:

***Yamacı meşəlik, yanı çəmənlik,***
***Axzarı lilparlı göy bulaqların***
***Hər zaman yanında görünər şənlik,***
***Qurular başında toy bulaqların.***

## *Qoşmada "toy" ifadəsi*

həm də qədim (orta əsrlər) türk dilində işlək olan bir fikri ifadə edir - yığıncaq, toplantı. Yəni, elin ən duyğusal məkanı bulaq başıdı (oğuzlarda su duruluq rəmzi olub. Şair Sabir Qaraqoyunlunun "Qaraqoyunlu ləhcəsi "Dədə Qorqud" ləhcəsidir" kitabı belə inancların elmi təhlili kitabıdır).

Vətənə xitabən

***Kimsənin önündə diz çökməmişəm,***
***Hər gün ibadətim, amalım Sənsən -***

deyən Sabir Qaraqoyunlunun "Dağlar"ı fikir yükü ilə səciyyəvidir. Şair gözəlliyin özü adlandırdığı dağların "al-yaşıla çalanlarının" da vurğunudu, "sərçeşməlisinin də". Bu vurğunluq böyük sevgidi, bu böyük sevgi bəşəri sevgidi. Bəşəri sevgini ifadə edən şeirin bəşəri şeir olduğunu demək suç deyil...

Sabir Qaraqoyunlunun "Ocaq" şeiri şair kəlamı biçimində aqil kəlamlarıdı. Ocağı "nəsillərin ömür yolu kimi" təqdim edən şairə görə "ocaq hər kəsin gücüdür", ona görə "ocağı sönənin özü yanır". Ocaq el-oba deməkdi, ocaq ata yurdu deməkdi. Şair fikrini ərki çatanlara bir tövsiyə ilə tamamlayır:

***"Küldən təpə olmaz", deyib atalar,***
***Qoruyun ocağı külə dönməmiş.***

"Ocağı qoruyun" şair iltimasıdı, vətənsevər iltimasıdı, Vətəni qoruyun kimi səslənir, yəni "Ocaq" şeiri vətənsevərliyin poetik ifadəsidi...

Sabir Qaraqoyunlunun "Sevmişəm" şeirinə Azərbaycanı xəritə bütövlüyü sevməyin poetik düsturu deyə bilərik...

## *Qaraqoyunlu dərəsi*

zamanında Gəncə quberniyasının Qazax qəzasının tərkibində olub. Sonra Ermənistanın Krasnoselsk rayonuna daxil edilib. Yəni, oralar da Azərbaycan torpağıdı. 1988-ci ildə ermənilik tufanı "ruhu candan araladı" - azərbaycanlılar ata ocağından, doğma yurdundan qovuldu. "Ürək qopub o dağlarda qalıbdır" şeirlər kitabı bu qəvi həsrətin sızıltısının kitabıdı. Həsrət şair həsrətidi, sızıltı şair sızıltısıdı...

Sabir Qaraqoyunlunun şeirləri Vətənə, xalqa, ana dilinə sevginin poeziyasıdı:

***Mən bir dağam - yağışım var, selim var,***
***Çəmənim var, miməyim var, gülüm var.***
***Gözüm yoxdur dünya boyda dünyada,***
***Dünyadan da böyük obam, elim var.***

Səməd Vurğunun "Göylərə baş çəkir Göyəzən dağı" bənzətməsinin poetikası ilə Sabir Qaraqoyunlunun "obam, elim dünyadan böyükdür" bənzətməsi arasında ruhi bağlılıq, poetik varislik görünür...

...Şair Sabir Qaraqoyunlu həsrətini çəkdiyi, ürəyinin qopub qaldığı dağlara dönə bilmədi - son nəfəsi o dağlara sarılmadı. Ruhun şad olsun, şair qardaşım, Zəfəri yaşadın, ruhunun üzülmədiyi dağlara da güzarımız olacaq...

**O dağlarda qalan ürək deyir ki, "qalmaz belə, qalmaz dünya...". Ruhun şad olsun, şair qardaşım, Azərbaycan əsgəri nisgilinin birini bitirdi.....**

**Rəşid Faxralı**

# DUMAN ŞEHİNƏ BÜRÜNƏN ŞEİRLƏR



*VAQİF YUSİFLİ*

**Doxsanıncı illər poeziyamızda müxtəlif üslubi meyllərin yaranmasıyla diqqəti cəlb edirdi. "Doxsanıncılar" XX əsr Azərbaycan ədəbiyyatının sonuncu nəsli heç şübhəsiz, əvvəlki ədəbi nəsillərin heç birinə bənzəməyən, amma eyni zamanda, onların yaratdığı yaşarı ənənələrə az-çox bağlı olan bir ədəbi nəsil kuimi xatımızdadır.Bənzərsizlik onda idi ki, onların şeirləri ənənəvi mövzulara təzə rəng qatırdı, deyək ki, həyat, sevgi, ayrılıq, təbiət, gözəllik haqqında tamam fərqli düşüncəni ortaya qoyurdular,.Ənənələrə bağlılıq isə məlum idi, yüz illərin hecasına, qoşma və gəraylısına =şeir texnologiyasına nə artıra bilərdilər ki?i Amma ənənəvi şeir formasında yazsalar da, bu ənənvilikdə qeyri-ənənəvi, ın, bir sözlə, bədii təsvir vasitələrinin bolluğu (həm də təzəliyi) onları fərqləndirirdi. Təbii ki, bu prosesdə itkilər də olurdu. Bəzən "söz oyununa" aludəçili, şeir-tapmaca, şeir-müəmma stilinə də uyurdular. İndi bu nəslin şairləri altmışı haqlamaqdadırlar ya da o yaş sərhəddini keçiblər və onların bir çoxui biri də Əlirza Həsrətdir. . Əlirza Həsrət Cəlilabadda yaşayır, məkan mənasında əyalətçidir, amma yaradıcılığı müasir ədəbi prosesin, bizim qaynar ədəbi həyatın içindədir.**

Onun təptəzə "Duman şehi" şeirlər, poemalar kitabı sayca səkkizincidir. Bir şairi tanımaq və onu "özününküləşdirmək" üçün səkkiz kitab yox, elə bir neçə şeiri də kifayət edər.

*Eşqin qəfəsinə saldım könlümü,*
*Dedilər bəxtəvər ahu saxlayır.*
*Bədənim dartınır ruhuma sarı,*
*Qanadsız quşların ahı saxlayır.*

*Boynuma düşmüşəm qanlı qılınc tək,*
*Gəl yon tabutumu çıxdığım qından.*
*Ayrılıq sevginin dar ağacıdır,*
*Çoxdan asılmışam ayrılığından.*

Bu şeir ayrılıq haqqındadır və Əlirza Həsrət ayrılığa metaforalarla təzə don bisir. Ayrılığın "ölüm həddini" "eşqin qəfəsi", "tabut", "qılınc", "dar ağacı" kimi sözlər, ifadələrlə nəzərə çarpdırır. "Ayrılıq sevginin dar ağacıdır"-səhv etmirəmsə bu bənzətmə ilk dəfə Əlirzanın şeirində işlənib, amma ondan sonra neçə o dövrkü cavan şairin şeirlərində buna rast gəlmişəm, amma Əlimrzanın şeirində olduğu kimi alınmayıb.

Əlirzanın kitabına ön söz yazan Bilal Alarlının bir fikri ilə tamamilə şərikəm: "Dağ, duman, y ol, həsrət, qürbət, Vətən sözlərinə Əlirzanın şekirlərində kəlməbaşı rast gəlmək mümkündür, amma bu qədər çox işlənən eyni sözlər bəzən müxtəlif mənalara gəlir, sətiraltı dona girir, üzdə görünən tərəfini alt qatı üstələyir"."Yol" şeirinə nəzər yetirin:

*Hey çıxır qarşıma köhnə tanış tək,*
*Sürünüb arxamca mənə çatan yol.*
*Ayaq izlərimdən ocaq qalayır,*
*Ən gözəl kəlməyə, sözə yatan yo*

*Əl verim, çək çıxart məni bu tərdən,*
*Sapçların üzümdə qoy olsun pərdən.*
*Unudub gedirəm özümü hərdən,*
*Ayaqlar altında soluür butam yol.*

*Üzü o yanadır, yoxsa bəridir?*
*Bu eşq ürəyimin yağın əridir*
*Gör hansı gözəlin kirpikləridir,*

Təəccüblənməyin, Əlirza Həsrət belə şairdir və onun təşbihləri, mktaforaları digər şeirlərində də az deyil. Bunları kimsə qəbul etməyə də bilər, amma mənim fikrimcə, bu şeirdə yol canlı bir varlıq kimi cisimləşdirilir, yəni insana məxsus xasiyyət və əlamətlər Yol obrazında maddiləşir. O, Yolun insanın arxasınca köhnə tanış kimi sürünməsi, ayaq izlərindən ocaq qalanması, kirpiklərin gözə uzanması və s. metaforalarla Yol obrazını yeni aspektdə təqdim edir. Başqa bir şeirində: "Hər yol axan quru sudu, Quru su eşq yuüxusudu, Dünya Əsli yazasıdı, Hər səhər odnan açılır". Əlirzanın "Hər yol axan



quru sudu" bənzətməsi göydən düşmür, şeirin ilk bəndlərində bu bənzətmə üçün "hazırlıq" görülür : "Gül şehə düşmüş pəridi, Hər şeh bir alın təridi, Hər gül eşq səhəridi, Hər gül bir bir adnan açılır". Əlirzanın bu tipli orijinal bənzətmələri az deyil.. "Dünüa Əsli yaxasıdı, Hər səhər odnan açılır"-bu bənzətmmənin yaratdığı görüntünü təsəvvür edin. Yaxud, elə həmsin şeirdə: "Dodağın lalə kimidi, Görən deyir, qan açılıb".

Əlirza Həsrətin təbiətlə "ünsiyyəti" də iki mənada diqqəti cəlb edir. Birincisi: o, "Yol" şeirində olduğu kimi ayrı-ayrı təbiət atributlarını cisimləşdirir.İkinci halda isə:təbiətə məxsus, amma bizə bəlli olmayan əlamətləri şeirə gətirir. Deyim ki, Əlirza dumandan, dağdan çox yazır. Dumana həsr etdiyi şeirlərində dumanlı ifadələr azdır, dağlara həsr olunan şeirlərdə də dağlara məxsus ucalıqlara, möhtəşəmliyə xələl gətirmir. Onun şeirlərində təbiətin gözəllikləri də, qəribliyi, tənhalığı da insan-təbiət, təbiət-insan vəhdətində reallaşır.

*Boyanıb eşq qanıfna,*
*Gələn də yox yanına.*
*Bu çiçəyin canına,-*
*Məlhəmdir duman şehi.*

*Dönüb qəfəs quşuna,-*
*Gələcəkdim qurşuna.*
*Günəş çəkdi başına*
*Ovcuma daman şehi.*

*Ahıma tut, yandır şam,*
*Bəlkə belə aldıq kam.*
*Bir də gözümü sıxsam,*
*Aparacaq qan şehi.*

Bəlkə də duman şehi və şehin yaratıdığı xoş mənzərə bir reyzaj şeirində daha maraqlı alınardı, amma bu şeirdə duman şehinin şairdə yaratdığı təsəvvür poetik məna kəsb edir. Şeirin üçücü bəndinə ehtiyac var idimi? Məncə, yox!

Çünki şeirin bütün bəndləri məntiqi şəkildə bir-birilə əlaqələnməlidir. İki bənd gözəldir, duman şehinin daha başqa gözəlliklərini əks etdirə bilərdi.

Yeri gəlmişkən qeyd edim ki, Əlirzanın bəzi şeirlərində bu bağlılığın pozulduğu hallara da rast gəlirik.

Azərbaycanda heç bir şair məmləkətimizdə baş verən ictimai-siyasi hadisələrə, bizi sarsıdan hadisələrə biganə qalmayıb. Yaxşımı, pismi hər şair öz ölkəsinin şairi olduğunu təsçdiq edib. Əlirza Həsrət də həmçinin.

*Bir ruhsuz bədəndi şəhidsiz torpaq,*
*Şəhidsiz torpaqdan olarmı vətən?*
*Hər şəhid bir ovuc vətən torpağı,*
*Düşmənin gözünə səpilir dən-dən.*

*Göy üzü hər aha qazılan qəbir,*
*Hər qəbir daşında bir şəhid adı.*
*Torpaq əvəzimnə hər qəbir üstə,*
*Çəkilib yaralı durna qanadı.*

Vətən haqqında da şablondan uzaq, təzəliyi ilə seçilən şeirlərinə rast gəlirik.Neçə il öncə yazmvşdı ki:

*Hüzün heykəlisən sən Qarabağa,*
*Söykən sinəmizə çəkilən dağa.*
*Haçandan başlayım qucaqlamağa-*
*Qalmasın o tayda paran, ay Vətən!*

Əlirza Həsrətin digər mövzularda gəlib çatın 58 58 yda bir şair kimi uğurloarından söz açmaq olar və "Duman şehi" yeni kitabında dvbu şeirlər az deyil. ANA haqqında: "Səni incidəndə dəcəl vaxtımda, Üstündə duanmış qarğışı, ana. Saçının qarını əritməz ah da, Kiçik çiləsiyəm bu qışın, ana". Ömrün sevgi anları haqqında: "Sənsaiz xatırlanacam saçını cüt hörəndə, Dağılmış sevdalardan həsrətin boy verəndə. Qəbrimi beşik bilib, yırğalayan görəndə,- Baş daşıma yavzıflan bir qərib ad olarsan"

Və ya: "Cənnət bağçasısan bu nişanda sən, Nəfəsin gül açıb, baxışın çiçək. Belə soyuq dəyər sənə, gözəlim, Sevən ürəyimi al, üstünə çək".Payız haqqında: "Köçür ürəyimə buü qərib payız, Ömrünü günlərin əlindən çəkir. Payız havasına uyan çiçəklər,

**Əlirza Həsrət 57 yaşın içindədir, artıq yetkin bir şair kimi formalaşıb. Amma yaradıcılıq, xüsusilə şeir aləmi həmişə axtarış sevir. Çox arzu edərdim ki, Əlirza Həsrət təkcə təşbih, metafora aşiqi olmasın, şeirlərində daha ciddi, bu günün daha mühüm mətləblərinə toxunsun ("O djağların dumanı"! və "Qərib beşiyi" poemalarında olduğu kimi) , bizə müasir Azərbaycan insanının real, inandırıcı, önəmli xarakterini təqdim etsin.**

**Səkkizinci kitabı haqda bu qədər.**

# Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi

№ 36 (2217) 6 aprel 2021-ci il

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

(əvvəli qəzetin 1 aprel sayında)

# MÜASİR AZƏRBAYCAN REALLIĞININ ŞƏKİ NÜMUNƏSİ

**2020-ci ilin yanvar-dekabr aylarında Şəki rayonunda əmtəə dövriyyəsinin ümumi həcmi 441240,2 min manat olmuşdur. Əvvəlki ilin müvafiq dövrünə nisbətən əmtəə dövriyyəsinin həcmi müqayisəli qiymətlərlə 1,9 faiz azalmışdır.**

Əmtəə dövriyyəsinin, yeni satılmış malların 9,9 faizi hüquqi səxslər, 90,1 faizi isə ticarətlə məşğul olan fərdi sahibkarlar tərəfindən realizə olunmuşdur.

2020-ci ilin yanvar-dekabr ayları ərzində orta hesabla rayonun ticarət obyektlərindən adambaşına 2279,2 manatlıq istehlak malları alınmışdır.

**Hazırda rayonda 23 sənaye müəssisəsi fəaliyyət göstərir ki, bunların da 9-u kiçik müəssisədir.**

2020-ci ilin yanvar-dekabr aylarında ilkin məlumatlara əsasən bütün maliyyə mənbələri hesabına iqtisadiyyatın inkişafına yönəldilən investisiyanın həcmi 154559,2 min manat olmuşdur ki, bu da əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 76,3 faiz təşkil edir. İstifadə edilmiş investisiyanın 137970,0 min manatı və ya 89,3 faizi dövlət mülkiyyətinin, 16589,2 min manatı və ya 10,7 faizi qeyri-dövlət mülkiyyətinin payına düşür. 2020-ci ilin yanvar-dekabr aylarında əsas kapitala yönəldilmiş investisiyanın 88,6 faizi və ya 136965,6 min manatı tikinti quraşdırma işlərinə sərf edilmişdir ki, bu da əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 76,2 faiz dəfə təşkil edir. 2020-ci ilin yanvar-dekabr aylarında Şəki rayonunda 277 yeni iş yerləri açılmışdır .Açılmış yeni iş yerlərindən 47 iş yeri yeni yaradılmış müəssisə və təşkilatlarda, 230 iş yeri isə mövcud müəssisə və təşkilatlardadır.

Hesabat dövründə yerli xərclərin icrası prosesində müdafiə olunan xərc maddələri ilk növbədə, digər xərc maddələri isə daxilolmaların səviyyəsindən asılı olaraq maliyyələşdirilmiş, sosial tədbirlərin vaxtında stabil olaraq maliyyələşdirilməsi təmin edilmiş, büdcə təşkilatlarından daxil olan xərc sifarişləri öz maliyyə təminatını tapmış, əmək haqqı, pensiya, təqaüd və digər sosial müavinətlər üzrə borc yaranmamış, satınalma prosedurlarının düzgün və vaxtında həyata keçirilməsinə ciddi surətdə əməl olunmuşdur.

2020-ci il ərzində 01.01.2021-ci il tarixə filalda 22527 nəfər əmək pensiyaçısına xidmət göstərilib. Onlardan 13391 nəfəri yaşa, 7471 nəfəri əlilliyə, 1665 nəfəri ailə başçısını itirməyə görə əmək pensiyası alanlardır.

***2020-ci il ərzində ƏƏSMN yanında DSMF-nin 15 saylı RƏF üzrə 2114 nəfərə yaşa görə sosial müavinət, 1176 nəfər uşağa isə sağlamlıq imkanları məhdud olduğuna görə, 535 nəfər I qrup ümumi xəstəlikdən əlilə 150 man, 1948 nəfər II qrup ümumi xəstəlikdən əlilə 130 mana, 1829 nəfər III qrup ümumi xəstəlikdən əlilə 110 man, ailə başçısını itirmiş 483 nəfər ailənin 792 uşağının hər birinə 80 man, 36 nəfər şəhid ailəsi üzvünə kommunal, nəqliyyat və digər xidmətlərin əvəzinə verilən sosial müavinət ödənilmişdir. 142 müharibə əlilinin 231 uşağının hər birinə 15 manat olmaqla, 3 nəfər valideyn himayəsindən məhrum olmuş uşaqların qəyyumlarının hər birinə 100 manat, 28 ailənin 1 yaşadək uşağı olduğu üçün hər ay 55 manat, 1509 nəfər işləməyən vətəndaşların yeni doğulmuş uşaqlarına 200 manat, cəzaçəkmədən azad edilmiş 44 nəfərin hər birinə 1000 manat, 82 nəfər vəfat etmiş sosial müavinət alanların ailə üzvlərinə 300 manat, Çernobil AES-lə əlaqədar əlil olmuş 66 nəfərin hər birinə müalicə üçün 237 manat birdəfəlik müavinət verilmişdir.***

"Əməkdar" fəxri ada görə 21 nəfərə hər ay 100 manat, 261 şəhid ailəsi üzvünə hər ay 300 manat, 1 nəfər Milli Qəhrəman ailəsinə 1500 manat, 20 Yanvar hadisələri ilə əlaqədar əlil olmuş 2 nəfərin hər birinə 230 manat, 209 nəfər Azərbaycan Respublikası Müdafiəsi zamanı əlil olan, 50 nəfər hərbi xidmət vəzifəsini yerinə yetirərkən əlil olan, Çernobil AES-də hərbi xidmətlə əlaqədar əlil olan 57 nəfərdən I qrup əlil olana hər ay 250 manat, II qrup əlil olana hər ay 230 manat, III qrup əlil olana 210 manat Prezident təqaüdü ödənilmişdir. I qrup əlilliyə görə sosial müavinət alan 613 nəfərin və əmək pensiyası alan I qrup 660 nəfər ümumilikdə 1273 nəfər I qrup əlilim hər birinə hər ay 100 manat Prezident təqaüdü təyin edilmişdir. I dərəcə əlilliyi olan şəxslərə qulluq edən 1242 nəfərin və 18 yaşa qədər sağlamlıq imkanları məhdud uşağa qulluq edən 1167 nəfərin hər birinə hər ay 50.00 manat və 951 nəfər müharibə veteranlarının hər birinə hər ay 80.0 manat Prezident təqaüdü təyin edilmişdir.





Aztəminatlı ailələrin Dövlət Sosial Müdafiəsinin təmini məqsədi ilə 05.02.2016-cı il tarixli Nazirlər Kabinetinin 37 nömrəli Qərarı ilə təsdiq edilmiş "Ünvanlı Dövlət Sosial Yardımının alınması üçün müraciət edilməsi, onun təyin olunması, verilməsi və verilməsindən imtina edilməsi Qaydaları"na müvafiq vətəndaşların maarifləndirilməsi işləri şöbədə təşkil olunmuşdur.

***2020-ci ildə Şəki rayonu üzrə Ərazi Məşğulluq proqramında 2200 nəfərin Məşğulluq Mərkəzinə müraciət edəcəyi, Mərkəzdə qeydiyyatda olan işaxtaran və işsiz vətəndaşlardan 1100 nəfərinin daimi işlə təmin ediləcəyi, 40 nəfər işaxtaran vətəndaşa işsizlik sığortası təyin edilməsi proqnozlaşdırılmışdır.***

12 saylı Ərazi Məşğulluq Mərkəzi filialına 2020-ci il ərzində 44598 nəfər işaxtaran vətəndaş müraciət etmiş, onların 23635 nəfəri qadınlar, 873 nəfəri sərbəstləşənlərdir. Müraciət edənlərdən 16169 nəfəri gənc, 256 nəfəri məcburi köçkünlər olmuşdur.

2020-ci il ərzində filial tərəfindən Şəki rayonu üzrə 7 nəfərə işsizlikdən sığorta ödənişi təyin edilmişdir.

***Şəki şəhərində 25 fevral 2020-ci il tarixdə aktiv məşğulluq tədbiri olan "Əmək Yarmarkası" keçirilmişdir. Yarmarkaya 24 müəssisə və təşkilatdan 171 boş (vakant) iş yeri təqdim olunmuşdur. 24 boş (vakant) iş yeri təqdim edən müəssisədən 11 dövlət, 4 qeyri-dövlət təşkilatı olmuşdur. O cümlədən 16 dövlət müəssisəsindən 144 boş (vakant) iş yeri, 6 qeyri-dövlət müəssisəsindən 24 boş (vakant) iş yeri, 2 fiziki şəxs tərəfindən 3 boş (vakant) iş yeri təqdim olunmuşdur. Yarmarkaya təqdim olunan boş (vakant) iş yerlərindən 126 fəhlə yeri, 44 qulluqçu yerləri, 1 xidmət yeri olmuşdur. Yarmarkaya çıxarılmış boş (vakant) iş yerlərində minimum əmək haqqı 250.00 manat, maksimum əmək haqqı 800.00 manat olmuşdur. Yarmarkada 118 nəfər işlə təmin olunmuşdur.***

2020-ci il üçün Ərazi Məşğuluq Proqramında mərkəzdə qeydiyyatda olan işsiz və işaxtaran vətəndaşlardan 30 nəfərinin peşə hazırlığı kurslarına cəlb olunması nəzərdə tutulmuşdur.

2020-ci il ərzində Şəki şəhər 1№-li Peşə məktəbi ilə bağlanmış müqaviləyə əsasən 16 nəfər işsiz vətəndaş 3 aylıq "Turanimator" peşə kursuna cəlb olunmuşdur. 2020-ci il üçün Ərazi Məşğulluq Proqramında mərkəzdə qeydiyyatda olan işsiz və işaxtaran vətəndaşlardan 130 nəfərinin özünüməşğulluq proqramına cəlb olunması nəzərdə tutulmuşdur. 2020-ci ildə 226 nəfər işaxtaran və işsiz vətəndaş özünüməşğulluq proqramı ilə əlaqədar təlimlərə cəlb olunmuşdur, onlardan 53 nəfəri qadındır.

Dövlət Sığorta Şirkətinin Şəki şəhər filialı 2020-ci il ərzində sığortanın 3 növü üzrə 16907 manat sığorta tədiyyəsi toplamışdır. Toplanmış sığorta tədiyyələrinin 10341 manatını avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası, 6556 manatını daşınmaz əmlakın icbari sığortası, 10 manatını fərdi qəza sığortası təşkil edir.

**Göründüyü kimi Şəki rayonunda quruculuq işləri ilə yanaşı, iqtisadiyyatın bütün istiqamətləri üzrə inkişaf təmin edilmiş, bu sahələrdə qazınılan uğurlar davamlı xarakter almışdır. Qədim Şəki öz şöhrətini daha da yüksəltmək əzmindədir.**

*Məzahir ƏHMƏDZADƏ*

AZƏRBAYCAN RESPUBLİKASININ MEDİANIN İNKİŞAFI AGENTLİYİNİN MALİYYƏ YARDIMI İLƏ

# QEYRƏTDƏN DOĞULAN VƏTƏN SEVGİSİ

***Ramil çağırış vərəqəsini alanda başqa yoldaşları kimi təmkinini pozmadı. Ürəyində intiqam hissi, üzündə qürur hissi vardı. Düşünürdü ki, axı nə qədər səbr etmək olar?***

Azğın düşmən təxribatları, dinc sakinlərin snayper güllələri nəticəsində həyatını itirmələri nə vaxta qədər cavabsız qalacaq? Hələ 9 yaşında ikən birinci Qarabağ müharibəsi başlanıb. O vaxt indiki kimi güclü ordu yox idi.

Erməni faşistlərini isə demək olar ki, bütün dünya müdafiə edirdi. Xalqımız təpədən?dırnağa qədər silahlananvə havadarlarından dəstək alan düşmənlərin qarşısında əliyalın dayanmışdı. Elə buna görə də torpaqlarımızın

20 % -dən çoxu itirildi. Soydaşlarımız öz dədə-baba torpaqlarından qovulub qaçqın, köçkün vəziyyətinə düşdülər.Xocalı əsrin soyqırımına məruz qaldı.O vaxtdan illər keçmişdi, Ramilin də artıq 37 yaşı vardı. Ali təhsil almışdı. Azərbaycan Silahlı Qüvvələrinin tərkibində hərbi xidmət keçmiş, artilleriya üzrə hərbi biliklərə mükəmməl yiyələnmişdi. Bir də ki, insan suyu, duz?çörəyi ilə böyüdüyü, havasını gen-bol ciyərlərinə çəkdiyi doğma vətəninin çağırışına, harayına necə səs verməyə bilər? Vətən dar gündə, çətin zamanda özünün qeyrətli övladlarına söykənir;

## Oğul atası

***Cəfər kişinin səsi Ramili düşüncələrdən ayırdı: - Olmaya qorxursan? ? soruşdu.***

***?Yox, ay ata, - deyə cavab verdi."Bədnam qonşuların başımıza gətirdiyi müsibətlər barədə düşünürəm.Gec-tez hamımız Vətən üçün əsgərik. Böyük türk şairi Nazim Hikmət demişkən: "mən yanmasam, sən yanmasan, biz yanmasaq, necə çıxar qaranlıqlar aydinlığa?".***

Ramil ailənin yeganə oğul övladı idi. Onun dedikləri Cəfər kişinin ürəyini kövrəltsə də qururunu gizlədə bilmədi:

***- Bax, səndən bunu gözləyirdim, - dedi.***

2020 - ci il sentiyabr ayının 21?də Lənkərandan gedən N saylı hərbi hissənin tərkibində Ağcabədi rayonunda qeydiyyatdan keçərək, döyüş paltarı geyindilər. Hissə ayın 22-də axşam qaranlığında Beyləqanın Harami düzünə gətirildi. Üç gün ərzində burada keçirilən döyüş üsullu təlim məşqlərindən sonra şəxsi heyət sentyabrın 26-da Füzuli rayonunun Canquli kəndindəki döyüş mövqelərində yerləşdirildi. Döyüş əmrini gözləyən şəxsi heyət ,nəhayət günorta saat birin yarısında müharibəyə qoşuldu. Alınan məlumatlara görə mövqelər tez-tez dəyişdirilirdi. Təbii ki, bu da azğın düşməni azdırmaq və onların zərbə hədəfinə çevrılməməkdən ötrü idi.

## Leytenant Ramil Cəfərov

***ağır artilleriya diviziyasının 2-ci batareyasının tərkibində vuruşurdu. Mövqelərimizi Cəbrayıla dəyişdik- deyə, Ramil Iştirak etdiyi bütün döyüşləri, şahidi olduğu döyüş səhnələrini təfərrüatıyla diqqətə çatdırmaq istəyirdi, - Cəbrayılda dörd gün döyüşdük. Düşmən hədəflərini susdurduqdan sonra Qubadlıya getmək barədə əmr aldıq. Burada düşmənin xeyli sayda hərbi hissəsi cəmləşmişdi. Güclü müdafiə istehkamları qurulmuşdu. Basdırılan saysız-hesabsız minalar qəhrəmanlıqla döyüşən əsgərlərimizin irəliləməsinə mane ola bilmirdi. Qubadlı düzənliyində öncə bizi güclü raket mərmiləri ilə atəşə tutdular.Mərmilər böyük dağıdıcı qüvvəyə malik idi. Atılan kimi qəlpələr geniş bir ərazini əhatə edir, çoxlu insan tələfatına səbəb olurdu. Məcbur qalıb arxaya çəkildik. Hamımz yerə yatdıq. Üstümüzdən mərmilər uçurdu, başımızı qaldıra bilmirdik. Təxminən 4-saata qədər bu vəziyyətdə qaldıq.***

Amma sürünə-sürünə də olsa, yerimizi dəyişdik. Nəhayət məlumat gəldi ki, qarşıdakı təpənin arxasına keçək. Çətinliklə də olsa, deyilən yerdə mövqe tutduq. Fasiləsiz beş gün burada döyüşdük. Əsgərlərimizin irəliləməsinə mane olan düşmənlərin zərbə hədəflərini məhv etdik, piyada qoşunlarımızı mühasirəyə düşməkdən xilas etdik. Artıq verilən döyüş tapşırıqları yerinə yetrilmişdi. Mövqelərimizi dəyişdik. Qubadlıda Narlıq deyilən yerə gəldik. Tapşırığa əsasən buradan Laçın dəhlizində olan düşmən qüvvələrinə zərbə endirməli idik. Bir neçə hədəfi məhv etdik . Laçın dəhlizini daha yaxından vurmaq üçün Qubadlının Sarıyataq kəndində yerləşdik. Düşmən duyuq düşmüşdü. Laçın dəhlizinə girişimizi bağlamaq üçün Həkəri çayının üstündəki körpü partladıldı. 9 gün neytral sahədə ac-susuz qaldıq. Bizə yemək-azuqə gətirən maşınımızı vurdular Çətinliklə də olsa sağ olduğumuz barədə məlumatı ötürə bildik. Əvvəl köməkçi qrupa göndərildik. Sonra bizə yardım gəldi və şəxsi heyətimizi bərpa etdik. Əslində biz Laçın dəhlizinə daxil olmuşduq. Burada düşmənin ağır arteriyasınaı sıradan çıxarmış, bir neçə postunu ələ keçirmiş, çoxlu sayda hərbi qənimət əldə etmişdik.



## Tapşırığa əsasən

yenidən Sarıyataq məntəqəsinə - əvvəlki mövqeyimizə qayıtdıq. Kəşfiyyat müşahidə məntəqəsindən yeni tapşırıq aldıq. 4 şəxsi heyətlə 600 metr məsafədən düşməni müşahidə etməli idik. Dörd nəfərdən biri olan Xaçmazdan topçu Vüsal birinci topun baş topçusu idi.

***Dördümüz də ayrı-ayrı rayonlardan olmağımıza baxmayaraq, bizim üçün Azərbaycan adlı bir Vətən vardı. Hamımız bu Vətən uğrunda döyüşürdük. Təbii ki, ölənlərimiz, yaralanlarımız da olurdu. Bəzən görürdük yaralı yaşaya bilər, köməyə ehtiyacı var, dərhal onun köməyinə çatırdıq. Ölənləri döyüş zonasından uzaqlaşdırırdıq. Hamımızı Vətən sevgisi birləşdirirdi. Ürəyimizdə aşıb-daşan qisas hissi vardı.***

Biz ölməyi yox, öldürməyi düşünürdük. Döyüş uğurlarımızın bir səbəbi də, məhz bu idi. Hələ Narlıqda olanda düşmənin 300 nəfərdən ibarət şəxsi heyətini tamam məhv etdik. Bu döyüş uğurlarımıza görə bizə komandanlıq tərəfindən təşəkkür gəldi. Mənə baş leytenant hərbi rütbəsi verildi.

## Ramil danışdıqca,

***iştirak etdiyi, şahidi olduğu döyüş səhnələri, ordumuzun döyüş qəhrəmanlığı, müharibənin ağrı?acısı... gözlərimizin önündə canlanırdı. Şəhidlərin qanı tökülən, canları bahasına alınan bu torpaqlarda döyüşdən?döyüşə atılan, göydən başına od yağan Ramilin xəyalı dolaşırdı. Bəzən təbii halından çıxaraq söhbətinə ara verir, yanında şəhid olan əsgər dostlarını xatırlayır, gözləri yol çəkirdi.***

Qələbə xəbərini harada eşitdin?- deyə sual edəndə,

Qubadlıda, ? dedi.

***-Ordudan nə vaxt tərxis olundun?***

***-"Qələbədən sonra bizi Şuşanın Çanaxlı kəndinə apardılar - dedi, - çünki artilleriya diviziyası orada yerləşirdi. Şəxsi heyətdə olan dostlarım, o cümlədən Vüsal indi də xidmətdədir. Məni bir aydan sonra evə buraxdılar".***

Ramil Cəfərov 1983-cü ildə Lənkəran rayonunun Şilavar kəndində dünyaya göz açıb. Atası Cəfər kişi hazırda təqaüddə olsa da, rayonun tanınmış ziyalılarındandır. Kənddə el ağsaqqalı kimi hörmət və nüfuz sahibidir. Nəqliyyatın istismarı üzrə ali təhsilli mütəxəssisdir. Uzun illər Bakıda yol polisində məsul vəzifə daşıyıb. Həyat yoldaşı Akifə təqaüdçüdür.Bir oğul, bir qız övladı böyüdüb, boya-başa çatdırıb.

Cəfərova Ramilə Cəfər qızı, riyaziyyat və informatika sahəsi üzrə ali təhsil alıb. Ailəlidir, iki uşaq anasıdır. Nurlan Elçin oğlu və Aydan Elçin qızı. Hər ikisi sağlam böyüyür.

## Ailənin yeganə oğlan övladı

olan Ramil Lənkəran Dövlət Universitetinin İqtisadiyyat fakültəsini "Gömrük işinin təşkili və idarə olunması" ixtisası üzrə bitirib. Bir neçə dildə, o cümlədən ingilis dilində sərbəst danışır. İki uşaq atasıdır. Qızı Rüqəyya yeddi, oğlu Yusif beş yaşındadır.

Ramil hərbi işin sirlərinə hələ Azərbaycan Silahlı Qüvvələrində xidmət edərkən yiyələnib. Xidmətin son üç ayında zabitlik təlim-məşq kursu keçib və leytenant rütbəsi ilə Lənkərana qayıdıb.

***İkinci Qarabağ Müharibəsi başlayanda hərbi meydanda Ramil Cəfərovun yeri görünürdü. Axı o, artilleriya zabiti idi.***

44 ğünlük Vətən müharibəsi 30 illik Qarabağ həsrətinə son qoydu. Böyük qələbə şəhidlikdən, igid, cəsur və ölümün gözünə dik baxan səngərdən-səngərə, döyüşdən-döyüşə atılan, müqəddəs Vətən sevgisini torpağa yazan oğulların qeyrət və hünərindən keçdi.

Analar, atalat döyüşlərə qatılan övladları ilə qurur duysalar da, ürəklərindəki yaralar sağalan deyil. Hələ də yollara baxan ciyərparalarını səbirsizliklə gözləyən analar var. Onlara elə gəlir ki, övladları getdiyi yolla da geri qayıdacaqlar. Lakin...

Qələbə qurbansız əldə olunmur -deyə Ramil Cəfərov söhbətinə davam etdi. Müharibədə ölüm lap qulagın dibində olur. Lakin bizi döyüşdən-döyüşə, qələbədən?qələbəyə aparan bir qüvvə var idisə, o da vətən sevgisi idi.

Bu sevgini müharibədə sözdə yox, əməldə, hünərinlə, ölümünlə yerinə yetirməli olursan. Son nəfəsdə olan döyüş yoldaşlarımın son sözləri, arzuları indi də qulağımda səslənir. " Kaş böyük qələbəni görə biləydim...

Vətən sağ olsun!"

**Müsahibimizin atası Cəfər kişi söhbətimizə qoşulub:**

***-Sağ olsun müzəffər Ali Baş Komandanımız, bizi uzun illərdən sonra Qarabağa qovuşdurdu,?dedi- Qələbəmiz, məhz İlham Əliyevin böyük sərkərdə kimi müdrik rəhbərliyi və ordumuzun qəhrəmanlığı sayəsində qazanıldı. Müharibədən sonra bütün şəhid ailələri, qazilər dövlət qayğısı ilə əhatə olunublar. Onlara hər cür yardım, köməklik göstərilir. İndiyə qədər yüzlərlə şəhid ailələrinə evlər, əlil qazilərimizə isə avtomobil verilib, ehtiyacları ödənilib. Təbii ki, bu son hədd deyil, diqqət və qayğı davamlıdir.***

Bəli, Vətən, onun uğrunda döyüşənləri, qurban gedənləri heç vaxt unutmur, sevgiyə sevgiylə cavab verir. Şəhidlərin xatirəsi əbədiləşdirilir, Qarabağ müharibəsinin şəhid və qazilərinə, müharibə iştirakçılarına təkcə dövlət qayğısı deyil, ümumxalq məhəbbəti var.

Başqaları kimi bizim Ramil də bunu yaxından duyur. Çünki böyük qələbədə onun da payı var. O, "Fizulinin azad olunmasına görə ", "Qubadlının azad olunmasına görə" və " Cəbrayılın azad olunmasına görə görə" medalları ilə təltif edilib. Bir Vətən övladı kimi öz borcunu şərəflə yerinə yetirdiyinə görə başını uca tuta, hamının üzünə dik baxa bilir.

Vaxt gələr, indi qayğı ilə böyüyən balaları - balaca Rüqəyya də, Yusif də ataları ilə fəxr edər, ürəyində aşıb-daşan müqəddəs Vətən sevgisini həyatda özlərinə meyar seçərlər.

**Xudaverdi Cavad,**
**Qulaməli Hüseynov**

## "Peyvəndləmə nəticəsində COVİD-19 bizim üçün təhlükəsini itirəcək"

***COVİD-19-a qarşı aparılasn peyvəndləmə nəticəsində bu virus artıq bizim üçün təhlükəliliyini itirəcək. Bunu həkim Emil Qasımov deyib.***

***Azərbaycanın peyvəndləmə səviyyəsinə görə MDB ölkələri arasında lider olduğunu vurğulayan həkimin sözlərinə görə, peyvəndləmə nəticəsində xəstəlikdən ölüm faizi xeyli aşağı düşə bilər. Əsas məqsəd COVİD-19-a yoluxan insanların xəstəxanaya düşməsinə ehtiyacın olmaması, yoluxanlarda ciddi fəsadlar yaranmaması və bunun ölümə səbəb olmamasıdır.***

***E.Qasımov əlavə edib ki, ölkəmizə artıq çox sayda vaksin gətirilib və bundan sonra da gətirilməsi nəzərdə tutulur: "Biz istəyirik ki, bütün növ vaksinlər ökəmizə gətirilsin və 8-10 milyon əhalinin hamısı peyvəndlənsin".***

***Həkimin sözlərinə görə, insanlara vurulan hər iki doza peyvəndin eyni olması məsləhətdir. Birinci doza "KoronaVak" vaksini istifadə olunubsa, 28 gündən sonra ikinci dozanın da eyni partiyadan olan vaksinin vurulması məsləhətdir: "Yalnız bəzi hallarda xaricdə olan şəxs başqa vaksini vurdurubsa, ölkəmizə gəldikdən sonra vaksinasiyanın tamamlanması, orqanizmində anticisimlərin yaranması üçün başqa vaksini vurdura bilər.***

***Ancaq Azərbaycandayıqsa, hər iki dozanın eyni olması məqsədəuyğundur. Dövlətin strategiyası da budur ki, şəxsə birinci hansı şirkətin peyvəndi vurulubsa, ikinci doza da ondan olsun".***

# "Hər kəsi ətrafıma buraxa bilmərəm"

***"Əsasən ana haqqında oxuyanda duyğularım qarışır. Oxuyuram, amma ifamda bir kövrəklik hiss olunur. Lakin o da bir gözəllik gətirir. Çünki, muğamı nə qədər ruhla oxusan, ona nə qədər yanğı versən, bir o qədər gözəl alınar". "Ədalət" qəzetinin qonağı müğənni Bahar xanım Lətifqızıdır.***

**-"Gecələr, ay gecələr"... Mahnıda gecələrə müraciətinizdə, sanki, bir yalvarış duyğusu var. Bu yalvarışın səbəbi nədir?**

-Uşaqlıqda anam mənim üçün yatmazdan öncə laylay çalardı və "gecələr"i ifa edərdi. Təbii ki, sözlərini tam bilmirdi.



Müəyyən illərdən sonra ki, mən internata qoyuldum, orada artıq anam və mahnını oxuyan yox idi. Özüm bu mahnını oxuyub özümə laylay çalırdım. Olsun ki, o günlərimin və anadan ayrı qalmağımın yanğısıdır, mahnıda duyulur. Allah mənə səs verib. Mən də o mahnını qərara gəldim ki, bu səslə oxuyum. Çünki, "Gecələr" mənim internat günlərimin ifadəsidir.

**-"Mən həsəd aparıram, yatanlara gecələr". Gecələri özünüzlə tək-tənha çox qalmısınız?**

-Bəli. Bunu çox demişəm, arzum o idi ki, valideynlərimin yanında yatım. Səhər duranda onları görüm, yeməyi onlar mənə versin. İnternat nə qədər yaxşı olsa da, valideyn nəvazişinin, sevgisinin yerini vermir. Ata və ana övlad üçün hər şey deməkdir. Hələ ki, sən uşaqsansa, bu tamamilə başqa bir hiss olur. İnternatda olanda, gecələri tənha qalanda deyirdim ki, kaş evimdə olaydım.

## "Elə günüm yoxdur ki, yadıma düşməsin"

**-Bahar xanım, düşüncələriniz içində keçmişlə bağlı məqamlar ola bilməz ki, yer almasın. Həmin anlar gözününüz önündə canlananda hansı hissləri keçirirsiniz?**

-Qəhər boğur sadəcə, qəhərlənirəm. Çalışıram ki, kövrəlməyim. Bir də görürsünüz, bir məclisdəyəm, bir tədbirdəyəm, hansısa mahnını ifa edəndə həmin an keçmişimi xatırlayıram. Onda doğrudan da gözlərim dolur. Özü də tez-tez. İnsan var ki, bu günü xoş keçir və keçmişini yada salmır. Amma mənim elə bir günüm yoxdur ki, keçmişim yadıma düşməsin. Məsələn, təzə bir paltar geyinəndə deyirəm ki, ay Allah, sənə çox şükür. Nə yaxşı ki, geyimim var, yeməyim, isti ocağım var. Keçmişdə bunların heç biri yox idi. Şükür ki, indi onlara sahibəm.

**- Heç uşaqlıqda düşünürdünüz ki, çətin anlar bitəcək?**

-Bir şeyə inanırdım, mən müğənni olacam. Düşünmürdüm ki, əziyyətlərim olacaq ya yox, amma qətiyyətlə müğənni kimi fəaliyyət göstərəcəyimi qarşıma məqsəd qoymuşdum və bu gün mən Bahar Lətifqızıyam.

**-Bilirik ki, siz bu sənətdə layiqli yer tutmaq, yəni Bahar xanım Lətifqızı kimi formalaşmaq üçün çox əziyyətlər çəkmisiniz. Qarşınızda maneə rolunu oynayan insanlar olubmu?**

-Bəlkə də olub, mən bilməmişəm, deyə bilmərəm. Bir insanı hər kəs istəyə bilməz. Ola bilər, mənim hansısa bir hərəkətim, auram kiminsə xoşuna gəlməz. Mən məcbur deyə bilmərəm ki, məni sevin. Bəlkə də elə insan var ki, deyir, Bahar heç bu sənətdə olmasın. Amma mənim pisliyimi istəyən insanlarla rastlaşmamışam. Yenə də deyirəm, bəlkə də var, mən bilmirəm. Bilirsiniz, mən ümumən pis insanda belə yaxşı əməli görməyə çalışıram deyə, ola bilsin, hər kəsi da yaxşı sanıram.

**-Həyatın enişli-yoxuşlu olması insanı daxilən zənginləşdirir, onun təcrübələrini artırır. Bu təcrübələr sizə bu gün kömək edirmi?**

-Mən o həyat dərsini keçməsəydim, bu gün bəzi şeyləri olduğu kimi dərk edə bilməzdim. Mənim yetərincə savadım olmasa belə (Düzdür, xanəndəlik üzrə təhsilim var. Mən burada fizika, kimya və s. fənləri nəzərdə tuturam) keçdiyim o yollarda qazandığım təcrübələr mənim Bahar kimi özümü ifadə etməyimdə çox kömək edir. Bundan sonra mən hansısa enişə düşsəm, hətta yenidən yoxsulluğun nə demək olduğunu görsəm, inanıram ki, yaşaya bilərəm. Çünki, mən o çətinlikləri görmüşəm və o hisslər mənə yad deyil.

## "Muğam bir dəryadır"

**-Muğam sizin üçün nə deməkdir?**

-Muğam Azərbaycan musiqisində, incəsənətində dərin bir dəryadır. Ora baş vurdunsa, onun sirlərinin içərisində itib batırsan. Yəni, muğam bir dəfə öyrənməklə bitmir. Onu hər zaman öyrənirsən. Düzdür, mən xanəndəliyi bitirmişəm, amma bu gün sırf xanəndə kimi fəaliyyət göstərmirəm. Oxuyuram, lazım olanda "Şahnaz" muğamı, "Mirzə Hüseyn" segahı və s. ifa edirəm. Amma tam şəkildə muğamda deyiləm. Müəllimim Canəli Əkbərov hər zaman deyirdi və bu gün belə vurğulayır ki, mən muğamı bu qədər bilirəm, lakin onun dərinliyi çoxdur, yenə də öyrənməliyəm.

**-Muğamı ifa edərkən hissləriniz. Bunu necə ifadə edə bilərsiniz?**

-Əsasən ana haqqında oxuyanda duyğularım qarışır. Oxuyuram, amma ifamda bir kövrəklik hiss olunur. Lakin o da bir gözəllik gətirir. Çünki, muğamı nə qədər ruhla oxusan, ona nə qədər yanğı versən, bir o qədər gözəl alınar. Bildiyiniz kimi mən ata haqqında muğam oxumamışam və heç vaxt da ata haqqında muğam oxuya bilmərəm. Çünki, mən atanın nə olduğunu nə duymuşam, nə də hiss etmişəm. İstəmirəm, bu haqda söhbətə davam edim.

**-Elə isə övladlarınızdan danışaq. Onlara qədər həyatınız necə idi, onlardan sonra necə oldu?**

-Mənim 14 il övladım olmayıb. Həmin dövrlərdə həkimlərə belə gedirdim. Onlar deyirdi ki, Allah vermir, heç bir problem yoxdur. O sözü ki, eşitdim, Allah vermir, dedim ki, ey Allah, nə olar məni də yadına sal. Dözdüm və 14 il sonra ana oldum. Bunu da əlavə edim. Deyirlər, atanın qarğışı tutur, ananın yox, amma belə deyil. Ananın da qarğışı tutur. Bir dəfə anama dedim ki, sən yaxşı ana olsaydın, məni internata qoymazdın. Bu sözdən sonra anamın ürəyi getdi. Ayılanda sakit tərzdə bir cümlə dedi: "Məni qınadın, arzum budur, Allah sənə övlad verməsin". Siz inanırsınız, mən neçə il onun əziyyətini çəkdim. Bir gün anamgilə getmişdim. Anam divanda əyləşmişdi. Dizimi yerə qoyub dedim ki, ay ana, mənə içdən dua et. Dua et ki, Allah mənə övlad versin. Anam ağladı, başımı sığalladı, ürəklə xeyir-dua verdi. 4 ay sonra bildim ki, ana olacam. Ana olana qədər mən bu hissi bilmirdim, ana olandan sonra analıq nədir, bilirəm.

**-Övladlarınızdan hansısa biri sizin yolunuzu davam etdirmək fikrindədirmi?**

-Əslində, tam səmimi istəmirəm, heç biri olsun. Böyük qızıma mənsiz sual versəniz, deyəcək ki, nə anam qoymaz, nə də özüm istəmirəm. Çətinliyi çoxdur. Düzdür, əlimiz təmizdir. Amma çox əziyyətlidir. Ona görə də oxuyub ya müəllim, ya həkim, ya da başqa bir sənətə yiyələnsinlər.

**-Bahar xanım belə bir sual verim. Özünüz üçün hansı çərçivələri müəyyən etmisiniz?**

-Çox açıq-saçıq geyinə bilmərəm. Özüm istəmirəm. Artıq bu xasiyyətim prodüsserim Vəfaya da keçib. Hətta qızlarım da məni qapalı geyimdə görmək istəyirlər. Məsələn, evdə olur ki, bir az açıq geyinirəm, böyük qızım deyir ki, ana bu geyimini bəyənmədim. Dost seçimində özümə qadağalarım var. Hər kəsi ətrafıma buraxa bilmərəm. Sənətimlə bağlı isə mən rock oxuya bilmərəm.

**-Bahar xanım, qarşılıqsız sevə bilərsiniz?**

-Xeyr. Çünki, o zaman insan özünü aldatmış olar. Mütləq ki, qarşı tərəfdən sən sevgi görməlisən. Düşünürəm ki, qarşılıqsız heç bir zaman və heç bir halda sevə bilmərəm.

**-Hansı şəraitdə və hansı məqamda insanı həyatınızdan silə bilərsiniz?**

-Silmək... Maraqlı sualdır. Bilsəm ki, mənim özümə, övladıma, ailəmə qarşı xəyanət var, o zaman silərəm. Amma ətrafıma elə insanı da buraxmıram ki, mənə xəyanət etsin.

**-Hər zaman ətrafınızda yaxşı insanların olması arzusu ilə. Çox sağolun ki, dəvətimizi qəbul edib gəldiniz. Minnətdaram.**

-Mən sizə təşəkkür edirəm.

**Rövşən Tahir**

# Duyğuların bahar çağı



**Bu gün bir əsgər anasının, igid və vətənpərvər oğul böyütmüş Dürdanə xanımın ad günüdür. Ömrünün 40-cı baharına qədəm qoyan ananın bütün fikri -düşüncəsi oğlu ilə bağlıdır. By yubiley yaşında Dürdanə xanım Salahovaya arzulayacağımız ən böyük diləyimiz də məhz igid əsgər balanın hərbi xidmətini başa vurub sağ-salamat evinə dönməsidir.**

**Bir insanın həyatındakı hər ildönümü xüsusi, vacib və əhəmiyyətlidir, lakin 40 il xüsusi bir tarixdir, bu, qızıl bir rəqəmdir. 40 yaş elə bir zirvədir ki, insan həm keçdiyi yola, həm də gələcəyə doğru baxa bilir. Bu mənada 40 yaşın məsuliyyəti böyükdür. Heyatda 40 yaşın əhəmiyyəti mükəmməlləşməkdən ibarətdir. Bu yaşa qədər gəlib keçmişə baxanda ilk növbədə vicdanı təmiz adamlar xoşbəxt olduqlarını deyə bilərlər. Bu mənada onu ən xoşbəxt qadın və ana adlandırmaq olar. 40 yaşın ildönümündə Dürdanə xanıma, oğlu Muradın simasında bütün əsgərlərimizə, millətimizə can sağlığı diləyirik. Bu əziz gündə, insan ömrünün müdrik dövrü hesab edilən 40 yaşında Dürdanə xanıma həyat boyu uğurlar arzu edirik. Bu təbrikə anası Narxanım, atası Şərafəddin bəy, qaynanası Mariya xanım, həyat yoldaşı Maqsud bəy, qızı Zahirə xanım qoşulur.**

## "Nəfəs darlığım vardı" - VİRUSA YOLUXAN ÇELİK



*Bütün dünyanı ağuşuna alan koronavirusa müğənni Çelik də yoluxub. Adalet. az saytı xəbər verir ki, ifaçı 15 gün müddətində xəstəxanada olduğunu dilə gətirib və hazırkı vəziyyətinin stabil olduğunu qeyd edib.*

*İnstagram hesabından yaşadıqlarını bir-bir izləyicilərinə izah edən müğənni bunları yazıb: "Ağciyərlərimi tomoqrafiya etdirdim və nəticə etibarilə mənə COVİD-19-a yoluxma diaqnozu qoyuldu. 15 günü xəstəxanada keçirdim. İlk günlər halsız idim, qızdırma, nəfəs darlığı vardı, amma indi yaxşıyam. Müalicəmi bitirmişəm və karantin müddətini də tamamlamışam. Hətta bir-iki gün sonra canlı yayım açıb sizə nələr yaşadıqlarımı daha ətraflı izah edəcəm".*

## Ruhi insanlara səsləndi: "Bizə kömək edin"



*"İlin ən şəfaqətli və ən müqəddəs ayı hesab olunan 11 ayın sultanı Ramazan gəlir. Düşünürəm belə bir müqəddəs ayda ehtiyacı olanlara yardım etmək, əl tutmaq hər kəsin öz həyatına iman işığı gətirməsi deməkdir. İman insan həyatını gözəlləşdirən İlahi bir ümiddir. Və bu Ramazanda isə hər zamankından daha çox paylaşmağa, birlik-bərabərliyə, xeyrə və yardımsevərliyə daha çox diqqət etməli olduğumuz bir aydır". Adalet.az saytı xəbər verir ki, bu sözləri iş xanımı Ruhi Əliyeva sosial şəbəkə hesabında yazıb:*

*"Bu səbəblə də, əziz dostlar, sizdən xahiş edirəm ki, tanıdığınız, həqiqətən, köməyə ehtiyacı olan 50 ailəyə yardım etməyimiz üçün onlarla əlaqə yaratmağımızda bizə köməklik göstərəsiniz. Məlumatları 051-329-03-49 nömrəsinə göndərə bilərsiz. Hər birinizə öncədən təşəkkür edirəm".*

*Rövşən Tahir*

# "Rəsm sonradan qazanılan bacarıqdır"

***Rəssam, keramikaçı Nəzrin Mirverdiyeva Adalet.az-a müsahibə verib.***

**- Nəzrin, şairlik, yazıçılıq deyirlər, daha çox fitrətdən gəlmədir, anadan belə doğulursan. Bəs, rəssamlıq necə, o da belədir? Yoxsa, sonradan öyrənmək də olar? Sözün sərhədi yoxdur, bunu öyrənmək olmur. Rəsmin varmı?**

- Əslində, bu da insanın fitrətində anadan gəlmə olmalıdır. Amma bir insanın həvəsi və istəyi olduqdan sonra hər şeyi bacara bilər, məncə. Və belə bir tələbəm var ki, əvvəldən heç vaxt rəsmlə məşğul olmayıb, amma artıq şəkillər çəkməyə, boya ilə işləməyə başlayıb

**- Onda belə çıxır ki, istənilən insanın həvəsi olsa, sadəcə dərs almaqla çəkə bilər? Sonradan qazanılan bacarıq deyəkmi daha çox, yoxsa, heç məşğul olmayan insanın içində azda olsa rəssamlıq var və bu üzə çıxır?**

- Sonradan qazanılan bacarıqdı. Bəlkə də, çoxu qatılmıyacaq buna, amma "mən bir çöp adam çəkə bilmirəm" deyən insanların bir müddət sonra çox qəşəng şəkillər ortaya çıxardıb.

**- Söz elə bir şeydir ki, istənilən zaman yazmaya da bilərsən. İstəyərsən yazasan, amma hisslərin imkan verməz. Rəsm necə? Bacarırsansa, istənilən vaxtı əlinə alıb, elə istədiyin rəsmi çəkmək olur? Yoxsa, burda da söz sənəti kimi hiss, duygu məsələsi var?**

- Rəsm elə bir şeydi ki, gərək əlin tez-tez işləsin. Bir müddət heç bir şey çəkməsən, sonradan ancaq çətinlik "çəkirsən". (Gülür) Və əgər rəsm çəkmək istədiyin vaxt kefin yaxşı deyilsə, sən rəsmə rəngarəng, sevgi dolu heç nə çəkə bilməzsən. Hiss, duyğunu ancaq söz sənətində yox, elə rəsmlə də ifadə etmək olur.

**-Siz həm də heykərtaraşlıqla məşğulsunuz. Bu barədə danışaq bir az... Nə düzəldirsiz, əsas işiniz nədən ibarətdir?**

- Heykəltəraşlıq deyəndə ki, Keramikaçıyam. Bəzən "keramikaçı" deyəndə, çoxu anlamır. Dipçəklər, qablar, heykəllər, mazayka və kaşı. Bir çox şeylər hazırlaya bilirəm.



**- Yəni, hazırda da bu işlə məşğulsunuz?**

- Bəli, daha çox bu işlə məşğul oluram.



**- Tələbat varmı? Deyəsən, keramikaçılar azlıq təşkil edir...**

- Mən özüm ancaq beton dipçəklər üzərində işləyirəm. Fərdi və online bir işdir. Amma bəzi işlər var, sadəcə, pandemiyaya görə qalıb. Keramikaçılar azlıq təşkil edir deyəndəki bu sahə üzrə kurslar var və bəziləri fərdi işləyir.

**- Siz daha çox rəsmdən dərs deyirsiniz, yoxsa keramikaçılıqdan?**

- Hal-hazırda rəsmdən. Keramçılıqla ayrıca məşğul oluram, məsələn, dibçəklər düzəldirəm və.s

**- Ədəbiyyatda maliyyə məsələsi bir az azdır, çətindir, rəssamlıqda necə? Bu da rəssamdan rəssama dəyişirmi? Məsələn, yaxşı şairin kitabı çox satılır, amma rəssamlar çox vaxt narazılıq edir ki, çox möhtəşəm əsər satılmır. Həm də, insanları sözə yönəltmək olur. Bəs, rəsmə? Bunun üçün nəsə etmək lazımdır? Təbliğat olaraq. Və nə etmək olar ki, insanların rəssama, şəkilə marağı artsın?**

-Bir çox insanlar rəsmə dəyər vermir. Sadəcə, rəsmə baxır, zövqünü oxşayır və qiymətə gələndə isə üzünü turşudur ki "bu nə qiymətdi". Rəsmdə ideya var, günlərlə, hətta aylarla olan əziyyət var. Rəsm, heykəl və s. əl əməyi olan heç nəyin ucuz satılmağını da düzgün hesab etmirəm. Və bəli, rəssamdan rəssama dəyişir. Elə rəssamlar var ki, zövqləri sadəcə çox az kütlənin zövqlərinə uyğun olur. Və məncə, yeni-yeni rəsmlərə həvəs artıb insanlarda.Təbliğat olaraq zatən ətrafda istedadlı insanlar çoxaldıqca, bəzi insanların gözləri açılmağa başlayır. Yavaş-yavaş rəssamlara və rəsmlərə həvəs artıb deyə bilərəm indi.

**-Bəs, dünyaca məşhur rəssamların əsərlərində bəzən görürük ki, çox xırda, adi bir şey milyon dəyərindədir. Məsələn, rənglərin qarışığı. Hamısını bir birinə qatıb, yaxud, sadəcə xəttlər çəkib. O rəsmlərdə də nəsə bir mesaj olur, yoxsa, rəssamın öz adına, məşhurluğuna görə, ümumi psixologiya görə? Guya burda nəsə var, hər adam başa düşməz kimi..**

-Bəli, onlar sadəcə həmin rəssamların adı var deyə bahalı satılan əsərlərdir. Düzdü, bir fikir var və nəsə bildirmək istəyib, amma boş kətanın ortasına bir nöqtə qoyub, sonra onu neçə milyon dollara almaq...Bu, sadəcə göstəriş üçündür

**- Əl işlərinizdən ibarət sərginiz olub, yaxud olacaqmı? Fərq etmir heykəltaraşlıq olsun, ya da rəsmlər.**

- Rəssamlıq Akademiyasında keçirilən sərgilərdə bir neçə dəfə əl işlərim olub. İşlərimi böyüdəndən sonra yeni bir sərgi keçirmək fikrim var.

**- İşlərinizdə uğurlar arzu edirik, müsahibə üçün də təşəkkürlər.**

**Söhbətləşdi:**
**Orxan Saffari**

## De Byazi: "Ronaldo bizə qarşı daha çox səhv etdi"

***"DÇ-2022-nin ilk iki oyununda texniki baxımdan özümüzdən güclü komandalara qarşı oynadıq. Onların güclü tərəflərini öyrənmişdik. Məhz bu səbəbdən daha çox müdafiəçi ilə çıxış edirdik. Bizim də şanslarımızın olacağını bilirdik. Yaranan şanslardan mütləq yararlanmaq lazım idi. Bu, hələ başlanğıcdır. Yolumuz uzundur".***

***Qol.az xəbər verir ki, bu sözləri millimizin baş məşqsisi Canni De Byazi "CBC Sport"da yayımlanan "Bizim futbol" verilişində müsahibəsində deyib.***

***İtaliyalı mütəxəssis bildirib ki, komandanın hücum xəttində problem yoxdur: "Deyə bilmərik ki, biz təkcə penaltidən qol vururuq. Millətlər Liqasında Lüksemburqla oyunu xatırlamaq istəyirəm. Orada gözəl kombinasiyadan sonra Ramil Şeydayev fərqləndi. Belə epizodlarımız çox olub. Bəzən onların hamısından faydalana bilmirik. Başa düşmək lazımdır ki, hər hücumçunun müxtəlif vaxtlarda yaxşı və pis periodları olur. Belə onların hər zərbələri qolla nəticələnir, əksi baş verən zamanda fərqlənə bilmirlər. Bir az səbrli olmaq lazımdır. Yaxşı nəticələr gələcək. Portuqaliya və Serbiya ilə oyuna görə futbolçulardan razıyam. Hər iki görüşdə məğlub olduq, adətən belə olanda razı qalmıram. Amma rəqiblər çox güclü idi. Ümumilikdə yaxşı siqnallar gördük".***

***De Byazi hücumçu Əli Qurbani haqda da danışıb: "Qurbani bizim üçün önəmli futbolçudur. Hamı səhv edə bilər. Messi və Ronaldo da səhv edir. Bu hücumçularda olan şeydir. Düşünürəm ki, Ronaldo bizə qarşı daha çox səhv etdi və epizodları qaçırdı. Nəinki Əli Qurbani Serbiyaya qarşı. Əli Qurbani bizim üçün Mahir Emreli və Ramil Şeydayev qədər vacibdir. Demişə demişəm, yaxşı oynayırsansa, yığmanın qapısı sənin üçün daim açıqdır. Əsas olan bayrağa sevgidir. Ancaq bununla yaxşı nəticələr əldə edə bilərik".***

## Zidan "Liverpul"la oyun haqda - "Real" həmişə güclüdür



**"Real"ın baş məşqçisi Zinəddin Zidan Çempionlar Liqasının 1/4 finalında "Liverpul"la keçirəcəkləri oyunlardan danışıb.**

Qol.az xəbər verir ki, 48 yaşlı mütəxəssis İngiltərə klubu ilə dueli komandası üçün erkən final adlandırıb:

"Bu bizim üçün bir final kimidir. Qarşıda cavab oyunu daxil olmaqla ən azı 180 dəqiqə var. Amma əvvəlcə sabahkı matçı düşünürük. Başqa şey düşünmürük. Klopp təcrübəli məşqçidir. Onun işləri göz önündədir. "Liverpul" böyük oyunçulara sahibdir. Bizim itkilərimiz - zədəli futbolçularımız da var. Amma "Real" həmişə güclüdür".

Qeyd edək ki, sabah keçiriləcək "Real" - "Liverpul" oyunu Bakı vaxtı ilə 23:00-da başlayacaq.

**Qumınskaya Təranə Səməd qızına məxsus şəhid ailə üzvünün vəsiqəsi itdiyi üçün etibarsız sayılır.**

Aqil Abbas **Şahlar Əsgərova** həyat yoldaşı
**ALMAZ xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Aqil Abbas Lənkəran şəhər İcra Hakimiyyətinin başçısı **Taleh Qaraşova** bacısı
**Ağazadə xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Məzahir Əhmədzadə Lənkəran şəhər İcra Hakimiyyətinin başçısı **Taleh Qaraşova** bacısı
**Ağazadə xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Ayaz Şirəliyev və Valeh Məmmədəliyev **Qaraşovlar ailəsinə**
**Ağazadə xanımın**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


**Təsisçi və baş məsləhətçi:**
**Aqil ABBAS**

**Baş redaktor:**
**İradə TUNCAY**

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Son dakika" MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

**KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.**
kod: 200112 h\h VÖEN 9900003611
Müxbir hesabı: AZ37NABZ01350100000000001944
S.W.I.F.T. Bik: AIIBAZ 2x hesab N:
AZ42AIIB38070019441100451111 VÖEN: 1300456161
**İndeks:0107 Qeydiyyat nömrəsi 100**

Ünvan: Bakı AZ.1073 Mətbuat prospekti, 529-cu məhəllə, "AZƏRBAYCAN" nəşriyyatı, 6-cı mərtəbə.
**Telefon: 538-05-50, 538-51-31. 434-55-98**
**Faks: 539-80-26**
**adaletqezeti@rambler.ru**
**adaletqezeti@mail.ru, adaletqezeti@box.az**

**Tiraj: 2000**
**Sifariş: 80**
Çapa imzalanmışdır:
05.04.2021